# PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN DİLİNDƏN HZ. MEHDİ

# MÜNDƏRİCAT


- GİRİŞ
  - Mehdiyyət, əhli sünnə inancına görə bir etiqad mövzusudur
  - Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi haqqındakı hədisləri “təvatür” dərəcəsindədir
  - İslam alimlərinin hz. Mehdinin gəlişi ilə əlaqədar izahları
- HZ. MEHDİNİN XÜSUSİYYƏTLƏRİ
- HZ. MEHDİNİN FİZİKİ GÖRÜNÜŞÜ
- HZ. MEHDİNİN ƏXLAQI VƏ ELMİNİN ÜSTÜNLÜYÜ
- HZ. MEHDİNİN KÖMƏKÇİLƏRİ
- HZ. MEHDİNİN ÇIXIŞ ƏLAMƏTLƏRİ
- HZ. MEHDİNİN MÜBARİZƏSİ
- HZ. MEHDİNİN HZ. İSA İLƏ BİR YERƏ GƏLMƏSİ
- QIZIL DÖVR
- ƏLAVƏ HİSSƏ: TƏKAMÜL NƏZƏRİYYƏSİNİN SÜQUTU

# GİRİŞ

## MEHDİYYƏT, ƏHLİ SÜNNƏ İNANCINA GÖRƏ BİR ETİQAD MÖVZUSUDUR

Həzrəti Mehdi, Axırzamanda göndəriləcəyi Peyğəmbərimiz (s.ə.v) tərəfindən müjdələnmiş olan, müsəlmanları zülm və çətinlik mühitindən qurtaracaq, yer üzündəki fitnələri ortadan qaldıracaq, bütün dünyaya barış, ədalət, bolluq, hüzur, xoşbəxtlik və rifah gətirəcək müqəddəs bir şəxsdir. Peyğəmbərimiz (s.ə.v)-dən çatdırılan səhih rəvayətlərə görə hz. Mehdi, müxtəlif xurafatlarla, batil inanc və tətbiqlərlə əslindən uzaqlaşdırılmış olan dini özünə çevirəcək, hz. İsa ilə görüşəcək, Allahın icazəsiylə yeganə haqq din olan İslamı yer üzünə məskun edəcəkdir.

Mehdiyyət mövzusu İslam tarixində hər dövrdə əhəmiyyətli bir yer tutmuşdur. Peyğəmbərimiz (s.ə.v)-in çox saydakı hədisində, adıyla, xüsusiyyətləriylə, köməkçiləriylə, dövrünün xüsusiyyətləriylə və edəcəyi işlərlə ətraflı olaraq təsvir edilən hz. Mehdinin gələcəyinə dair müxtəlif Quran ayələrində də işarə olaraq müjdələr vardır.

Bütün əhli sünnə alimləri, hz. Mehdinin Axırzamanda gələcəyi mövzusunda ittifaq halındadırlar. Peyğəmbərimiz (s.ə.v)-in müjdələdiyi bu şəxsin gələcəyi və İslam əxlaqını yer üzünə hakim edəcəyi haqqında, mötəbər İslam alimləri arasında heç bir fikir ayrılığı yoxdur.

## PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN HZ. MEHDİ HAQQINDAKI HƏDİSLƏRİ “TƏVATÜR” DƏRƏCƏSİNDƏDİR

Hədis imamları hz. Mehdi haqqındakı hədislərin **“mütəvatir”** olduğunu bildirmişlər. Bunun mənası budur: Mehdiyyət haqqında yazılan hədislər, bu mövzuda yalan danışmağı texniki olaraq mümkün olmayan kəslərdən, bir çox fərqli kanal vasitəsiylə hədis alimlərinə çatmışdır. **“Təvatür”,** söz mənası olaraq **“qüvvətli xəbər, içində yalan ehtimalı olmayan və bir camaata söykənən qüvvətli xəbər”** deməkdir. (Büyük Lugat-Tür-Dav, 3003) Hədis

alimlərə görə; bir xəbər bir çox insan tərəfindən rəvayət edilmişsə və bu ravilərin bir yerə gəlib, xəbər uydurmaları, vəziyyətləri etibarı ilə mümkün deyilsə buna "**mütəvatir**" xəbər deyilər. Bir çox İslam alimi, Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi ilə əlaqədar hədislərinin mütəvatir olduğunu bildirmişdir.

Həmçinin dinimizdə çox əhəmiyyətli bir qaynaq olaraq qəbul edilən "Kutubu Sittə"də də hz. Mehdi haqqında bir çox **"səhih"** hədis vardır. Kutubu Sittə xaricindəki digər hədis qaynaqlarında da mehdiyyətlə əlaqədar bir çox səhih rəvayət nəql edilir. Alimlərimizin, səhih və mütəvatir hədisləri rədd etmənin, Peyğəmbər (s.ə.v)-in sözünü rədd etmək mənasını verəcəyi istiqamətindəki ifadələri də diqqətə alındığında, mehdiyyət inancının dinimizdəki yeri və əhəmiyyəti daha yaxşı aydın olar.

Hz. Mehdi, əsrlərdir İslam ümməti tərəfindən gözlənilir. Ancaq gərək keçmiş alimlərin izah və şərhlərindən, gərəksə dövrümüzdə və yaxın keçmişdə yaşayan İslam alim və mütəfəkkirlərinin şərhlərindən və təriflərindən hz. Mehdinin çıxışının yaşadığımız dövrə aid olduğu aydın olur. Necə ki, rəvayətlərdə hz. Mehdinin çıxış əlaməti olaraq bildirilən hadisələrin bir çoxunun eynilə və qısa aralıqlarla ard-arda reallaşması, bu böyük şəxsin vəzifəyə başlamasının yaxın olduğunun, bəlkə də başlamış olduğunun açıq bir göstəricisidir. Peyğəmbərimiz (s.ə.v)-in mütəvatir və səhih hədislərində açıq şəkildə xəbər verilən və bir çox İslam aliminin əsərlərində ətraflı olaraq ələ aldıqları mehdiyyət mövzusunda, İslami ədəbiyyatda bir çox rəvayət və şərh vardır. Bunlardan bəzilərini belə sıralaya bilərik:

***İbni Hacər Askalani Fethül-Baridə; Mehdinin bu ümmətdən olacağı və hz. İsa (ə.s)-ın onun arxasında namaz qılacağına dair hədislər təvatür etmişdir, deyər. Şevqani də İsanın enəcəyinə dair hədislərin sayının 29-a çatdığını söyləyərək, bunları bir-bir nəql etmiş və sonunda: "Bizim nəql etdiyimiz hədislər göründüyü kimi təvatür həddinə çatdı. Bu bəyanımızla bu nəticəyə gəlinir ki, gözlənilən Mehdi haqqındakı hədislər, Dəccal haqqında hədislər və İsanın enməsinə dair hədislər mütəvatirdir" demişdir.*** *(Sünəni İbni Macə, 10/338)*

***Mehdinin gələcəyinə dair olan səhih hədislər təvatür xüsusiyyətini daşımaqdadır.*** *(Qiyamət əlamətləri, səh. 193)*

***Onların zənninə görə, Mehdi vəfat etdi; keçdi getdi... Halbuki, bu babda (mövzuda) gələn səhih hədisi-şəriflər məşhurdur. Hətta təvatürü mənəvi dərəcəsində olub, taifinin sözlərini təkzib edir.*** *(Məktubatı Rəbbani, 2/250)*

***Mehdinin gələcəyinə dair Rəsulallah (s.ə.v)-dən təvatür səviyyəsində bir çox hədis rəvayət edilmişdir...*** *(əbul-Həsən Məhəmməd ibn Həsən əl-Überi Sicistani, Menakıbüş-Şafii/Dr.G.Hüseyin Tacirineseb, Mehdilik və İmam Mehdi, səh. 88 və 405)*

***Mehdinin varlığı və Axırzamanda zühur edəcəyi, Peyğəmbər ailəsindən və Fatimə oğullarından olması, təvatür ölçüsünə çatan hədislərlə açıqlanmışdır və bu hədisləri inkar etmənin heç bir mənası yoxdur... Təvatür ölçüsünü aşan, doğru və açıq hədislərdə, Mehdinin Fatimə soyundan olub, dünya sona çatmadan zühur edəcəyi, zülm və haqsızlıqla dolmuş olan dünyaya, ədalət və haqlılıq gətirəcəyi, onun zamanında İsa Məsihin göydən enəcəyi və onun öndərliyində namaz qılacağı sübut edilmişdir.*** *(Şərif Məhəmməd ibn Rəsul Bərazənci Medeni, əl-işae, səh. 184 və 305 / Mehdilik və İmam Mehdi, səh. 328)*

***Qiyamət gününün ən böyük əlamətlərindən biri də, haqqında təvatür dərəcəsini aşacaq dərəcədə hədis olan bir insanın zühur edəcəyidir. Bir çox hədis hafizləri, Mehdinin peyğəmbər soyundan olduğunu qəbul etmişlər, belə mütəvatir bir mövzuya arxa çevirmək doğru olmaz. Haqq əhlinin inancına görə, Mehdi İsa Məsihdən ayrıdır. Mehdi, Məsihdən əvvəl zühur edəcək. Bu mövzu sünni alimləri arasında, onların inancından sayılacaq qədər məşhurluq qazanmışdır.*** *(Şəmsəddin Məhəmməd ibn Əhməd Sefareyni, Levaihül-Envarül Behiyye şəhəri, cild 2, səh. 74-76-86-dan xülasə)*

***Məhəmməd ibn Əli Şevkani, "et-Tavzih..." adlı kitabında belə söyləmişdir: ... Bunlar (Mehdi, Dəccal və Məsih ilə əlaqədar rəvayətlər) heç şübhə yox ki, mütəvatir hədislərdir, Peyğəmbərin buyruğu hökmündədir... Buna görə, Dəccal və Məsih haqqındakı rəvayətlər mütəvatir olduğu kimi Mehdi haqqındakılar da mütəvatirdirlər...*** *(Muhib ibn Saleh əl-Bureyni, Ikdüd-*

*Dürer fi Ahbaril-Muntazar, səh. 14-15 / Əbu Tayyib Məhəmməd Sıddık Kunuci, əl-İzaetü. səh. 95 və 130 / Mehdilik və İmam Mehdi səh. 329)*

***Mehdi haqqındakı hədislər, mənəvi təvatür ölçüsünü keçmiş, inkar edilmələrinin bir mənası yoxdur.*** *(Şeyx Həsən Advi Hamzavi, Meşarikül-Envar, F. 2, səh. 115 / Mehdilik və İmam Mehdi səh. 329)*

***... Mehdi haqqındakı hədislər təvatür ölçüsündən çoxdur. "Sünən", "Mesned" və "Mucem" kitablarında mövcuddur.*** *(M. Sıddık ibn Həsən Kunuci, əl-İzaetü... səh. 94)*

Yuxarıda adlarını verdiyimiz qaynaqlar xaricində bir çox insan daha saysız əsərində, hz. Mehdi haqqında hədislərin təvatür dərəcəsində olduğunu açıqlamışlar. Bu İslam alimlərindən bəziləri və bu mövzuda şərh etdikləri əsərləri bunlardır:

1) *Əbu Abdullah Məhəmməd ibn Yusif Gənci Nufeli, əl-Bəyan fi Ahbari Sahibik-Zaman, səh. 126*
2) *Şəmsəddin Məhəmməd ibn Əhməd Kurtubi, et-Tezkiretü fi Ahvalil-Mevta və Ümid edəril-axirəti, səh. 710*
3) *İbni Kayyim Cavziye Məhəmməd ibn Əbi Bəkr Dımışki, əl-Menarül-Münif, səh. 142*
4) *Şəhabəddin ibn Həcər Əhməd ibn Əli Askelani, Tahzib et-Tahzib, cild 9, səh. 126*
5) *Cəlaləddin Əbdürrəhman Suyuti, Arfül-Verdi, eki əl-Havi Lilfetavi, cild 2, səh. 165*
6) *Əbul-Abbas ibn Həcər Əhməd ibn Məhəmməd Haytemi, Sevaikül-Muhrika, səh. 99 / əl-Kavlül Müxtəsər, səh. 23*
7) *Şərif Məhəmməd ibn Rəsul Bərazənci Mədəni, əl-İşae, səh. 147, 185*
8) *Şəmsəddin Məhəmməd ibn Əhməd Sefarini, Levaihül-Envaril-Bəhiyyə, cild 2, səh. 89 / Əhvalı Yevmül-Qiyamət, səh. 33*

*9) Məhəmməd ibn Əli Sabban Mısri, İsafur-Rağibin, Nurul-Ebsar haşiyəsində mətbu səh. 192 Sevaikül-Muhrikadan nəql edərək.*

*10) Mömin ibn Hasan Mümim Şeblanci, Nurul-Ebsar, səh. 189*

*11) Məhəmməd Sedik Həsən Kunuci Buxari, əl-İzae, səh. 120*

*12) Məhəmməd ibn Cəfər İdrisi Ketanı, Nzmül-Mütenasır Fil-Hadisil-Mütəvatir, səh. 145*

*13) Əbul-Feyz Əhməd ibn Məhəmməd Ğumari, İbrazül Vehmil-Meknun, səh. 3-4*

*14) Abdülmuhsin ibn Məhəmməd Abbad, Mecceletül-Camiatül-İslamiyyə, sayı 3, səh. 598*

## İSLAM ALİMLƏRİNİN HZ. MEHDİNİN GƏLİŞİ İLƏ ƏLAQƏDAR İZAHLARI

Bir çox böyük İslam alimi Axırzamanda hz. Mehdinin gəlişində heç bir şübhə olmadığını ifadə edən şərhlər etmişdir. Bunların arasında ən məşhurlarından biri Muhyiddin Ərəbidir. Futuhatı Məkkiyə adlı əsərində Muhyiddin Ərəbi belə deyir:

***Şübhəsiz ki, yer üzü zülm və haqsızlıq ilə dolduğu sırada Allahın xəlifəsi qiyam edəcək, yer üzünü ədalət və bərabərliklə dolduracaq... Ümumi qazancı xalq arasında bərabər olaraq paylaşdıracaq, xalqa ədalətlə hökm edəcək və anlaşılmazlıqlarda hakimlik edəcək... Allah onun işini bir gecədə nizama qoyacaq, zəfər həmişə onun qarşısında gedəcək... Ayağını Peyğəmbərin ayağının yerinə qoyacaq (onun izində gedəcək) və heç bir zaman azmayacaq... Dağınıq dinləri (batil inancları) ortadan qaldırıb, yalnız haqq dini hakim edəcək...*** *(Muhyiddin Ərəbi, əl-Futuhat Əl Məkkiyə, 366-cı bab, cild 3, səh. 327-328)*

Bu mövzuda şərh edən bir başqa insan isə misirli məşhur yazıçı Şeyx Mənsur Əli Nasifdir. Bir əsərində Mehdilik inancını bu şəkildə təsvir edir:

***Əhli Beytdən Mehdi adında bir şəxs mütləq zühur edəcək, İslam torpaqlarına hakim olacaq, müsəlmanlar onu izləyəcək və o, müsəlmanlar arasında ədalətlə, haqqaniyyətlə davranacaq, dini möhkəmlədəcək. Ondan sonra Dəccal ortaya çıxacaq və Məsih (hz. İsa) enərək Dəccalı öldürəcək və ya öldürülməsində Mehdiyə kömək edəcək.*** *(ət-Tacül-Camiü Lil-Usul, cild 5, səh. 341)*

Misir əl-Əzhər Universiteti İnanclar Kürsüsündə müəllim olan yazar Seyid Sabiq isə, İslam Konfransı tərəfindən seçilmiş bir kitab olaraq nəşr olunan "el-Akaidül İslamiyye" (İslam əqidəsi) adlı kitabında hz. Mehdinin gəlişi ilə əlaqədar bu açıqlamanı edir:

***Mehdi haqqında sözün əsli budur ki; O, zamanın sonunda, çox yaxında zühur edəcək... Yer üzü zülm və haqsızlıqla dolmuş ikən, o, ədalət və haqqaniyyətlə dolduracaq. O şübhəsiz surətdə İslam qanununu ortaya qoyacaq və köhnəldilmiş olan Peyğəmbər sünnəsini canlandıracaq.*** *(əl-Akaidül-İslamiyyə, səh. 250)*

Aləddin Əli ibn Hişam Muttaki Hindi də, "ər-Rəddi" adlı kitabında belə demişdir:

***Allahın rəhməti sənə olsun bil ki; vəd edilən Mehdinin yaranmasında heç şübhə yoxdur. Üç yüz hədis və əsərlə hətta daha çoxu ilə bu sübut edilmişdir.*** *(Casim Mühelhil, əl-Burhan, cild 1, səh. 339 / Mehdilik və İmam Mehdi, səh. 328)*

Məşhur İslam alimlərinin, bu açıqlamalarla yanaşı, hz. Mehdinin gəlişi ilə əlaqədar mövzuların əhli sünnə inancı olduğuna dair də ətraflı şərhləri mövcuddur. Bu şərhlərdən bir neçəsini belə sıralamaq mümkündür:

***Əbu Məhəmməd Həsən ibn Əli əl-Bərbəhari Hənbəli "Şərhüs-Sünnət" adlı kitabında əhli sünnə inanclarını sıralayaraq belə yazır: "...Və Məryəm oğlu***

***İsanın göydən enəcəyinə, Dəccalı öldürəcəyinə və Məhəmməd (s.ə.v) oğullarından Qaimin (Mehdi) arxasında namaz qılacağına inanmaq."*** *(Casim Mühelhil, əl-Burhan..., cild 1, səh. 426)*

***Doğru hədislərə söykənən, qəti olaraq inanılan bir mövzu da (zühur edəcək olan) Mehdinin varlığıdır. Onun zamanında Dəccal və Məsih də ortaya çıxacaq.*** *(İbni Həcər, Əhməd ibn Məhəmməd Haytəmi Şafisi, əl-Kavlül-Muhtasar fi Əlamatil Mehdiyyül-Muntazar, səh. 74)*

***Əbul-Eşbal Əhməd Məhəmməd Şakir "Şərhi Müsnədi İmam Əhməd" adlı kitabında: Bir çox səhabədən doğru sənədlərlə çatan doğru sünnəyə görə: (Mehdiyə inanmaq) sübut edilmiş, bunun doğruluğundan şübhə etmək kimsənin həddində deyil.*** *(Casim Mühelhil, əl-Burhan... Müqəddiməsi, cild 1, səh. 343)*

***Demək ki, Mehdinin zühur edəcəyinə inanmaq vacibdir, ona inanmaq Peyğəmbər (s.ə.v)-ın buyruğunu təsdiqləmək üçün lazımlıdır. Necə ki, bu mövzu əhli sünnə inanc kitablarında yazılmış və sübut edilmişdir.*** *(Ebul-Feyz Əhməd ibn Məhəmməd Ğumari Şafisi, İbrazül-Vəhmül-Məknun, səh. 3-4)*

İslam alimlərinin hz. Mehdinin gəlişi və edəcəkləri haqqındakı hədislər ilə əlaqədar etdikləri bu izahlar şübhəsiz son dərəcə əhəmiyyətlidir. Ancaq daha da əhəmiyyətlisi Peyğəmbərimiz (s.ə.v)-in Axırzaman və hz. Mehdi ilə əlaqədar hədislərinin indiki vaxtda tək-tək və bir-bir ard-arda reallaşmasıdır. Şübhəsiz bu hadisələrin Peyğəmbərimiz (s.ə.v)-in bir möcüzəsi olaraq reallaşması, düzgün olması üzərində hər hansı şübhəyə imkan vermir.

# HZ. MEHDİNİN XÜSUSİYYƏTLƏRİ

## 1) MEHDİ MÖVZUSUNUN QAYNAĞI NƏDİR? ETİBARLI QAYNAQLARA SÖYKƏNİRMİ?

Mehdiyyət mövzusu İslam tarixində hər dövrdə əhəmiyyətli bir yer tutmuşdur. Bir çox İslam alimi, tarixçi və araşdırmaçı hz. Mehdi haqqında əsərlər qələmə almış, ya da əsərlərində mehdiyyət mövzusuna əhəmiyyətli bir yer ayırmışdır. Bu əsərlər araşdırıldığında, mehdiyyət mövzusunun müzakirəyə yer buraxmayacaq dərəcədə qətilik göstərdiyi, hər ağıl və vicdan sahibi müsəlman tərəfindən rahatlıqla aydın ola bilər. Bütün əhli sünnə alimləri hz. Mehdinin Axırzamanda gələcəyi mövzusunda ittifaq halındadırlar.

## 2) HZ. MEHDİ İLƏ ƏLAQƏDAR HANSI ETİBARLI QAYNAQLARDA HƏDİSLƏR RƏVAYƏT EDİLMİŞDİR?

1) *Tirmizinin Sünənində 3 ədəd,*
2) *Əbu Davudun Sünənində 8 ədəd,*
3) *İbni Macənin Sünənində 8 ədəd,*
4) *Əhməd ibn Hənbəlin Müsnədində 12 ədəd,*
5) *Abdülrəzzak ibn Hemmamın əl-Musannefində 8 ədəd,*
6) *İbn Əbi Şeyxənin əl-Musannefində 14 ədəd,*
7) *İbn Hibbanın Səhihində 7 ədəd,*
8) *Heyseminin Zevaidində 20 ədəd,*
9) *Suyutinin Camius Sağırında 8 ədəd,*
10) *əl-Muttaki el-Hindinin Kenzül Ummalında 59 ədəd,*
11) *Hakimin Müstedrekində 12 ədəd,*
12) *Deyleminin əl-Firdevsində 7 ədəd,*

13) Darekutninin Sünənində 1 ədəd olmaq üzrə, bu qaynaqlarda hz. Mehdi ilə əlaqədar cəmi 159 etibarlı hədisi-şərifdir.

Həmçinin böyük İslam alimlərindən,

*İbn Kəsir 3,*

*Hafiz Busuri 2,*

*Zehebi 5,*

*Munziri 1,*

*Azimabadi 6,*

*Elbani 6* etibarlı hədisi-şərifə əsərlərində yer vermişlər.

Bunlar hz. Mehdi ilə əlaqədar hədislərin olduğu etibarlı qaynaqların yalnız bir qismidir. Bunların xaricində də daha bir çox etibarlı qaynaqda hz. Mehdi mövzusundakı hədislər və şərhlər vardır.

## 3) HZ. MEHDİNİN MÜTLƏQ ÇIXACAĞINI BİLDİRƏN HƏDİSLƏR HANSILARDIR?

Hz. Mehdinin Axırzamanda mütləq çıxacağını bildirən hədislərdən bəziləri bunlardır:

***Əgər dünyadan bir gün belə qalsa, Allah, o (hz. Mehdi) idarəni ələ alana qədər o günü uzadar.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 10)*

***Əgər dünyadan bir gecə belə qalsa, Allah onu uzadar və Əhli Beytimdən birini (hz. Mehdi) məlik edərdi.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 10)*

***Ümmətim arasında Mehdi gələcəkdir...*** *Ümmətim onun zamanında yaxşı və pisin, bənzəriylə nemətlənmədiyi bir nemətlə nemətlənəcək, səma üzərlərinə bol yağış yağdıracaq, ərz bitkisindən heç bir şey saxlamayacaq. (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 9)*

***Dünyadan bir gecə belə qalsa, Allah o gecəni uzadar və Əhli Beytimdən biri gələrək dünyaya hakim olardı.*** *Onun adı adıma, atasının adı atamın adına uyğundur. Daha əvvəl yer üzü necə zülmlə doldusa, o, onu ədalətlə dolduracaq. (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 11)*

## 4) MEHDİ SÖZÜNÜN MƏNASI NƏDİR?

**"Mehdi",** söz olaraq, **"hidayətə çatmış, hidayət tapmış insan"** mənasını verər (İslam Ensiklopediyası, "Mehdi", cild 5, səh. 149). Dini ədəbiyyatda və xalq arasında isə Peyğəmbərimiz (s.ə.v)-in Axırzamanda gələcəyini müjdələdiyi mübarək şəxsin adı olaraq keçir. Bir İslami qaynaqda sözün tərifi belə edilir:

***"Mehdi": Allahın həqiqətən haqq yoluna apardığı kimsədir.*** *Bu söz, adlar arasında o qədər çox istifadə edilmişdir ki, bilinən adlardan olmuşdur. Peyğəmbərin Axırzamanda gələcəyini müjdələdiyi kimsə bu adla adlandırılmışdır. (İbnül-Esir əl-Cezeri, "en-Nihayə fi Garibil-Hadisi vəl-Əsər", cild 4, səh. 244)*

Bir başqa qaynaqda da hz. Mehdi haqqında belə bir şərhə yer verilib:

***Mehdi Allahın haqq yola çatdırdığı kimsədir. Mehdi Peyğəmbərin (s.ə.v) Axırzamanda gələcəyini müjdələdiyi, öz ailəsindən olan kimsənin adıdır. Yer üzünü ədalət və bərabərliklə dolduracaq; zülm və haqsızlıqla dolmuş ikən o Konstantiniyyədə (əl-Müncid Fil-Alam) Məsih ilə birlikdə olacaq. Ərəbə və Ərəb olmayan hər kəsə hökm edəcək, Dəccalı öldürəcək... Onun zühur edəcəyini dost və düşmən inkar etmişdir. Onun qiyamına dair rəvayətlər***

***təvatürə çatmışdır. Allahım! Onun zühurunu tezləşdir...*** *(Fahrettin et-Türeyhi, Mecmaül-Bahreyn və Matlaün-Nayyireyn, cild 1, səh. 475-476)*

## 5) HZ. MEHDİ HANSI SOYDAN OLACAQ?

Hədislərdə hz. Mehdinin Peyğəmbərimiz (s.ə.v)-in soyundan olacağı bildirilir. Hz. Mehdinin bu xüsusiyyətini xəbər verən hədislərdən bəziləri belədir:

*Qiyamətin qopması üçün zamanda yalnız bir gündən başqa vaxt qalmamış da olsa* ***Allah (c.c) mənim Əhli Beytimdən (soyumdan) bir şəxsi (hz. Mehdini) göndərəcək.*** *(Sünəni Əbu Davud, 5/92)*

***Mənim Əhli Beytimdən bir şəxs bütün dünyaya hakim olana qədər günlər və gecələr getməz.*** *(en-Necmus Sakıb, Ukayli)*

***Mehdi, qızım Fatimənin nəsilindəndir.*** *(Sünəni İbn Macə, 10/348)*

***Mehdi ilə müjdələnin! O Qureyşdən və Əhli Beytimdən bir insandır.*** *(Kitab-ul Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 13)*

***Mehdi, mənim uşaqlarımdan biridir.*** *Üzü səmada parlayan ulduz kimidir. (Əli ibn Sultan Məhəmməd əl-Kari el-Hanefinin "Risaletül Meşreb elverdi fi məzhəbil Mehdi")*

Bütün peyğəmbərlər bir-birinin soyundandır. Hz. Mehdi də hədislərdə ifadə edildiyinə görə bu soydan gəlir. Xalq arasında bu soydan gələnlərə "seyid" deyilir. "**Hz. Mehdi də seyid olacaq.**"

Allah, Quranda bir-birlərinin soyundan gələn elçilərdən bəhs edir (Ənam surəsi, 83-84). Bu ayələr hz. Mehdinin də eyni soydan gələcəyinə işarə etmiş ola bilər (Doğrusunu Allah bilir).

## 6) HZ. MEHDİ HARADA DOĞULACAQ?

***O, Mədinədə doğulacaq...*** *Nuaym ibn Hammad. İmam Əli (r.ə.)-dən belə nəql etmişdir.*

Kurtubinin Tezkirəsində, Onun məğrib ölkələrindən çıxacağı, oradan gəlib dənizi keçəcəyi izah edilir. (Qiyamət əlamətləri, 7-ci nəşr, səh. 162)

(Mədinə sözü Ərəbcədə "**şəhər**" mənasını verir.)

## 7) HZ. MEHDİNİN ADI NƏ OLACAQ?

Peyğəmbərimiz (s.ə.v)-in bir çox hədisində, hz. Mehdinin adının Peyğəmbərimiz (s.ə.v)-in adına "**müvafiq**" yəni "**uyğun**" olacağı bildirilir. Bu hədislərdən bəziləri belədir:

*Ey insanlar, şübhəsiz Allahu Təala sizə zalımları, münafiqləri və onlara uyanları mən etmiş və sizə ümməti Məhəmmədin ən xeyirlisi olan və Məkkədə olan,* ***İSMİ ƏHMƏD, atasının adı Abdullah olan hz. Mehdini rəis etmişdir. Ona qatılın.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 31)*

*Göydən belə bir səs eşidiləcək: "Ey insanlar artıq Allah cabbarları, münafiq və köməkçilərini sizdən uzaqlaşdırdı. Ümməti Məhəmmədin ən xeyirlisini başınıza gətirdi. Məkkədə ona qatılın, o Mehdidir.* ***Adı da Əhməd ibn Abdullahdır.*** *Digər bir rəvayət: "Sizə Məhəmməd Ümmətinin ən xeyirlisi olan Cabiri təyin etdi. Məkkədə ona çatın o Mehdidir. Adı Məhəmməd ibn Abdullahdır!" (Qiyamət əlamətləri, Mədinəli Əllamə Məhəmməd ibn Rəsul əl-Hüseyn Əl Bərzənci, Pamuk nəşriyyat, 8-ci nəşr, səh. 165)*

Rəvayətlərin çoxunda Mehdinin adı "Məhəmməd" olaraq keçər; bəzi rəvayətlərdə isə "**Əhməd**" deyə izah edilər...

*Əbu Davud ilə Tirmızinin İbni Məsud (r.ə)-dən nəql etdiklərinə görə, Allahın Elçisi (s.ə.v) belə buyurmuşdur: "**Onun adı adıma, atasının adı da atamın adına müvafiq olacaq...**" (Qiyamət əlamətləri, genişlədilmiş 9-cu nəşr, səh. 159-160)*

Peyğəmbərimiz (s.ə.v) **"Onun adı adıma, atasının adı da atamın adına müvafiq olacaq..."** deyərək, Mehdi ilə adları arasında bir bənzərlik olacağına diqqət çəkmişdir. Bu mövzuya bağlı bəzi hədislərində isə Mehdinin adının "**Əhməd**" olacağını xəbər vermişdir.

Peyğəmbərimiz (s.ə.v)-in adı olan "**Məhəmməd**" və hədislərdə Mehdiyə işarə edən "**Əhməd**" adları ərəb dilində eyni feildən gəlməkdədir və məna olaraq da hədislərdə ifadə edildiyi kimi bir-birlərinə "**müvafiq**" yəni "**uyğun**"dur.

Lüğəti mənalarına baxıldığında da, hədislərdə işarə edilən Məhəmməd və Əhməd adlarının bu məna bənzərliyi açıq şəkildə görülür:

**Əhməd:** Daha çox təriflənməyə layiq, çox, ən çox mədh edilmiş olan.

**Məhəmməd**: Bir çox, təkrar-təkrar təriflənmiş, mədh edilmiş tərcüməsində bir ad.

Mövzuyla əlaqədar işari mənada bir ayədə isə belə bildirilir:

**"...məndən sonra adı ƏHMƏD olan bir elçinin də müjdələyicisiyəm" demişdi... (Səff surəsi, 6)**

## 8) HZ. MEHDİNİN QARDAŞI OLACAQDIR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Hz. Mehdinin qardaşının az olacağı xəbər verilmişdir:

***Qardaşı az olandır...*** *(Risalətül Mehdi, səh. 161)*

## 9) PEYĞƏMBƏRLƏRƏ ENDİRİLƏN KİTABLARDA HZ. MEHDİ HAQQINDA MƏLUMAT VARDIR?

***Naim buyurdu ki: Mən Mehdini Peyğəmbərlərin suhufunda (səhifələrdə;*** *Adəm, Şit, İdris və İbrahim peyğəmbərlərə endirilən səhifə şəklindəki kitablarda)* ***belə taparam: "Mehdinin əməlində nə zülm, nə də ayıb yoxdur."*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 21)*

***Peyğəmbərlərə dair olan kitablarda, "Mehdinin işi zülm və pislik deyil" şəklində işarə edilmişdir.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 49)*

***İbni Münavi deyir ki: "Danyal (ə.s)-ın kitabında belə yazılıdır. "Süfyanlar 3 ədəddir, Mehdilər də 3-dür. 1-ci Süfyan çıxıb adı sanı yayıldığında ona qarşı 1-ci Mehdi, 2-ci Süfyana qarşı 2-ci Mehdi, 3-cü Süfyana qarşı da Hz. Məhəmməd Mehdi çıxacaq və Allahı Təala daha əvvəl fəsada uğrayanları və iman əhlini onunla qurtaracaq. Sünnələr onunla canlandırılacaq, bidət atəşləri də onunla sönəcək. Onun zamanında insanlar əziz olacaq və öz müxaliflərinə qalib gələcəklərdir. Gözəl bir həyat sürüləcək, yer və göy bərəkətini artıracaq, bu vəziyyət 7 il davam etdikdən sonra Mehdi vəfat edəcək.*** *(Bu hədis Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman adlı kitabın Süleymaniyə kitabxanasında olan əl yazılı bir nüsxəsində mövcuddur.)*

Peyğəmbərimiz (s.ə.v)-in səhabələrinin Tövrat və İncildə müjdələnilmələri kimi, hz. Mehdi də digər peyğəmbərlərə endirilmiş kitablarda müjdələnilir; bu kitablarda hz. Mehdidən tərifləyərək bəhs edilir.

## 10) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN HAKİMİYYƏTİNİN HANSI PEYĞƏMBƏRLƏRİN HAKİMİYYƏTİNƏ BƏNZƏYƏCƏYİ BİLDİRİLMİŞDİR?

Quranda hz. Zülqərneyn və hz. Süleymanın yaşadıqları dövrlərdə yer üzündə geniş miqyasda təsirli olduqları xəbər verilmişdir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində isə, hz. Mehdinin də hz. Zülqərneyn və hz. Süleyman kimi İslam əxlaqını bütün yer üzünə hakim edəcəyi xəbər verilmişdir:

***Mehdi eynilə Zülqərneyn və Süleyman kimi dünyaya hökm edəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 30)*

***Yer üzünə dörd insan malik olmuşdur. İkisi mömin, ikisi kafirdir. Möminlər, Zülqərneyn və hz. Süleyman,*** *kafirlər isə Nəmrud və Buhtunnasırdır.* ***Beşinci olaraq Əhli Beytimdən biri (hz. Mehdi) gələcək və o da dünyaya malik olacaq.*** *(Kitabul Burhan Fi Əlamət-el Mehdiyy el Axırzaman, səh. 10)*

## 11) PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN HƏDİSLƏRİNDƏ, HZ. MEHDİNİN GƏLİŞİNİN MÜSƏLMANLAR ÜÇÜN BİR MÜJDƏ MÖVZUSU OLDUĞU NECƏ BİLDİRİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v), "**Mehdi ilə müjdələnin**" (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 12) buyuraraq, hz. Mehdinin gəlişini həyəcan və şövqlə gözləmənin, bu mübarək şəxs üçün hazırlıq etmənin əhəmiyyətinə diqqət çəkmişdir.

## 12) PEYĞƏMBƏRİMİZ (S.Ə.V), HZ. MEHDİ GƏLDİYİNDƏ MÜSƏLMANLARIN ONA UYĞUN GƏLMƏLƏRİNİN ƏHƏMİYYƏTİNİ NECƏ BİLDİRMİŞDİR?

***Sizdən ona kim çatsa, qar üzərində sürünərək də belə olsa ona gəlsin. Ona qatılsın. Çünki o, Mehdidir.*** *(İbn Macə, Fiten, Bölüm 34, Hədis 4082; İbn Əbi Şeybe, cild 7, səh. 527; Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 14)*

# HZ. MEHDİNİN FİZİKİ GÖRÜNÜŞÜ

## 13) HƏDİSLƏRDƏ, HZ. MEHDİNİN FİZİKİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA MƏLUMAT VERİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v), hz. Mehdinin əxlaqı və mübarizəsi ilə yanaşı, fiziki xüsusiyyətlərini də çox ətraflı olaraq təsvir etmişdir. Peyğəmbərimiz (s.ə.v)-in hz. Mehdi haqqındakı təsvirləri o qədər ətraflı və açıqdır ki, hz. Mehdi ortaya çıxdığında onu görənlər bu təsvirlərdən dərhal onu tanıyacaqlar.

Bir ayədə, Kitab Əhlinin Peyğəmbərimiz (s.ə.v)-i "**uşaqlarını tanıyar kimi**" tanıyacaqları bildirilir:

**Özlərinə kitab verdiklərimiz, onu (peyğəmbəri), uşaqlarını tanıyar kimi tanıyarlar. Buna baxmayaraq içlərindən bir hissəsi, bildikləri halda gerçəyi gizləyərlər.** (Bəqərə surəsi, 146)

Bu ayə işarə mənasında, hz. Mehdinin tanınmasına da işarə edir (doğrusunu Allah bilir). Hz. Mehdi də ortaya çıxdığında, Peyğəmbərimiz (s.ə.v)-in təsvirləri işığında, insanlar onu övladlarını tanıyar kimi tanıyacaqlar. Ancaq buna baxmayaraq bəzi insanlar, bu mübarək şəxsi tanımamazlıq edəcəklər və onu inkar edəcəklər.

## 14) PEYĞƏMBƏRİMİZ (S.Ə.V), HZ. MEHDİNİN FİZİKİ XÜSUSİYYƏTLƏRİNİ NECƏ TƏSVİR ETMİŞDİR?

### GÖZƏL VƏ NURLUDUR

***O, (Mehdi) gözəl bir cavandır, gözəl yüzlüdür. Yüzünün nuru başına və saçlarının qarasına qədər yüksələr.*** *(Mehdilik və İmamiyə, səh. 153 /İkdüd Dürerdən)*

***Üzü parlayan ulduz kimi nurludur.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 33/Kitab-ül Burhan Fi Alamatil-il Mehdiyy-il Axırzaman, səh. 22)*

*...**Üzü səmada parlayan ulduz kimidir.** (Deylemi, cild 4, səh. 221, İbnul Cevzi, cild 2, səh. 558; Əli ibn Sultan Məhəmməd əl-Kari əl-Hənəfi "Risaletül Meşreb elverdi fi mezhebil Mehdi")*

***O (Mehdi), orta boylu və gözəl üzlü bir gəncdir... Üzünün nuru, saçının, saqqalının və başının qaralığı üzərinə gün kimi parlayar və ona ucalıq verər.*** *(Ukayli "En-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib Alət-Mövzum vəl kamal")*

*Mehdi mənim övladlarımdandır. **Onun üzü, parlaq ulduz kimidir.** (Ukayli "Een-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib Alət-Mövzum vəl kamal")*

***Gözəl yüzlüdür. Yüzünün nurları ona əzəmət verər.*** *(Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

***...Üzündə parlaq ulduz kimi bir rəng vardır...*** *(Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar, səh. 12)*

Quranda da Allah, hz. Yusifin gözəlliyini bu şəkildə xəbər verir:

**...(Yusifə də:) “Çıx, onlara (görün)” dedi. Beləcə onlar onu (fövqəladə gözəllikdə) görüncə (fövqəlbəşər bir varlıqmış kimi gözlərində) böyütdülər...**
(Yusif surəsi, 31)

## QARA SAÇLIDIR

*Üzünün nuru başına və **saçlarının qarasına** qədər yüksələr. (Mehdilik və İmamiyə, səh. 153/İkdüd Dürerdən)*

***Qara saçlıdır.** Qara saqqallıdır. (Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi “Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar”)*

*Üzünün nuru, **saçının, saqqalının və başının qaralığı** üzərinə gün kimi parlayar və ona ucalıq verər. (Ukayli “En-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib Alət-Mövzum vəl kamal”)*

## ÜZÜNDƏ XAL OLMASI

***Üzündə bir xal olacaq.** (əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 41)*

## ÇİYNİNDƏ PEYĞƏMBƏR (S.Ə.V)-İN ƏLAMƏTİ VARDIR

***Mehdinin çiynində Peyğəmbərimiz (s.ə.v)-dəki əlamət olacaq.** (əl-Kavlul Muhtasarr Fi Alamatil Mehdiyy-el Muntazar, səh. 41)*

*Çiynində Peyğəmbər (s.ə.v)-in **əlaməti vardır.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 165; Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 23)*

***Çiynində Peyğəmbər (s.ə.v)-in nişanı vardır.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 163)*

Hədisi şəriflərdən aydın olacağı üzrə hz. Mehdinin iki çiyini arasında hz. Məhəmməd (s.ə.v)-də olduğu kimi açıq bir işarə olan **"Peyğəmbərimiz (s.ə.v)-in əlaməti"** olacaq. Peyğəmbərimiz (s.ə.v)-in əlaməti, İslami qaynaqlarda bu şəkildə bildirilir:

*Əbu Saib ibn Yeziddən rəvayət edilmişdir: "**Gözüm Peyğəmbərimizin iki çiyini arasındakı möhürə ilişdi.**" (Sünəni Tirmizi, 6/126)*

## RƏNGİ

*Hz. **Mehdinin rəngi ərəbidir...** (İbn Həcər Əl Mekki; "əl-Kavlül Müxtəsər fi Əlamatil Mehdiyy-il Muntazar", səh. 15-75)*

Qeyd: Ərəb irqinin dəri rəngi qırmızı ilə qarışıq ağdır.

Hz. Peyğəmbər (s.ə.v)-in dəri rəngi də qırmızıya çalan ağ rəng idi. Lakin, bədəninin görünən qisimləri günəş şüası və küləkdə əsmərə çalırdı. Rəvayətlərdən hz. Mehdinin də Peyğəmbərimiz (s.ə.v)-lə eyni rəngdə olacağı aydın olur. Bir rəvayətdə Rəsulullah (s.ə.v)-in dəri rəngi belə təsvir edilir:

*Ənəs ibn Malik, Peyğəmbər (s.ə.v)-in rəngi haqqında belə dedi: **Ağ idi. Lakin ağı əsmərə çalırdı.** (İbni Kəsr, Şemailür- Rəsul, səh. 28)*

*Əsmər deyilməsində məqsəd dümağ olmayıb, az qırmızılığı vurğulamaqdır. Çünki Rəsulu Əkrəm həzrətlərinin rəngi, hamamdan hələ yeni*

*çıxmış və özünə qırmızılıq gəlmiş olan ağ rəngli bir kimsənin o andakı rəngi kimidir. Yəni Rəsulu Əkrəm həzrətlərinin mübarək rəngi, qırmızı ilə qarışıq nurani ağ idi. (İbni Kəsr, Şemailür- Rəsul, səh. 28)*

## ÜMUMİ GÖRÜNÜŞÜ

***Hz. Mehdinin boyu, buxunu sanki İsrailoğulları görünüşündədir.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamatil Mehdiyy-il Muntazar, səh. 36-29)*

***Cismi, İsrail cismidir.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 24)*

*Mehdi sanki İsrailoğullarından bir insandır. (**Rəftarı onlara bənzər, heybətli və ağıllı**) (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 23-30)*

***O ...heybətli bir insandır.*** *(İkdüd dürer)*

*Hz. **Mehdinin bədəni İsrailidir.** Hz. Mehdi, sanki İsrailoğulları **görünüşündədir** (qabaqcıllarından). (İbn Həcər Əl Mekki)*

***Cismi, İsrail bünyəsi kimidir.*** *(Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

***(Xarici görünüşü) sanki İsrailoğullarından bir insana bənzəyir.*** *(Ukayli "En-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib Alet-Mövzum vəl kamal")*

***Sanki o, İsrailoğullarından bir insan kimidir.*** *(Nuaym ibn Hammad, vr. 52a; Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

## GENİŞ BƏDƏNLİ OLMASI

Hədislərdə hz. Mehdinin qarnının, sinəsinin, alnının, ayaq arasının, budunun sümüklərinin geniş olduğu bildirilir. Alnının geniş olmasıyla mütənasib olaraq başı da böyük olacaq. Bütün bu təsvirlərdən, hz. Mehdinin bütün bədəninin geniş olduğu aydın olur.

***İri gövdəli...*** *(Ukayli "En-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib Alət-Mövzum vəl kamal")*

***O, alını geniş... qarnı böyük, iki bud arası geniş...*** *(Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar, səh. 13)*

***O, açıq alınlıdır.*** *(Meriy ibn Yusif ibn Əbu Bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

***İki bud arası aralıdır...*** *(Meriy ibn Yusif ibn Əbi Bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

*Hz. Mehdi, hz. Həsənin soyundandır.* ***Ayaqları aralıdır.*** *(Əli ibn Hüsamettin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, səh. 22)*

*...Onun ...***alını genişdir.*** *Yer üzünü ədalətlə dolduracaq və malı bol bir şəkildə dağıdacaq. (Əli ibn Hüsamettin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, səh. 22)*

## BOYU

***Mehdi, orta boylu olacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 41)*

*Mehdinin adı Məhəmməd ibn Abdullahdır.* ***O, orta boyludur...*** *(Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar, səh. 11)*

Peyğəmbərimiz (s.ə.v)-in də eyni boyda olduğunu rəvayətlərdən öyrənirik:

*Ənəs ibn Malik rəvayətlərdə buyurdu ki:* ***Rəsulullah (s.ə.v) orta boylu idi.*** *Bilindiyi kimi hədisdə keçən "Rəbə" sözü normal və orta boylu deməkdir. Lakin normal boy üçün uzun olan şəxsə görə bir sərhəd vardır. Çünki boyun sahibi öz qarışı ilə yeddi qarış qədər olan boya normal boy deyilər. (Tirmizi, Şemaili Şərif, səh. 15)*

## ALNININ AÇIQ VƏ GENİŞ OLMASI

Hz. Mehdinin alnının açıq və geniş olmasına uyğun olaraq başının da böyük olacağı hədislərdən aydın olur.

*Mehdi məndəndir...* ***Açıq alınlıdır.*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 21)*

*Mehdi bizdəndir,* ***alnı açıqdır...*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 21)*

*Allahu Təala, mənim nəslimdən, **alını açıq**, yer üzünü ədalətlə dolduraraq malı və əşyanı insanlara bol-bol paylayacaq bir övladımı göndərəcək. (əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 23)*

***O, açıq alınlıdır.** (Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

***Şübhəsiz ki, Allah, mənim nəslim içində alını açıq (olan) bir şəxs göndərəcək.** (Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar, səh. 11)*

## QARNININ GENİŞ OLMASI

*O, alını açıq... **qarnı böyük**, iki bud arası geniş... (Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar, səh. 13)*

## BUD SÜMÜKLƏRİ UZUNDUR

***Budu uzundur**, rəngi ərəb rəngidir. (Qiyamət əlamətləri, Bərzənci, səh. 162-163)*

## YERİMƏSİ

***Bir xüsusiyyəti də yeriyərkən bud sümüyünün açıq və bir-birindən uzaq olmasıdır.** (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 32)*

## YAŞI

Hədislərdə ifadə edilən hz. Mehdinin göndərildiyi yaşındakı niyyət, onun vəzifəyə başlayacağı, insanların özünü tanıyacaqları və fəaliyyətini görüb izləyəcəkləri yaşlardır.

***Yaşı 30 ilə 40*** *arasında olduğu halda göndəriləcək... Mehdi mənim övladlarımdandır. 40 yaşlarındadır. (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 41)*

***40 yaşındadır.*** *Digər bir rəvayətə görə 30 ilə 40 yaşındadır. (Qiyamət əlamətləri, Bərzənci, səh. 16)*

*Mehdi mənim nəslimdəndir.* ***O 40 yaşındadır.*** *Sanki üzü parlaq bir ulduzdur... (Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif əl-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

## SAQQALI

***Saqqalı çox və sıx olacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

***Saqqalı sıxdır.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 163)*

## BURNU GÖZƏLDİR

*Onun alını geniş,* ***burnu isə incə*** *olacaq. (Tırmizi, Böyük Hədis Külliyyatı, Rudani 5-ci cild, səh. 365)*

*O, açıq alınlı, **kiçik burunlu**… (Məhəmməd ibn Rəsul Al-Hüseyni Əl Bərzənci, "Qiyamət əlamətləri" pamuk nəşriyyat, tərcümə: Naim Ərdoğan, səh. 163)*

*O açıq alınlı və **incə burunludur**. (Əhməd, ibn Hənbəl II-291, III-17) (Sünəni Əbu Davud Tərcümə və şərhi, cild 14, Şail nəşriyyat, K. əl-Mehdi (35), səh. 404)*

## QAŞLARI VƏ GÖZLƏRİ

*O, açıq alınlı, kiçik burunlu, **iri gözlü**… (Məhəmməd ibn Rəsul Al-Hüseyni Əl Bərzənci, "Qiyamət əlamətləri" Naim Ərdoğan, səh. 163)*

***Qaşı qövslüdür.*** *(Məhəmməd ibn Rəsul Al-Hüseyni Əl Bərzənci, "Qiyamət əlamətləri" pamuk nəşriyyat, tərcümə: Naim Ərdoğan, səh. 163)*

*Hz. Mehdinin qaşları… **araları açıq…** (əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 41)*

Hədisdə hz. Mehdinin qaşlarının arasının açıq olmasıyla, gözü və qaşı arasında məsafənin geniş olduğu ifadə edilir.

## DİŞLƏRİNİN GÖZƏLLİYİ VƏ PARLAQLIĞI

***Dişləri parlaq olacaq.*** *(Nuaym ibn Hammad, vr. 52a; əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 41)*

*Mehdi, gur saqqallı,* ***ön dişləri parlaq****... (Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Feraidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

# HZ. MEHDİNİN ƏXLAQI VƏ ELMİNİN ÜSTÜNLÜYÜ

## 15) PEYĞƏMBƏRİMİZ (S.Ə.V) HZ. MEHDİNİN ƏXLAQINI KİMİN ƏXLAQINA BƏNZƏDİR?

Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. Mehdinin əxlaqının, öz əxlaqına bənzədiyini ifadə etmişdir:

***Mehdi Allaha qarşı son dərəcə boyun əyicidir. Əxlaq baxımından Peyğəmbər (s.ə.v)-ə bənzəyər.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 163)*

***Əxlaqı mənim əxlaqım olan bir övladım çıxacaq.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 21)*

Peyğəmbərimiz (s.ə.v)-in üstün əxlaqı isə Quranda belə xəbər verilmişdir:

**Şübhəsiz sən üstün və çox uca bir əxlaq üzərindəsən. (Qələm surəsi, 4)**

## 16) PEYĞƏMBƏRİMİZ (S.Ə.V) HZ. MEHDİNİN ƏXLAQINI NECƏ TƏSVİR EDİR?

### Allah qorxusu çox güclüdür

***Mehdi Allaha qarşı son dərəcə boyun əyicidir.*** *Əxlaq baxımından Peyğəmbərə bənzəyər. (Qiyamət əlamətləri, səh. 163)*

***Mehdi, gerges quşunun qanadının titrəməsi kimi Allahdan çox qorxan bir kimsədir.*** *(Cəlaləddin Suyutinin təsnifindən hədislər, səh. 23)*

## Əxlaqı inananlar üçün nümunədir

***İlahi bolluq*** *(bərəkət və bolluq, elm və mədəniyyət)* ***ona çatar. Dini elmləri və nümunə əxlaqı dərk edər.*** *(Allahdan alar.) (Konavi Risalət-ül Mehdi, səh. 161)*

Quranda Peyğəmbərimiz (s.ə.v)-in də səmimi olaraq iman edənlər üçün gözəl bir nümunə olduğu bildirilmişdir:

**And olsun, sizin üçün, Allahı və axirət gününü ümid edənlər və Allahı çox zikr edənlər üçün Allahın Rəsulunda gözəl bir nümunə vardır. (Əhzab surəsi, 21)**

## Zamanının ən xeyirlisidir

*İbni Cərir, Tehzib-il Asarda belə təxric etdi (ortaya qoydu):* ***Məhəmməd ümmətinin ən xeyirlisi və sizin çətinlikləri aradan qaldıran vəliniz olan kimsəyə qatılın... O Mehdidir.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 57)*

***Dövründə yer üzünün ən xeyirlisi özü olacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntəzər, səh. 27)*

*Naim ibn Hammad, Kabdan təxric etdi (ortaya qoydu), buyurdu ki:* ***Mehdi (zamanındakı) insanların ən xeyirlisidir.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 58)*

## Hz. Mehdinin əməlində ayıb və zülm yoxdur

***Mən Mehdini, peyğəmbərlərin səhifələrində (kitablarında) belə görürəm: Mehdinin əməlində nə zülm, nə də ayıb vardır.*** *(Nuaym ibn Hammad, vr. 50b; Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 21)*

***Peyğəmbərlərə dair olan kitablarda, "Mehdinin işi zülm və pislik deyil" şəklində işarə edilmişdir.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntəzər, səh. 49)*

## Halalları və haramları çox yaxşı bilməsi

*Hz. Hüseyn (r.ə)-dən soruşdular: "İmam Mehdi hansı əlamətlərlə bilinər?" Belə cavab verdi: "Könül rahatlığı və qazanc sahibi olması ilə,* ***halal və haramı çox yaxşı bilməsi ilə tanınar.*** *(Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif əl-Makdisi "Feraidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntəzər")*

## Hikmət və anlayış gücü çox yüksəkdir

Hədislərdə hz. Mehdinin Allahın ona verdiyi xüsusi bir gücə sahib olduğu bildirilir:

***O, kimsənin bilmədiyi gizli bir gücün sahibi olduğu üçün ona Mehdi deyilmişdir.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman)*

Muhyiddin Ərəbi hz. Mehdinin bəzi xüsusiyyətlərini sayır. Aşağıdakı izahında hz. Mehdinin diqqət çəkən başlıca 9 xüsusiyyətinə yer verir:

*1) Bəsirət sahibi olması*

*2) Müqəddəs kitabı anlaması*

*3) Ayələrin mənasını bilməsi*

*4) Təyin edəcəyi kəslərin hal və hərəkətlərini bilməsi*

*5) Qəzəbləndiyində belə mərhəmət və ədalətdən ayrılmaması*

*6) Varlıqların siniflərini bilməsi*

*7) İşlərin dolaşıq tərəflərini bilməsi*

*Çünki bunlardan xəbəri olan bir lider verəcəyi hökmlərdə yanılmaz. Mehdi müqayisə elmini onunla hökm etmək üçün deyil, ondan qaçınmaq üçün bilər. Çünki verdiyi hökm doğru bir ilham nəticəsi olacaq. Yəni hz. Məhəmməd (s.ə.v)-in gətirdiyi şəriət üzrə hökm edəcək. Bu səbəblədir ki, Peyğəmbərimiz (s.ə.v) onun haqqında edərkən "Mənim izimi izləyəcək, səhvə yol verməyəcək" demişdir. Bundan anlayırıq ki, Mehdi, şəriət sahibi deyil, şəriətə uyandır.*

*8) İnsanların ehtiyacını yaxşı anlaması*

*Çünki onların hər cür işlərini görmək üçün Allah onu digər insanlar üzərinə seçmişdir. Liderlərin davranış və fəaliyyətləri onlardan çox xalqın mənfəətinə olmalıdır... Xalqın faydasına zidd şeylərlə məşğul olub, onların işlərini görməyən bir lider vəzifədən azad olunması lazımdır. Çünki onunla digər insanlar arasında fərq qalmamışdır.*

*9) Xüsusilə öz zamanında ehtiyac hiss edilən qeybi elmlərə hakim olmasıdır. Çünki ancaq o sayədə yeni-yeni zühur ediləcək məsələləri həll edə bilər. (Qiyamət əlamətləri, səh. 189)*

## Mübarizəçi və cəsurdur

***Fitnələrin qarşısını almanın ona çətin gəlməyəcəyi və öldürməyin də onun əl çəkməyəcəyi Əhli Beytimə (soyuma) mənsub biri sahib olmadan***

***günlər və gecələr bitməyəcək.*** *(Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 13)*

***Mehdi işi möhkəm tutacaq.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 175)*

***İnsanlar haqqa dönənə qədər (fikri) mübarizəsinə davam edəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 23)*

***Mehdi hesabını çox ardıcıl bir şəkildə görəcək və vədindən dönməyəcək.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 24)*

***Qarşısına dağlar belə tikilsə onları əzib keçəcək, o dağlarda özünə yol tapacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 39)*

Allah Quranda bir çox ayədə elçilərinin gözəl əxlaqından və cəsur xarakterlərindən bəhs edir. Elçilər qövmlərinin bütün inkarçı rəftarlarına, lağ-lağalarına, tələlərinə və hücumlarına ən gözəl şəkildə cavab vermişlər və hər zaman Allahın köməyiylə qalib gəlmişlər.

## Çox mərhəmətlidir

***Hz. Mehdi, o qədər mərhəmətli olacaq ki, zamanında bir kimsənin belə burnu qanamayacaq.*** *(əl-Kavlul Müxtəsər fi Alamatil Mehdiyy-il Müntəzar, səh. 42)*

***...Yoxsullara qarşı çox mərhəmətli olması, Mehdinin əlamətlərindəndir.*** *(Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif el-Makdisi "Feraidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Müntəzər")*

***...Məzlumlara qarşı da çox mərhəmətli olmasıdır.*** *(Nuaym ibn Hammad, vr. 50b; Ukayli "en-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib Alət-Mövzum vəl kamal")*

## İslamı qoruma hissi çox güclüdür

Hz. Mehdinin şərəf duyğularının çox güclü olacağı hədislərdə bildirilmişdir. İslam əleyhinə ediləcək hər cür sözü tam olaraq cavablandıracaq, bu istiqamətdəki hər cür hərəkəti, fikri olaraq tamamilə təsirsiz hala gətirəcək.

***İslamın əleyhinə deyiləcək bir söz belə ona ağır gəlir.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Müntəzər, səh. 30)*

## Kimsəyə tənəzzül etməməsi

***O, mənim ümmətimdən, tənəzzül etməyən (Allahdan başqa heç bir varlığa minnət duymayan bir insandır.*** *(Suyuti, əl-havi, 2/24)*

## Ehtiyaclarını insanlara bildirməməyi

*Hz. Hüseyn (r.ə)-dən soruşdular: "İmam Mehdi hansı əlamətlərlə bilinər?" Belə cavab verdi: "**...İnsanlar ona möhtac olarlar. O, isə insanlara ehtiyacını bildirməz.**" (Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif əl-Makdisi "Feraidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

## Hər məsuliyyəti üzərinə götürməsi

***Heç bir tərəfin ondan məhfuz (gizli) qalmayacağı bir fitnə zühur edəcək, bu fitnə qaldığı yerdən dərhal başqa bir tərəfə yayılacaq və bu vəziyyət bir münadinin səmadan səslənərək: "Ey insanlar, əmriniz artıq Mehdidir" deməsinə qədər davam edəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

### 3) HZ. MEHDİNİN ÇIXIŞINDAN ƏVVƏL İĞTİŞAŞLARIN YAYILMASI

***Bu hadisələr meydana gəlmədikcə qiyamət qopmayacaq... Ölümlər və qırğınlar yayılmış hala gələcək...*** *(Camiüs-Sagir, 3:211, Müsned, 2:492, 4:391, 392)*

### 4) DÜNYANIN HƏR YERİNİ QARIŞIQLIQ VƏ İĞTİŞAŞLARIN BÜRÜMƏSİ

*Dünya hərc-mərc* içində qaldığında, fitnələr zühur etdiyində, yollar kəsildiyində, bəziləri bəzisinə hücum etdiyində, böyük kiçiyə mərhəmət etmədiyi, böyüyə təmkinli davranmadığında Allah, bu sırada onlardan ədavətin (düşmənliyin) kökünü qazıyaraq dəlalət qalalarını fəth edəcək və əvvəlcə mənim dəstək olduğum kimi, Axırzamanında dinə dəstək olacaq, əvvəldən zülmlə dolu olan dünyanı ədalətlə dolduracaq birini (Mehdi) göndərəcək. (Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman)*

(*) hərc-mərc: İnsanlar arasında meydana gələn fitnə, fəsad, iğtişaş, qarışıq mühit.

## 5) QADINLAR VƏ UŞAQLARIN BELƏ QƏTL EDİLDİYİ FİTNƏLƏRİN YAŞANMASI

***Günahsız insanlar qətl oluncaya qədər Mehdi çıxmayacaq və qırğınlara yerdə və göydəkilər, artıq dözə bilməz bir hala gəldiyində zühur edəcək...*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 37)*

***Bu fitnələrin ən sonuncusu günahsız insanların öldürülməsidir ki, artıq o zaman özündən hər kəsin razı olacağı bir gedişatda olan hz. Mehdi çıxar.*** *(Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 38)*

## 6) HZ. MEHDİ YOLLARIN KƏSİLDİYİ BİR DÖVRDƏ ÇIXACAQ

***Ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman...*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 39-40)*

## 7) MÜSƏLMANLARA BASQININ ARTMASI

***Rüku və səcdəyə gedən hər kəsi cəzalandırılar. Zülm, fəsad və fisq çıxarar. Alim və zahidləri qətl edər, bir çox şəhəri də işğal edər. Qan axıtmağı halal edərək, Ali-Məhəmmədə düşmən kəsilər...*** *(Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 37)*

***Məndən sonra xəlifələr olar. Xəlifələrdən sonra əmrlər, əmrlərdən sonra zalım məliklər gələr. Son olaraq da Əhli Beytimdən biri çıxar.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 84)*

## 8) MƏSCİDLƏRİN DAĞIDILMASI

***Süfyani quru bir vadidən çıxar. Kelp qəbiləsindən əsəbi sifətli, sərt ürəkli insanlardan bir ordu qurar və bunlar hər tərəfdə zülm edərlər. O, mədrəsə və məscidləri dağıdar, rüku və səcdəyə gedən hər kəsi cəzalandırar.*** *(Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 35)*

## 9) HARAMLARIN HALAL SAYILMASI

***Bir fitnə görülər, bunu digər fitnələr izləyər və birincilər sonuncuların qılıncla qarşıdurmaya dönüşünü qamçılayar və bundan sonra bütün haramların halal sayılacağı bir fitnə gəlir. Sonra da xilafət, yer üzünün ən xeyirlisi olan Mehdiyə evində oturarkən gələcəkdir.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 26)*

## 10) ALLAHIN AÇIQ ŞƏKİLDƏ İNKAR EDİLMƏSİ

***Alenen və açıq-aşkar Allah Təala inkar edilənə qədər hz. Mehdi (ə.s) gəlməz.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 27)*

## 11) İRAN-İRAQ MÜHARİBƏSİ

Axırzamanda meydana gələcək əhəmiyyətli bir müharibə hədisdə belə xəbər verilər:

***Şəvval ayında qiyam, zilqədədə döyüş danışıqları, zilhiccədə isə hərb baş verəcək.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 166)*

Hədisdə ifadə edilən şəvval, zilqədə və zilhiccə ayları İran-İraq müharibəsindəki mərhələlər ilə eyni tarixlərə uyğun gəlir:

***Şəvval ayında qiyam...***

*İran Şahına qarşı olan ilk qiyam bilindiyi kimi hədisdə ifadə edilən 5 şəvval 1398 (8 sentyabr 1976)da olmuşdur.*

***Zilqədədə hərb danışıqları və zilhiccədə isə müharibə baş verəcək...***

*Hicri 1400 zilhiccə (1980 oktyabr) ayında İran-İraq arasındakı müharibə tam mənasıyla başlamışdır.*

## 12) ƏFQANISTANIN İŞĞALI

***Talikana (Əfqanıstana) təəssüf oldu. Şübhəsiz Allah Təalanın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allahı haqqıyla bilən insanlar vardır. Onlar Axırzaman Mehdisinin köməkçiləridir.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 59)*

**Talikana təəssüf oldu...**

Hədisdə Əfqanıstanın hz. Mehdi zamanında işğal ediləcəyinə işarə ola bilər. Həqiqətən də rusların Əfqanıstanı işğalı olan 1979-cu il hicri 1400-cü ilə, digər bir ifadəylə hicri 14-cü əsrin başlanğıcına uyğun gəlir. Bilindiyi kimi hədislərdə hz. Mehdinin əsrin əvvəlində çıxacağı xəbər verilmişdir. Hz. Mehdiylə əlaqədar digər bir çox əlamətin də hicri 1400-cü ilə və hicri 14-cü əsrin əvvəllərinə uyğun gəlməsi bu tarixlərin hz. Mehdinin çıxışı haqqında əhəmiyyətli bir işarə daşıdığını göstərir.

**Orada qızıl və gümüş olmayan xəzinələri vardır...**

Rəvayətin bu hissəsində Əfqanıstanın maddi zənginlik qaynaqlarına diqqət çəkilmiş ola bilər. Bu gün Əfqanıstanda müxtəlif səbəblərlə istifadəyə verilməmiş böyük neft yataqları, dəmir hövzələri və kömür mədənləri təsbit edilmişdir.

## 13) ÇÖLDƏ BATAN ORDU HZ. MEHDİNİN ÇIXIŞ ƏLAMƏTLƏRİNDƏNDİR

***Ancaq bu ordu çölə girdiyində, Zulhüleyfə deyilən yerdə elə torpağa basdırılacaq ki, onların üstdə olanları altdakıları, altda olanları üstdəkiləri qiyamətə qədər görə bilməyəcəklər.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 21)*

## 14) FİRATIN SUNUNUN KƏSİLMƏSİ

***Mehdinin əlamətlərindəndir: Firat çayının dayandırılması.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 39)*

## 15) RAMAZANDA AY VƏ GÜNƏŞ TUTULMALARI

***Mehdi üçün 2 əlamət vardır ki, bunun birincisi, Ramazanın birinci gecəsi Ayın, ikincisinin də ortasında Günəşin tutulmasıdır.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 49)*

***Ramazanın birinci gecəsi Ay, ortasında Günəş tutulacaq.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 199)*

***Onun səltənəti zamanında, Ramazan ayının on dördündə Günəş tutulacaq, o ayın ilkində isə Ay qaralacaq...*** *(Məktubatı Rəbbani, 2/1163)*

***... Günəşin oruc ayının ortasında, Ayın isə sonunda tutulması...*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 38)*

***Ramazanda iki dəfə Ay tutulması olacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 53)*

***Mehdinin gəlişi Ramazan ayında Ayın iki dəfə tutulmasına səbəb olacaq.*** *(Qiyamət əlamətləri, səh. 200)*

***Mehdinin çıxmasından əvvəl bir Ramazan içində Günəş iki dəfə tutulacaq.*** *(Ölüm-qiyamət-axirət və Axırzaman əlamətləri, Şarani, səh. 440)*

Yuxarıdakı rəvayətlərdə diqqəti çəkən ən əhəmiyyətli nöqtə ramazan ayının ortasında həm Günəş tutulmasının, həm də bir ay içində "Ay"ın və "Günəş"in iki dəfə tutulmasının qeyri-mümkün olduğunun fərq edilməsidir. Bu, normal şərtlərdə reallaşmayacaq bir vəziyyətdir. Əgər bu hədislərdə təsvir edilən hadisələr diqqətlə araşdırılsa, rəvayətlər arasında müxtəlif fərqliliklər olduğu gözə dəyər. Yuxarıdakı 1, 2 və 3-ci rəvayətlərdə Ay, ramazanın birinci günü, 4-cü rəvayətdə isə sonuncu günü tutulacaq. Buna görə, yuxarıdakı hədis rəvayətlərinin cəmindən çıxan ortaq nəticələndirər bunlardır:

1) Ramazan ayında Ay və Günəş tutulmaları olacaq.

2) Bu tutulmalar 14-15 gün arayla olacaq.

3) Bu tutulmalar iki dəfə təkrarlanacaq.

Bu təsbitlərə uyğun olaraq, 1981-ci ildə (hicri 1401-ci ildə) ramazan ayının 15-ci günü Ay, 29-cu günü də Günəş tutulmuşdur. Yenə "ikinci olaraq", 1982-ci ildə (hicri 1402-ci ildə) Ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Həmçinin bu hadisədə "Ay"ın ramazanın tam ortasında **BÜTÖV AY** halında tutulması və diqqətləri çəkəcək bir əlamət olaraq meydana çıxması da son dərəcə mənalıdır.

Bu hadisələrin hz. Mehdinin digər çıxış əlamətləriylə eyni dövrdə meydana gəlməsi və hicri 14-cü əsrin əvvəllərində, üst-üstə iki il (1401-1402) möcüzəvi bir tərzdə təkrarlanması rəvayətlərin işarəsinin bu hadisələr ola biləcəyini qüvvətləndirir.

## 16) QUYRUQLU ULDUZUN DOĞULMASI

***Mehdinin çıxışından əvvəl, (hər tərəfi) işıqlandıran quyruqlu bir ulduz doğulacaq.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 200)*

***O ulduzun doğulması, Günəş və Ay tutulmasından sonra olacaq.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 32)*

Hədislərdə ifadə edildiyi kimi:

- 1986-cı ildə (hicri **1406**-cı ildə) yəni 14-cü əsrin əvvəllərində "Halley" quyruqlu ulduzun Dünyamızın yaxınından keçmişdir. **Bu ulduz parlaq, işıqlı bir ulduzdur.**

- Hərəkət istiqaməti **şərqdən qərbə** doğrudur.

- 1981 və 1982-ci (1401-1402) illərində meydana gələn **Ay və Günəş tutulmaları hadisəsindən sonra ortaya çıxmışdır.**

## 17) KƏBƏ BASQINI VƏ KƏBƏDƏ QAN AXIDILMASI

***Onun çıxacağı il, insanlar həccə, başlarında bir əmr olmadan gedəcəklər. Birlikdə Beyti Şərifi təvaf edəcəklər, sonra Minaya endiklərində, itlər kimi bir-birinə hücum edəcək, hacılar soyulacaq, qanlar Akabə Cəmrəsinin üzərinə axacaq.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 169)*

**İnsanlar başlarında bir imam olmadan həccə gedərlər. Minaya endiklərində ətrafları, itlərin savaşı kimi sarılıb, qəbilələrin bir-birinə girməsi ilə böyük döyüşlər olar. Belə ki, ayaqlar qan gölü içində qalar.** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 35)*

Yuxarıdakı hədislərdə "onun çıxacağı il" cümləsi istifadə edilərək, hz. Mehdinin çıxış tarixində Həcc əsnasında meydana gələcək bir qırğına diqqət çəkilir. 1979-cu ildə, həcc əsnasında reallaşan Kəbə basqınında eynilə belə bir qırğın yaşanmışdır. Çox maraqlıdır ki; bu qanlı Kəbə basqını da Mehdinin digər əlamətlərinin reallaşdığı dövrün tam başında yəni hicri 1400-cü ilin ilk günündə, məhərrəm ayının 1-i 1400-cü il (21 noyabr 1979) tarixində meydana gəlmişdir.

Yenə hədisi-şərifdə qanların axacağından bəhs edilərək öldürmə hadisəsinə diqqət çəkilmişdir. Basqın əsnasında Səudiyyə əsgərləri ilə terrorçu militanlar arasında meydana gələn vuruşmada 30 insanın öldürülməsi, bu rəvayətin qalan qismini də təsdiqləmişdir.

1979-cu ildə (hicri 1400) reallaşan bu Kəbə basqınının ardından 7 il sonra hicri 1407-ci ildə, Həcc əsnasında çox daha böyük qanlı bir hadisə meydana gəlmişdir. Bu hadisədə, küçələrdə nümayiş edən hacılara hücum edilərək 402 insan qətl edilmiş, çox qan axıdılmışdır. Beytül Muazzamın yanında, müsəlmanların (Səudiyyə ərəbistanı əsgərləri ilə İranlı hacıların) bir-birlərini öldürmələri ilə böyük cinayətlər işlənmiş, harama girilmişdir. Bu qanlı hadisələr, hədislərdə təsvir edilən mühitlə çox böyük bənzərliklər daşıyır:

***Rəsulullah buyurdu: Ramazanda bir səda, şəvvalda bir səs, zilqədədə qəbilələr arasında döyüş olar. Hacılar talana uğrayar. Minada ölülərin çox olacağı bir döyüş olar, belə ki orada daşları qan gölü içində buraxacaq qədər qan axar.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 31)*

## 18) ŞƏRQ TƏRƏFİNDƏN BİR ATƏŞİN GÖRÜLMƏSİ

***"İkdiddurer" adlı kitabda Mehdinin zühur əlamətləri belə bəhs edilir: Şərqdə, səmada üç gecə görünən böyük bir atəşin çıxması. Mutad (alışılmış) şəfəq qırmızılığı kimi olmayan bir qırmızılığın səmada görülüb üfüqdə yayılması.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 32)*

***Şərqdən üç və ya yeddi gün ard-arda böyük bir atəş zühur edəcək, göydə qaranlıq görüləcək, göydə alışılmış olan qırmızılığın əksinə tam fərqli bir qırmızılıq yayılacaq. Yer üzünün eşidib anlaya biləcəyi bir dillə səs eşidiləcək.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 166)*

Bilindiyi kimi İraqın, Küveyti iyul 1991-ci ildəki işğalı sonrasında, Küveytə aid neft quyularını atəşə verməsi nəticəsində Küveyt və Basra Körfəzini çox böyük bir atəş bürümüşdür.

***Atəşə verilən iki quyu, Türkiyənin bir gündə çıxara bildiyi qədər neft verir və tüstülər 55 km. uzaqlıqdakı Səudiyyə Ərəbistanından belə görülə bilir.*** *(Hürriyet, 23 yanvar 1991)*

## 19) SAXTA PEYĞƏMBƏRLƏRİN ÇOXALMASI

***Hər biri Allahın Elçisi olduğunu iddia edən otuza yaxın yalançı göndərilmədikcə qiyamət qopmayacaq.*** *(Tirmizi, Fiten: 43; Əbu Davud, Melahim: 16)*

***Hər birisi özünü Tək Məbud olan Allahdan rəsul olaraq göndərildiyini iddia edən altmış yalançının çıxması.*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 36)*

## 20) DİNİN ŞƏXSİ ÇIXARLAR ÜÇÜN İSTİFADƏ EDİLMƏSİ

***Hər biri Allahın elçisi olduğunu iddia edən otuza yaxın yalançı göndərilmədikcə qiyamət qopmayacaq.*** *(Tirmizi, Fiten 43; Əbu Davud, Melahim 16)*

***Hər birisi özünün Tək Məbud olan Allahdan rəsul olaraq göndərildiyini iddia edən altmış yalançının çıxması.*** *(Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 36)*

## 21) BÖYÜK VƏ HEYRƏT VERİCİ ŞEYLƏRİN MEYDANA GƏLMƏSİ

***Onun zamanında böyük hadisələr baş verəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 27)*

***Onun zühur qaynaqları və müqəddimələri (çıxış əlamətləri) Rəsulullahımızın irhasatına* bənzəyər.*** *(Məktubatı Rəbbani, 2/258)*

(*) İrhasat: Hz. Məhəmməd (s.ə.v)-in peyğəmbərliyindən əvvəl meydana gələn fövqəladə hallardır ki, bunlar peyğəmbərliyinə dəlil təşkil edən hadisələrdəndir.

***Onun zamanında nə qədər heyrət verən hallar zühur edəcək.*** *(Məktubatı Rəbbani, 2/258)*

Hz. Məhəmməd (s.ə.v)-in doğumundan əvvəl böyük və fövqəladə hadisələr meydana gəlmişdi. Doğulduğu gecə yeni bir ulduz doğulmuş, atəşə tapınan İran Padşahlarının sarayının 14 bürcü yıxılmış, İranda 1000 ildir yanmaqda olan atəşpərəst atəşi sönmüş, Səmavi Vadisi sel suları altında qalmış, Sova Gölü qurumuşdu.

Yuxarıdakı rəvayətlərdə işarə edildiyi kimi, hz. Mehdinin ortaya çıxışı da, Peyğəmbərimiz (s.ə.v)-kinə bənzəyəcək. Onun çıxışı dövründə də böyük və möcüzə hadisələr olacaq. Son 100 ildir dünya üzərində meydana gələn böyük hadisələrin bəziləri belədir:

- Kəbə basıldı və çox sayda müsəlmanın qanı axıdıldı.
- 2500 illik İran şahlığı yıxıldı və İran Şahı Rıza Pəhləvi öldü.
- Hindistanın Bombey şəhərində bir fabrikdən sızan qaz 20.000 insanın ölümünə gətirib çıxardı.
- İki müsəlman ölkə olan İran və İraq arasında 8 il davam edəcək bir döyüş başladı.
- Ruslar, Əfqanıstanı işğal etdi.
- Mexiko City şiddətli bir zəlzələ ilə yerlə bir oldu.
- Şimali Kolumbiyadakı Nevado Des Ruiz vulkanı 400 ildən sonra ilk dəfə partladı. Əriyən qar və buzun meydana gətirdiyi palçıq üzündən Armero şəhəri xəritədən silindi. 20.000 insan öldü.
- Banqladeşdəki sel 25.000 insanın ölümünə səbəb oldu.
- Xristianlığın mərkəzi Romanı sular basdı.
- 1986-cı ildə Çində, tarixinin ən böyük meşə yanğını oldu.
- Hindistan başçısı Qandi, Misir dövlət başçısı Ənvər Sədat, İsveç Baş naziri Olof Palme öldürüldü.
- Papa II Jean Paul vuruldu.
- 1980-ci ilin əvvəllərində ilk AIDS hadisələri təsbit edildi. İndiyə qədər on minlərlə insanın ölümünə səbəb olan bu xəstəliyə "Əsrin vəbası" adı verildi.

- 1986-cı ildə kosmik gəmisi Challenger kosmosa buraxıldıqdan sonra partladı.
- 26 aprel 1986-cı ildə Ukraynadakı Çernobil nüvə stansiyasında indiyə qədər görülən ən böyük nüvə qəzası meydana gəldi. Bir çox Avropa ölkəsi yayılan radiasiyadan təsirləndi.
- Ozon təbəqəsinin deşilməsi dünya iqlimi üzərində çox mənfi təsirlər buraxdı.
- Sovet İttifaqı dağıldı və Qorbaçovla birlikdə Müstəqil Dövlətlər Birliyi ortaya çıxdı.
- İraqın Küveyti işğal etməsindən sonra illərcə sürəcək olan Körfəz Müharibəsi başladı.
- Ermənistandakı zəlzələdə şəhər xarabaya çevrildi. 500.000 insan evini tərk edərkən, ölü sayı 40.000-i aşdı.
- 1989-cu ildə Çində kommunist bölüklər tanklarla şagirdlərin üzərinə sürdü, Tiananmen meydanında 2000 şagird öldü.
- Soyuq Müharibənin simvolu olan Berlin divarı inşasından tam 28 il sonra dağıdıldı.
- 1990-cı ildə Kəbədəki tuneldə yaşanan izdihamda 1400-dən çox hacı həyatını itirdi.
- 1991-ci ildə Banqladeşdə meydana gələn sellərin sonrasında təxminən 139.000 insan öldü, on milyonlarla insan evsiz qaldı.
- Son 20 ildir Amerikada fırtınalar, qasırğalar, xortumlar və sellər dayanmaq bilmədi. Minlərlə insan öldü, milyonlarla insan evini tərk etdi və zərər hər səfərində milyard dollarlarla ölçüldü.
- Bosniya və Kosovadakı qırğınlarda yüz minlərlə müsəlman öldürüldü və yüz minlərləsi yurdlarından çıxarıldı.
- Ebola virusu on minlərlə insanın ölümünə səbəb oldu.
- Əl Nino bütün dünya ölkələrinə çox böyük fəlakətlər gətirdi.
- 19 oktyabr 1987-ci ildə London birjası çökdü. Yaşanan böyük çaxnaşma nəticəsində 50 milyard sterlinqlik dəyər itkisi yaşandı.
- 19 aprel 1995-ci ildə ABŞ-ın Oklahoma şəhərindəki Federal binaya edilən bombalı hücumda 168 insan öldü.

- 22 mart 1997-ci ildə Hale-Bopp kometası, saatda 160 km. sürətlə dünyanın 195 milyon km. yaxınından keçdi. Adi gözlə görülə bilən Hale-Boppun keçməsi, bütün dünyada milyonlarla insan tərəfindən böyük bir maraqla qarşılandı.
- 10 may 1997-ci ildə İrandakı 7.1 şiddətindəki zəlzələdə 1500 insan öldü.
- 4 fevral 1998-ci ildə Əfqanıstandakı 6.1 şiddətindəki zəlzələdə 5 ibn insan həyatını itirdi.
- 25 yanvar 1999-cu ildə Kolumbiyadakı 6 şiddətindəki zəlzələdə 1171 insan həyatını itirdi.
- 21 sentyabr 1999-cu ildə Tayvandakı 7.6 şiddətindəki zəlzələdə 2100-dən çox insan həyatını itirdi.
- 11 sentyabr 2001-ci ildə ABŞ-a, tarixin ən böyük terrorist hücumu təşkil edildi: İki sərnişin təyyarəsi, səhər saatlarında 18 dəqiqə ara ilə Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinin olduğu iki göydələni vurdu. Ardından bir başqa təyyarə Pentaqona düşdü. Hücumda beş minindən çox insan öldü.
- Hindistanda böyüklüyü 7.9 olan zəlzələ meydana gəldi və minlərlə insan həyatını itirdi.
- Avropada yaşanan həddindən artıq istilər 10 minlərlə insanın ölümünə səbəb oldu.
- 60.000 ildə bir reallaşan hadisə meydana gəldi və Mars planeti Dünyaya ən yaxın mövqeyə gəldi.
- Noyabr 2003-cü ildə dünyanın ən quraq bölgələrindən olan Məkkədə meydana gələn sel fəlakətində 12 insan həyatını itirdi.
- 26 dekabr 2004-cü ildə Cənubi Asiyada meydana gələn son 40 ilin ən böyüyü, 1900-cü ildən bu günə qədər isə ən böyük beşinci olan, 9 bal böyüklüyündəki zəlzələ və ardından meydana gələn tsunami, 225 mindən çox insanın ölümüylə nəticələnən bir fəlakətə səbəb oldu. Tsunamilər, Cənubi Asiya ölkələrindən İndoneziya, Şri Lanka, Hindistan, Malayziya, Tailand, Banqladeş, Myanmar, Maldiv Adaları və Seyşel Adalarını hətta 5 ibn km uzaqlıqdakı bir Afrika ölkəsi olan Somali sahillərinə belə vurdu.

## 22) GÜNƏŞDƏN BİR ƏLAMƏTİN MEYDANA ÇIXMASI

***Mehdi, Günəşdən bir əlamət meydana çıxana qədər gəlməyəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 49)*

***Günəş bir əlamət olaraq doğulmadıqca Mehdi çıxmaz.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 33)*

Günəşdə belə böyük bir partlama hadisəsi ilk dəfə, yaşadığımız əsrdə meydana gəlmişdir.

**Günəş tutulması**

11 avqust 1999-cu ildə reallaşan Günəş tutulması əsrin axırıncı tam Günəş tutulmasıdır. İlk dəfə bu qədər çox insan Günəş tutulmasını, həm də bu qədər uzun müddət izləyə bilmiş, araşdırma fürsəti əldə etmişdir. Bu tutulmada diqqət çəkən bir nöqtə də Türkiyənin bu tam tutulmanın ən yaxşı izlənildiyi ölkələrdən biri olmasıdır. Bartindən Silopiyə qədər, təxminən 12 şəhər və 100 rayon tutulmağı müşahidə edə bilmişdir.

## 23) BÖYÜK ŞƏHƏRLƏRİN YOX OLMASI

***Böyük şəhərlər, dünən sanki yoxmuş kimi həlak olar.*** *(Kitab-ül Burhan Fi Əlaməti-el Mehdiyy-il Axırzaman, səh. 38)*

## 24) ZƏLZƏLƏLƏRİN ÇOXALMASI

***...Zəlzələlər çoxalmadıqca, fitnələr zahir olmadıqca, cinayətlər çoxalmadıqca qiyamət qopmaz.*** *(Qiyamət əlamətləri, səh. 109)*

## 36) HZ. MEHDİNİN ÇIXMAYACAĞININ DEYİLMƏSİ VƏ GƏLİŞİNDƏN ÜMİD KƏSİLMƏSİ, HZ. MEHDİNİN ÇIXIŞ ƏLAMƏTLƏRİNDƏNDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Axırzaman əlamətlərindən birinin də, insanların "**Mehdinin gəlməyəcəyi yönündə bir ümidsizliyə qapılmaları**" olduğu bildirilmişdir. Hədislərdəki işarələrə görə, Axırzamanda müharibələrlə, yoxluqla, aclıqla, ədalətsizliklərlə, əxlaqi tənəzzüllə və müxtəlif epidemiya xəstəliklərlə iç-içə yaşayan bəzi insanlar, bütün bu neqativ halları ortadan qalxa biləcəyinə dair inanclarını itirəcəklər. Müsəlmanlar arasında da bir çox insan, Qızıl dövrın başlayıb, Quran əxlaqının dünya üzərində hakim olacağı yönündəki ümidlərini itirəcək və fitnələrin artaraq davam edəcəyinə inanacaq. Peyğəmbərimiz (s.ə.v) hədislərində "**Hz. Mehdi gəlməyəcəkmiş, Hz. Mehdi yoxmuş**" kimi sözlər deyilməsinin hz. Mehdinin çıxış əlamətlərindən olduğunu belə bildirmişdir:

***İnsanların ümidsiz olduğu və "Heç Mehdi yoxmuş" dediyi bir sırada Allah Mehdini göndərər...*** *(Kitab-ul Burhan fi-Alamet-il Mehdiyy-il Axırzaman, səh. 55)*

*...**Mehdi**, Rəsulullahın bayrağı ilə, insanların başlarına bəla üzərinə bəla yağdığı **və çıxışından ümid kəsildiyi bir sırada çıxar**... (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 55)*

*Günahsız insanlar qətl oluncaya qədər Mehdi çıxmayacaq və qırğınlara yerdə və göydəkilər, artıq dözə bilməyəcək hala gəldiyində zühur edəcəkdir... (Əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 37)*

## 37) SAXTA MEHDİLƏRİN ÇIXMASI HZ. MEHDİNİN ÇIXIŞ ƏLAMƏTLƏRİNDƏNDİR?

Hədislərdə bildirildiyinə görə, hz. Mehdinin ortaya çıxışından əvvəl, bir çox saxta qurtarıcılar, Mehdilər və hz. İsa olduğunu iddia edən insanlar ortaya çıxacaq. Bu kimi insanların ortaya çıxması isə insanların hz. İsa, ya da hz. Mehdi olduğunu söyləyən hər kəsə şübhə ilə yaxınlaşmalarına səbəb olacaq ola bilər.

Hz. İsanın və hz. Mehdinin tanınmamalarında bu saxta şəxslərin varlığı əhəmiyyətli bir faktor olacağı ola bilər. Bu cür saxta qurtarıcıların çıxışına şahid olmaları insanların hz. Mehdini də uzun müddət tanımamasına səbəb ola bilər. Ancaq heç unutmamaq lazımdır ki, saxta Mehdilərin ortaya çıxışı da hz. Mehdinin gəlişinin əhəmiyyətli bir əlaməti və müjdəsidir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bu müjdə bu şəkildə xəbər verilir:

***Hər biri Allahın Elçisi olduğunu iddia edən otuza yaxın yalançı göndərilmədikcə qiyamət qopmayacaq.*** *(Tirmizi, Fiten: 43; Əbu Davud, Melahim: 16)*

***Hər birisi özünü Tək Məbud olan Allahdan Rəsul olaraq göndərildiyini iddia edən altmış yalançının çıxması.*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 36)*

Saxta mehdilərin və məsihlərin bir qismi çıxmışdır, bir qismi də sonrakı illərdə çıxacaq (doğrusunu Allah bilir). Şübhəsiz, saxta məsihlərin yalanlarının tamamilə ortaya çıxacağı günlər isə çox yaxındır. Çünki Peyğəmbərimiz (s.ə.v) yalançıların ardından hz. İsanın geri dönüşünü və Hz. Mehdinin gəlişini də müjdələmişdir.

## 38) HZ. MEHDİ, ÖZÜNÜN MEHDİ OLDUĞUNU SÖYLƏYƏCƏKDİR?

Hədislərdə hz. Mehdiyə beyətin özü istəmədiyi halda ediləcəyi bildirilir. Bu da hz. Mehdinin, özünü heç bir zaman Mehdi olaraq elan etməyəcəyini

göstərir. Hətta insanlar ona gəlib "**əlamətlər səndə mövcuddur, sən Mehdisən**" dedikləri halda o yenə rədd edəcək. Ancaq "**ölümlə təhdid**" edildikdən sonra, insanların özünə beyət etməsini qəbul edəcək. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bu mövzu belə bildirilir:

*İnsanlar nəhayət Mehdiyə gələrlər və Rükn ilə Mövqe arasında, özü istəmədiyi halda ona beyət edərlər.* ***"Əgər qəbul etməzsənsə, boynunu vurarıq" deyərlər.*** *Yer və göy əhli ondan razı olar. (Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 31)*

*Xəlifənin ölümü anında ixtilaf olar. Mədinə xalqından bir insan qaçaraq Məkkəyə çatar.* ***Məkkə xalqından bir qrup onu, istəməməsinə baxmayaraq (olduğu yerdən) çıxararlar.*** *Həcəri Esvədlə Məqamı İbrahim arasında ona beyət edərlər. (Sünəni Əbu Davud, 5/94; əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20)*

***Nəticədə istəmədiyi halda*** *Əhli Bədir sayı qədər insan ona, rükn ilə məqam arasında beyət edər. (Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 34)*

***...Və sonra istəmədiyi halda beyətlərini qəbul edər.*** *Əgər siz ona çatsanız, ona beyət edin. Çünki o yerdə də göydə də Mehdidir. (Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 35)*

*...Onu təkrar Məkkədə taparaq yenə, "Sən filan oğlu filansan, anan da filan qızı filanadır, səndə bu əlamətlər vardır, birinci dəfə bizdən xilas oldun uzat əlini sənə beyət edək" deyərlər.* ***Bunun üzərinə o "Mən axtardığınız deyiləm" deyər və təkrar Mədinəyə gedər.*** *Mədinədə yenə axtarılınca təkrar Məkkəyə dönər. Məkkədə onu Rükndə taparaq belə deyərlər:* ***"Əgər beyətlərimizi qəbul etməzsənsə, bizi axtarmaqda olan və başında Həddəmdən birinin olduğu Süfyani ordusuna qarşı qorumazsansa,***

***günahlarımız sənin üzərinə və qanlarımız da boynuna olsun" deyərlər. Bunun üzərinə Mehdi, rükn ilə məqam arasına oturar və əlini uzadaraq beyətləri qəbul edər.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 39-40)*

*Fitnə içindəki insanlar qan axıdıldığı bir zamanda evində oturmaqda olan Mehdiyə gələr və "Bizim üçün qalx artıq" deyər.* ***O isə qəbul etməz, ancaq ölümlə təhdid edildikdən sonra onlar üçün qalxar.*** *Ondan sonra artıq qan tökülməz. (İbn Əbi Şeybe, cild VII, səh. 531; Abdurrezzak H. 20771, cild XI, səh. 372; Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 52-53)*

*Hz. Fatiməninın soyundan gələn Mehdi, Məkkədə meydana çıxarılar və* ***istəmədiyi halda ona beyət edilər****. (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 52-53)*

# HZ. MEHDİNİN MÜBARİZƏSİ

## 39) HZ. MEHDİ MÜBARİZƏSİNƏ NEÇƏ YAŞLARINDA BAŞLAYACAQ?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, hz. Mehdinin mübarizəsinə başladığı illərdə 30 ilə 40 yaşları arasında olacağını xəbər verilmişdir:

***Yaşı 30 ilə 40 arasında olduğu halda göndəriləcək... Mehdi mənim övladlarımdandır. 40 yaşlarındadır.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 41)*

***40 yaşındadır. Digər bir rəvayətə görə 30 ilə 40 yaşındadır.*** *(Qiyamət əlamətləri, Bərzənci, səh. 16)*

***Mehdi mənim nəslimdəndir. O 40 yaşındadır.*** *Sanki üzü parlaq bir ulduzdur... (Meriy ibn Yusif ibn Əbi bəkir ibn Əhməd ibn Yusif əl-Makdisi "Fevaidu Fevaidil Fikir Fil İmam əl-Mehdi əl-Muntazar")*

## 40) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN MÜBARİZƏSİ VƏ QƏRARLI OLMASI NECƏ İZAH EDİLMİŞDİR?

***Mehdi işi möhkəm tutacaq.*** *(Qiyamət əlamətləri , səh. 175)*

***İnsanlar haqqa dönənə qədər mübarizəsinə davam edəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 23)*

***Fitnələri önləmənin ona çətin gəlməyəcəyi və öldürmənin də onu imtina etdirə bilməyəcəyi Əhli Beytimə mənsub biri (Mehdi) sahib olmadan günlər***

***gecələr bitməyəcək.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 12)*

***Mehdi hesabını çox ardıcıl bir şəkildə görəcək və vədindən dönməyəcək.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 24)*

***Mehdi Şərq tərəfindən çıxacaq. Qarşısına dağlar belə dursa onları əzib keçəcək, o dağlarda özünə yol tapacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 39)*

## 41) HZ. MEHDİ HAQQINDA MƏNFİ TƏBLİĞAT EDİLƏCƏKDİR?

Peyğəmbərimiz (s.ə.v) dövründə İslam düşmənləri, onu pisləmək üçün o dövrün nəşr orqanı sayılan şairləri istifadə edirdilər. Şairlər, yarmarkalarda, bazarlarda Peyğəmbər (s.ə.v)-ə cahilcə müxtəlif təhqirlər edir, ona dəli, cadugər, kahin şəklində böhtanlar atırdılar. Axırzamanda da inkar edən kəslər hz. Mehdi haqqında mənfi təbliğat edəcək, öz ağıllarına görə xalqın nəzərində bu mübarək şəxsin etibarını sarsıtmağa çalışacaqlar.

Hədislərdə hz. Mehdinin başlanğıc illərinin sıxıntı və çətinliklərlə dolu mübarizə illəri olduğu izah edilir. "Qızıl dövr" ifadəsi isə hz. Mehdinin yer üzündə olduğu son dövrlərə aiddir. Hz. Mehdi və müsəlmanlar ancaq bu dövrdə rahata, bolluğa, hüzura qovuşacaqlar və sevgiyə, sülhə, qardaşlığa söykənən bir həyatı bu dövrdə yaşayacaqlar.

## 42) HZ. MEHDİ MÜCADİLƏ İLLƏRİNDƏ SIXINTI VƏ ÇƏTİNLİKLƏ QARŞILAŞACAQDIR?

İnkar içində olan cəmiyyətləri xəbərdar etmək və onları doğru yola dəvət etmək üçün göndərilən bütün elçilər, göndərildikləri qövmlər tərəfindən yalanlanmış və onların müxtəlif ittiham və böhtanlarına məruz

qalmışlar. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Əhli Beytdən gələcək olan hz. Mehdinin də bu kimi əziyyət və çətinliklərlə qarşılaşacağı xəbər verilmişdir (doğrusunu Allah bilir).

*Mehdi, bizdən, Əhli Beytdəndir... Biz elə bir ev xalqıyıq ki, Allah bizim üçün axirəti dünyaya seçmişdir.* ***Mənim Əhli Beytim şübhəsiz məndən sonra bəla, qaçırılma və sürgünə uğrayacaqlar. Məndən sonra Əhli Beytim bəla və narahatlıqla qarşılaşacaqlar və darda qalacaqlar. (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 14).***

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in aşağıdakı hədisi də belə bir vəziyyəti, "hz. Mehdinin beyət əsnasında, özünün bir çox qəhr və haqsızlığa uğradığını insanlara açıqlayacağını" xəbər verir:

*...Mehdi, Rəsulullahın bayrağı ilə, insanların başlarına bəla üzərinə bəla yağdığı və zühurundan ümid kəsildiyi bir sırada çıxar. İki rükət namaz qılar. Namazdan qayıdanda belə deyər:* ***"Ey insanlar! Ümməti Məhəmməd və xüsusilə onun Əhli Beyti çox bəlalar gördü və bizlər qəhr və haqsızlığa məruz qaldıq." (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh.*** *55)*

Hədislərdə bildirildiyi kimi, İslam əxlaqının hz. Mehdi vəsiləsiylə bütün insanlar arasında hakim olmasından əvvəlki dövrədə hz. Mehdi və köməkçilərinə, müxtəlif çətinliklər isabət edəcək, ancaq daha sonra bu çətinliklər Allahın icazəsiylə dayanacaq.

Allah, Quranda bir çox peyğəmbərin qövmləri tərəfindən yalanlandıqlarını, dəlilik və cadugərlik böhtanlarına məruz qaldıqlarını və daha bir çox hücum və əziyyətlə qarşılaşdıqlarını bildirmişdir. Elçilər bütün bu hücumlar qarşısında səbir göstərmiş, onlara ən gözəl şəkildə cavab vermişlər:

**And olsun səndən əvvəl də elçilər yalanlandı... (Ənam surəsi, 34)**

... Və əlbəttə bizə etdiyiniz işgəncələrə qarşı səbr edəcəyik... (İbrahim surəsi, 12)

Sonra, ondan üz çevirdilər və dedilər ki: "(Bu,) Öyrədilmişdir, bir dəlidir." (Duxan surəsi, 14)

Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, onun barəsində: "Sehrbazdır, ya da dəlidir!" – deməsinlər. (Zariyat surəsi, 52)

O, öz camaatı ilə birlikdə üz çevirib: "Bu sehrbazdır, ya da dəlidir!" – dedi. (Zariyat surəsi, 39)

(Firon) dedi ki: "And olsun, mənim xaricimdə bir ilah əldə edəcək olsan, səni mütləq həbsə atacağam." (Şuəra surəsi, 29)

Ey iman edənlər, Musaya əziyyət edənlər kimi olmayın... (Əhzab surəsi, 69)

Dedilər ki: "Onun üçün (yüksək) bir bina tikin də onu dəlicə yanan atəşin içinə atın." (Saffat surəsi, 97)

Bu qədər dəlilləri gördükdən sonra, yenə də onu bir müddət zindana salmaq qərarına gəldilər. (Yusif surəsi, 35)

Həqiqətən, kafirlər Zikri (Quranı) eşitdikləri zaman öz baxışları ilə az qala səni gözə gətirələr. Onlar çarəsizlikdən: "O, dəlidir!" – deyirlər. (Qələm surəsi, 51)

## 43) HƏDİSLƏRDƏ HZ. MEHDİ VƏ CAMAATININ İNKAR EDƏNLƏRİN TƏZYİQLƏRİ QARŞISINDA GÖSTƏRƏCƏKLƏRİ RƏFTAR NECƏ İZAH EDİLİR?

Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. Mehdi və bərabərindəki insanların, inkar edənlərin mənfi təbliğatları və təzyiqləri, ya da yaşadıqları çətinlik və sıxıntılar qarşısında qərarlı olmaları xəbər vermişdir:

***Onlar Allah yolunda heç bir qınayanın qınamasından, dedi-qodusundan qorxmayan İslam əhalisidir.*** *(Sünəni İbni Macə,10-259)*

## 44) HƏDİSLƏRƏ GÖRƏ, HZ. MEHDİ İLK ƏVƏLLƏR İŞLƏRİNİ GİZLİ YOXSA AÇIQ OLARAQ İCRA EDƏCƏK?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, hz. Mehdinin hələ xalq tərəfindən tanınmadığı ilk dövrlərində fəaliyyətlərini gizli olaraq reallaşdıracağı bildirilmişdir:

***Gecələri ibadətlə məşğul olub, gündüzləri gizli olacaq...*** *(Ukayli "en-Necmus-sakıb fi Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbu Talib Alət-temam vəl kamal")*

Hz. Mehdinin gəldiyi dövr əxlaqi degenerasiyanın çox ciddi ölçülərə çatdığı, inkar edənlərin din əxlaqına və inananlara qarşı çox şiddətli bir düşmənlik bəslədikləri, gizli və açıq fəaliyyət edəcəkləri, çox çətin dövrdür. Belə bir dövrdə insanlardan gizli qalması və tanınmamağı, hz. Mehdinin inkar edənlərin hücumlarından qorunmasına vəsilə olacaq.

Bu dövr, hz. Mehdinin inkarçı və müşrik sistemlərlə çox böyük fikri mübarizə icra etdiyi, din əxlaqının yayılması üçün dünya səviyyəsində fəaliyyət etdiyi bir dövr olacaq. İnsanların əksəriyyəti tərəfindən tanınmamağı, fəaliyyətlərinin ilk illərində hz. Mehdi üçün çox böyük bir asanlıq təmin

edəcək, İslam əxlaqının insanlar tərəfindən qəbulunu da sürətləndirəcək (doğrusunu Allah bilir).

## 45) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN MÜBARİZƏSİNİN İLK DÖVRƏLƏRİNDƏ İKİ DƏFƏ ORTADAN YOXA ÇIXACAĞI NECƏ XƏBƏR VERİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdinin mübarizəsinə başladığı ilk dövrlərdə "iki dəfə ortadan itəcəyi" xəbər verilmişdir.

*Əbu Abdullah Hüseyn ibn Əli (ə.s)dən belə buyurduğu rəvayət edilər:*

***Bu işi edəcək olanın (yəni Mehdinin) iki qeybəti (qeyb olması, görünməməsi) vardır. Bu iki qeybətin biri o qədər uzanacaq ki, bəziləri: "O öldü", bəziləri də: "O getdi" deyəcəklər. Nə onu sevənlər, nə də başqaları onun yerini bilməyəcəklər, yalnız ona çox yaxın xidmətçisi onun yerini bilər.*** *("əlsəyə Fi Eşrat-is Saa" səh. 93 Misir nəşri.)*

## 46) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN TƏBLİĞ GÜCÜ NECƏ TƏSVİR EDİLMİŞDİR?

***Hz. Mehdi, quru bir ağacı əkdiyində də ağac dərhal yaşıllanıb yarpaqlanacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 43)*

***O (Mehdi) quru bir qamış ağacını quru bir yerə əkəcək, dərhal yaşıllanıb yarpaq verəcək.*** *(Qiyamət əlamətləri, səh. 165)*

***Mehdi bir yerə quru budağı əkər və budaq yarpaqlanıb yaşıllanar.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 67)*

Bir şərhi budur ki:

Hz. Mehdi, "quru bir ağaca bənzədilən bir insana lütfkarlığı ilə və onu irşad etməsiylə; əvvəllər eyni quru bir ağac kimi ətrafına faydalı ola bilməyən belə bir insanın, bu səfər yaşıllanmış və meyvə vermiş bir ağac kimi ətrafına, yəni dininə və bütün insanlığa faydalı hala gələcəyinə işarə edilmişdir (doğrusunu Allah bilir). Aşağıdakı hədisi-şərifdə də bənzər bir şəkildə; əvvəllər cahil, xəsis və qorxaq olan bir insanın, Axırzamanın böyük mürşidinin irşad və tədrisiylə (dərs verməsiylə) inşaAllah elmli, comərd və cəsur bir hala gələcəyinə, sanki əvvəllər quru və faydasız olan bir ağacın yaşıllaşıb yarpaq verməsi kimi şəxsiyyətini dəyişdirəcəyinə işarə edilmişdir (doğrusunu Allah bilir).

***Əsrində cahil, xəsis və qorxaq olan bir insan dərhal alim, comərd və cəsur olacaq.*** *(Qiyamət əlamətləri, səh. 186)*

İmam Rəbbani həzrətləri də əsərlərində ona verilən gücü eyni bənzətmə ilə ifadə edir:

***Allahı Təala, hidayət işində; mənə böyük bir güc verdi. O qədər ki: Quru bir ağaca lütfkarlıq etsəm; o quru ağac dərhal cücərər.*** *(Məktubatı Rəbbani, 1/18)*

## 47) HZ. MEHDİ İSLAM ƏXLAQINI DÜNYAYA NECƏ HAKİM EDƏCƏK?

### Hz. Mehdi İslam əxlaqını elmi işləriylə hakim edəcək

Hədislərdə bildirildiyi kimi hz. Mehdi dövründə heç kimin burnu qanamayacaq, heç kim zərər görməyəcək, hətta yatan insan belə oyandırılmayacaq. Bu da hz. Mehdinin fikri mübarizə icra edəcəyini göstərir.

hz. Mehdi, fikirlə din əxlaqına uyğun olmayan axın və sistemləri susduracaq, elmi çalışma ilə İslam əxlaqını hakim edəcək.

***Zamanında nə bir kimsə yuxusundan oyandırılacaq, nə də bir kimsənin burnu qanayacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 42)*

***Mehdi, Peyğəmbərin (s.ə.v) yolunda gedəcək, yatan insanı oyandırmayacaq, qan da axıtmayacaq.*** *(Qiyamət əlamətləri, səh. 163)*

*Mehdi...* ***çox sükunət içində yeriyəcək.*** *(Qiyamət əlamətləri, səh. 173)*

## 48) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN BÜTÜN MƏZHƏBLƏRİ ORTADAN QALDIRARAQ DİNİ ƏSLİNƏ ÇEVİRƏCƏYİ NECƏ BİLDİRİLMİŞDİR?

Hədislərdə verilən məlumatlara görə hz. Mehdi, özündən əvvəl göndərilmiş olan bütün mücəddidlərdən fərqli bəzi xüsusiyyətlərə sahib olacaq və bu xüsusiyyətləri daşımasıyla Axırzamanın böyük Mehdisi olduğu aydın ola biləcək. Hz. Mehdinin bu əhəmiyyətli xüsusiyyətləri arasında "**ən böyük mücəddid**" (hər əsrin əvvəlində dini həqiqətləri dövrün ehtiyacına görə dərs vermək üzrə göndərilən böyük İslam alimi) və "**ən böyük müctəhid**" (ehtiyac meydana gəldiyində ayələrdən hökm çıxaran böyük İslam alimi) xüsusiyyətlərini daşıması da olacaq.

Bu xüsusiyyətdəki böyük şəxslər, İslam cəmiyyətlərinə nümunə olmuş, yol göstərmiş, zamanın qütbü olmuş öndərlərdir. Bu öndərlərdən bəziləri ictihad etmə (hökmləri üsuluna uyğun olaraq Quran və hədislərdən istifadə ilə ortaya qoyma) və hökm vermə xüsusiyyətlərindən ötəri "məzhəb öndərləri" olmuşlar; müsəlmanlar da onlara tabe olmuşlar. İmam Hənəfi, İmam Şafi, İmam Hənbəli, İmam Maliki bu öndərlərdən olub 4 məzhəbin qurucularıdır. Bütün əhli sünnə onların verdiyi hökmlərlə əməl edir. **Bu müctəhid və mücəddidlərin ən böyükləri isə hz. Mehdi olacaq.**

Bu da hz. Mehdinin ictihad etmə (hökmləri üsuluna uyğun olaraq Quran və hədislərdən istifadə ilə ortaya qoyma) və hökm verməyə ən səlahiyyətli insan olaraq, "**bütün məzhəbləri ləğv edəcəyini**" göstərir. Çünki ən böyük məzhəb imamı olduğuna görə onsuz da bütün digər məzhəbləri ləğv etməsi lazımdır. Zamanında hər kəsin ona tabe olacağının bildirilmiş olması da bunu təsdiqləyir. İslam tarixinin ən böyük alimlərindən biri olan Muhyiddin Ərəbi isə "Fütühat-ül Mekkiye" adlı əsərində bu mövzuda belə məlumat vermişdir:

***...Mehdi, dini Peyğəmbər (s.ə.v)-in zamanında olduğu kimi eynilə tətbiq edəcək. Yer üzündən məzhəbləri ləğv edəcək. Xalis həqiqi dindən başqa heç bir məzhəb qalmayacaq.*** *(Məhəmməd ibn Rəsul Əl Hüseyn Əl Bərzənci, Qiyamət əlamətləri, səh. 186-187)*

Hüseyn Hilmi İşıq da, "Səadəti Əbədiyə" adlı əsərində hz. Mehdinin bu xüsusiyyətini belə xəbər vermişdir:

*Həzrəti Mehdi, Axırzamanda dünyaya gələcəkdir. Resullulah (s.ə.v)-in soyundan olacaq.* ***İsa əleyhissalamla görüşəcək, məzhəbləri qaldıracaq, tək onun məzhəbi qalacaq.*** *(H. Hilmi İşıq, Səadəti Əbədiyə, səh. 35)*

## 49) PEYĞƏMBƏRİMİZ (S.Ə.V), HZ. MEHDİNİN DİNƏ SONRADAN ƏLAVƏ EDİLƏN BÜTÜN BİDƏTLƏRİ LƏĞV EDƏCƏYİ XƏBƏR VERMİŞDİR?

Bidət, "dinin əslində olmadığı halda, dinə daxil edilən adətlər" mənasını verər. Peyğəmbərimiz (s.ə.v)-də hədislərində hz. Mehdinin yerinə yetirəcəyi vəzifələrdən birinin, "dinə sonradan soxulan bütün səhv inanc və tətbiqlərdən təmizləyərək İslam dinini Peyğəmbərimiz (s.ə.v) dövründə yaşandığı kimi əslinə çevirmək" olduğunu ifadə etmişdir. Hz. Mehdinin bu xüsusiyyətini xəbər verən hədislərdən bəziləri belədir:

***Hz. Mehdi heç bir bidəti buraxmayacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

***Mehdi ləğv etmədiyi bidət buraxmayacaq. Axırzamanda eyni Peyğəmbər (s.ə.v) kimi dinin zərurətlərini yerinə yetirəcək.*** *(Qiyamət əlamətləri, səh. 163)*

***Hz. Peyğəmbər (s.ə.v) əvvəlcə İslama necə dəstək oldusa, hz. Mehdi də ən sonunda eyni şəkildə İslama dəstək olacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 27)*

## 50) HZ. MEHDİNİN MÜBARİZƏSİ NƏ ZAMANA QƏDƏR SÜRƏCƏK?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdinin inkarçı fəlsəfələri fikri olaraq tamamilə təsirsiz hala gətirərək İslam əxlaqını bütün dünyaya hakim edəcəyi bildirilmişdir. Hz. Mehdi, Quran əxlaqını bütün yer üzünə hakim edənə qədər mübarizəsinə davam edəcək. Bir hədisdə bu vəziyyət belə xəbər verilmişdir:

***İnsanlar, haqqa dönənə qədər mübarizəsinə davam edəcək.*** *(Əl Kavlu-l Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

## 51) HZ. MEHDİNİN MEHDİLİYİNİ HƏR KƏS QƏBUL EDƏCƏKDİR?

Hz. Mehdi tam mənasıyla ortaya çıxdığında, hz. Məhəmmədin bildirdiyi şəkil və surəti, mübarizəsi, köməkçiləri, fəth edəcəyi yerlər ilə əlaqədar bütün hədisi-şəriflərlə uyğunluq göstərəcək, beləcə bu mövzuda heç kimin ürəyində ən kiçik bir şübhə və tərəddüd qalmayacaq. Hər kəs tam qərara

gələrək, onun Mehdiliyini təsdiq edəcək. Hədislərdə hz. Mehdinin Mehdiliyinin, tam olaraq ortaya çıxdığı dövrdə hər kəs tərəfindən qəbul ediləcəyi belə bildirilir:

***Onun adıyla səmadan səs eşidiləcək və heç kim onun Mehdiliyini inkar etməyəcək.*** *(əl-Kavlu-l Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 47)*

***Bir insan (Mehdi) səmadan adıyla mütləq çağırılacaq və dəlil onu inkar etməyəcək, zəlil ona mane olmayacaq.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 52)*

***Göydən bir səs gələcək, onu nə dəlil inkar edəcək və nə də dəlil olmaqdan o saxlayacaqlar.*** *(Qiyamət əlamətləri, səh. 200)*

## 52) HƏDİSLƏRDƏ İNSANLARIN HZ. MEHDİYƏ NECƏ TABE OLACAQLARI BİLDİRİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdi dövründə insanların arıların şanlarına gəlib sığındığı kimi hz. Mehdiyə gəlib sığınacaqları xəbər verilmişdir:

*Əbu Səid Hudri Resulluhdan rəvayət edir:* ***Mehdinin izləyiciləri ona sığınarlar, bal arılarının kraliça arıya sığındıqları kimi (onun yanında güvən və hüzu taparlar), o yer üzünü ədalət və dürüstlüklə dolduracaq.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 11)*

# HZ. MEHDİNİN HZ. İSA İLƏ BİR YERƏ GƏLMƏSİ

## 53) HZ. İSA İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLƏCƏKDİR?

Axırzaman, çox böyük hadisələrin və tarixi proseslərin yaşanacağı bir dövrdür. Bu dəyişmələrə vəsilə olacaq şəxslər də çox müqəddəs və mübarək insanlardır. Axırzamanın bu mübarək şəxslərindən biri olan hz. İsa, bundan təxminən 2000 il əvvəl Rəbbimizin Qatına yüksəldilmişdir və Allahın təqdir etdiyi vaxt gəldiyində də yenidən dünyaya dönəcək. Quran ayələrində və hədislərdə xəbər verilən məlumatlar, hz. İsanın yer üzünə ikinci dəfə gəlişinin Axırzamanda olacağına işarə edir.

Hz. İsa (bəzi insanların heç bir məlumat və dəlilə söykəmədən onun gəlməyəcəyini qarşıya qoyduqları bir dövrdə), Allahın icazəsiylə, ikinci dəfə yer üzünə gələcək və haqq din olan İslamı təbliğ edəcək. *(Ətraflı məlumat üçün baxın: Hz. İsa ölmədi və Məsih müjdəsi, Harun Yəhya)*

## 54) İSLAM ALİMLƏRİ HZ. İSANIN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLİŞİYLƏ ƏLAQƏDAR HƏDİSLƏRİN TƏVATÜR DƏRƏCƏSİNDƏ OLDUĞUNU NECƏ XƏBƏR VERMİŞLƏR?

Hz. İsanın ikinci dəfə yer üzünə gəlişi, hz. Mehdinin və Dəccalın ortaya çıxışı, qiyamətin ən böyük əlamətlərindəndir. Bir çox İslam alimi əsərlərində bu mövzuları ətraflı olaraq ələ almışlar. Mövzuyla əlaqədar hədislərdə bildirilən xəbərlər, İslam alimləri tərəfindən "**təvatür**" (qüvvətli xəbər) dərəcəsində qəbul edilir.

Hz. İsanın dünyaya təkrar gəlişi ilə əlaqədar Peyğəmbərimiz (s.ə.v)-in bir çox səhih hədisi vardır. İslam alimlərindən Şevkani, hz. İsanın dönüşünə dair 29 hədis olduğunu, bu hədislərin ehtiva etdiyi məlumatların da səhv olma ehtimalının olmadığını ifadə etmişdir. *(Sünəni İbni Macə, 10/338)*

Hz. İsanın təkrar gələcəyini və Dəccalın ortaya çıxacağını nəql edən alimlərin başında İmamı Əzəm Əbu Hənifə gəlir. Əbu Hənifə, "Fiqhi Əkbər" adlı əsərinin son hissəsində bunları bildirir:

*Dəccalın, Yəcüc və Məcücün çıxması, Günəşin qərbdən doğulması, **Hz. İsanın göydən enməsi və digər qiyamət əlamətləri, səhih xəbərlərdə çatdırıldığı üzrə, haqdır, olacaqdır.** (Əbu Hənifə, Numan ibn Sabit (150/767), Fiqhi Əkbər, Tərcümə edən: H. Bəsri Çantay, Ankara, 1982)*

İmam Suyuti də, "Əl Havi Lil Fetava" adlı kitabı və "Əl İləm bi Hukmi İsa" adlı risaləsində, mövzuyla əlaqədar bütün hədislərə yer verdikdən sonra, bu hədislərin mütəvatir olduqlarını bildirmişdir:

*Hədis elminə vəqf olanlara gizli qalmayacağı üzrə, bu barədə zikr etdiyimiz bütün hədislər mütəvatir dərəcəsinə çatmışdır. **Bu səbəbdən Mehdi Muntazar (gözlənilən Mehdi) haqqındakı hədisi-şəriflər mütəvatir olduğu kimi, Dəccal haqqındakı hədisi-şəriflər də təvatür dərəcəsinə çatmış olub, Hz. İsanın enişiylə əlaqədar hədisi-şəriflər də mütəvatirdir.** (Suyuti, Əl Havi, 2/277)*

## 55) SƏHİH HƏDİSLƏRDƏ HZ. İSANIN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ GƏLƏCƏYİ NECƏ XƏBƏR VERİLMİŞDİR?

Mövzuyla əlaqədar hədislər, etibarlı hədis qaynağı olan "Kutubu Sittə"də və İmam Malikin "Muvatta"sı, İbn Huzeyme ilə İbn Hibbanın "Səhihlər"i, İbn Hənbəl və Tayalisinin "Müsnedlər"i kimi ən mötəbər hədis qaynaqlarında geniş bir şəkildə bəhs edir. Hz. İsanın yer üzünə gəlişiylə əlaqədar hədislərdən bəziləri belədir:

***Sizlər on əlaməti görmədikcə heç bir zaman Qiyamət qopmaz... Biri də İsanın enməsi...** (Müslim, Kitabı-l Fiten: 39)*

***Nəfsim qüdrət əlində olan Allaha and içərəm ki, Məryəm oğlu İsanın ədalət sahibi olaraq enməsi yaxındır...*** *[Əbu Hureyre (r.ə)/Buxari, Büyu 102, Mezalim 31, Ənbiya 49; Müslim, İman 242 (155); Əbu Davud, Melahim 14 (4324); Tirmizi, Fiten 54 (2234)]*

***Vallah mütləq və şübhəsiz Məryəm oğlu İsa enəcək, həm ədalətli bir hakim, ədalətli bir hökmdar olaraq enəcək...*** *[Əbu Hureyre (r.ə)/Buxari, Büyu 102, Mezalim 31, Ənbiya 49; Müslim, İman 242 (155); Əbu Davud, Melahim 14 (4324); Tirmizi, Fiten 54 (2234)]*

***İmamınız özünüzdən olduğu halda, Məryəm oğlu sizin içinizə endiyi zaman sizlər necə olarsınız?*** *(Əbu Hureyre, (r.ə)/Buxari, Ənbiya 50, 3265, 3/1272; Müslim, İman 71,155,1/136; Beyhaki, Əsmə və Sifət 3265, 2/166)*

***Həyatım əlində olan Allaha and içərəm ki, Məryəm oğlu (İsa Aleyhissəlam)ın ədalətli bir hakim olaraq sizin içinizə enməsi şübhəsiz yaxındır.*** *(Səhihi Müslim, 6/532)*

***İsa ibn Məryəm ədalətli bir hakim və ədalətli bir imam (dövlət başçısı) olaraq enmədikcə qiyamət qopmayacaq.*** *(Sünəni İbni Macə, 10/340)*

*Peyğəmbərimiz (s.ə.v), Hz. İsanın gəldiyində, nələr edəcəklərini də belə ifadə etmişdir:*

***İsa ibn Məryəm enər, qırx il Allahın kitabı və mənim sünnəmlə hökm edər, vəfat edər.*** *(Axırzaman Mehdisinin əlamətləri, səh. 92)*

***İsa ibn Məryəm mənim ümmətim içində; ədalətli bir hakim və (rəhbərlikdə) ədalətli bir imam olacaq, xaçı qırıb əzəcək və donuzu öldürəcək... Qab su ilə dolduğu kimi yer üzü barışla dolacaq. Din birliyi də olacaq, artıq Allahdan başqasına tapınılmayacaq.*** *(Sünəni İbni Macə, 10/334)*

## 56) HƏDİSLƏRDƏ HZ. İSANIN KÖMƏKÇİLƏRİNİN SAYI İLƏ ƏLAQƏDAR NECƏ MƏLUMAT VERİLMİŞDİR?

Quranda, hz. İsanın yer üzünə ilk gəlişində ona tabe olanların sayının olduqca az olduğuna işarə edilmişdir. Rəvayətlərdə də xəbər verildiyinə görə, Hz. İsaya yalnız az saydakı həvariləri iman etmiş və xalqdan da bu mübarək peyğəmbərə dəstək verən kimsə olmamışdır. Bu vəziyyət Quranda belə xəbər verilmişdir:

**Ey iman gətirənlər! Allahın köməkçiləri olun. Necə ki, Məryəm oğlu İsa həvarilərə: "Allah yolunda kimlər mənə köməkçi olacaq?" – demiş, həvarilər də: "Bizik Allahın köməkçiləri!" – demişdilər. İsrail oğullarından bir zümrə iman gətirdi, digər bir zümrə isə kafir oldu. Biz də iman gətirənləri düşmənlərinə qarşı qüvvətləndirdik və onlar üstün gəldilər. (Saff surəsi, 14)**

Yer üzünə ikinci dəfə gəlişində də, ilk zamanlarda hz. İsaya inanıb dəstəkləyənlərin sayı yenə çox az olacaq. Böyük İslam alimi Bədiüzzaman Səid Nursi, hz. İsanın Axırzamanda yer üzünə ikinci dəfə gəlişində yaşanacaq bu vəziyyəti belə xəbər vermişdir:

*..."**Dəccalın fövqəladə böyük və minarədən daha yüksək bir əzəməti heykəldə və Həzrəti İsa aleyhissalam ona nisbətən çox kiçik olduğunu" göstərər.** Bunun açıqlaması budur ki: İsa aleyhissalamı nuru iman (imanın işığı) ilə tanıyan və tabe olan camaatı ruhaniyyə-i mücahidinin (ruhani mücahidlər camaatının) kəmiyyəti (sayı), dəccalın məktəb tərəfindən və əsgər tərəfindən elmi və maddi ordularına nisbətən **çox az və kiçik olmasına işarə və kinayədir** (məqsədindədir). (5-ci Şüa, səh. 464 Şüalar, səh. 495)*

Bir başqa sözündə isə Bədiüzzaman, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində işarə edilən bu vəziyyəti belə açıqlamışdır:

*Həzrəti İsa (ə.s) dəccal ilə mübarizəsi zamanında, on arşın yuxarıya atlayıb sonra qılıncı onun dizinə çatdıra biləcək dərəcəsində, bədən tərəfindən o dərəcə dəccalın heykəli Həzrəti İsadan böyükdür, deyə tərcüməsində rəvayət var. Demək dəccal, Həzrəti İsa əleyhissalamdan on, bəlkə iyirmi misli yüksək qamətli (boylu) olması lazımdır...*

*Birinci Cəhət: Dini İsəvinin həqiqisini (Xristianlığın gerçəyini) əsas tutan İsəvi ruhanilərin camaatı və onlara qarşı dinsizliyi tervice (qəbul etdirib etibarlı etməyə) başlayan camaat təcəssüm etsələr (maddələşib cisim halına gəlsələr),* ***bir minarə yüksəkliyində bir insanın yanında bir uşaq qədər də ola bilməz****. (Kastamonu Lahikası, səh. 75)*

Bədiüzzaman, bu sözlərində dəccalın əlində tutacağı maddi və mənəvi güc kimi, ətrafındakı insanların sayının da çox olacağını, hz. İsanın camaatının isə dəccalınkı ilə müqayisə edildiyi zaman çox az sayda insandan meydana gələcəyini ifadə etmişdir. Hz. İsanın cəmiyyətin böyük kütləsi tərəfindən tanına bilməməsində, dəccalın əlində tutduğu bu geniş kütlə və imkanlarla icra edəcəyi mənfi təbliğatın böyük təsiri olacaqdır (doğrusunu Allah bilir).

## 57) HZ. MEHDİ, HZ. İSA İLƏ GÖRÜŞƏCƏKDİR? BU GÖRÜŞMƏ REALLAŞMIŞDIR?

Hz. İsa və hz. Mehdinin ortaya çıxışı əsrlərdir İslam ümməti tərəfindən gözlənilən müjdəli hadisələrdir. Necə ki, rəvayətlərdə bu mübarək şəxslərin çıxış əlamətləri olaraq bildirilən hadisələrin bir çoxu hədislərlə uyğun bir şəkildə və ard-arda reallaşmaqdadır. Şübhəsiz bu vəziyyət, hz. İsa və hz. Mehdinin ortaya çıxacaqları vaxtın çox yaxınlaşdığının bir göstəricisidir.

Peyğəmbərimiz (s.ə.v)-in səhih hədislərində hz. İsanın hz. Mehdi ilə eyni dövrdə ortaya çıxacaqları və İslam əxlaqını bütün dünyada yayması məqsədiylə birlikdə mübarizə edəcəkləri bildirilmişdir. Bir çox səhih hədisdə yer alan bu məlumatlar, hz. İsa ilə hz. Mehdinin ortaya çıxdıqları dövrdə bir araya gələcəklərini və qarşılıqlı dialoq içərisində olacaqlarını göstərir. Ancaq bu böyük və tarixi görüşmə hələ reallaşmamışdır və bütün dünya

müsəlmanları tərəfindən gözlənilir. Bu vəziyyət də bizlərə, hz. Mehdinin keçmiş dövrlərdə gəlmiş bir şəxs ola bilməyəcəyini göstərən əhəmiyyətli dəlillərdən biridir. Çünki hz. İsa hələ ortaya çıxmamış və bütün dünyanın gözləri qarşısında reallaşacaq olan bu birlik hələ meydana gəlməmişdir.

## 58) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN NAMAZDA HZ. İSAYA İMAMLIQ EDƏCƏYİ NECƏ XƏBƏR VERİLMİŞDİR?

Hz. İsanın ortaya çıxdığı dövrdə hz. Mehdi, Peyğəmbərimiz (s.ə.v)-in xəlifəsi yəni İslam aləminin mənəvi lideri sifətiylə dünya səviyyəsindəki bütün müsəlmanlar arasında İslam Birliyini təmin etmiş olacaq və bu birliyin başında lider mövqeyində olacaq. Peyğəmbərimiz (s.ə.v)-in bir çox səhih hədisində hz. İsanın da bu dövrdə ikinci dəfə yer üzünə gələcəyi; hz. Mehdi ilə birlikdə namaz qılacağı və hz. İsanın "imamlıq sənə verilmişdir" deyərək hz. Mehdini imamlığa şəxsən özünün keçirəcəyi bildirilmişdir. Bu hədislərdən bəziləri belədir:

***Hz. İsa namazını hz. Mehdinin arxasında qılacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 24)*

*İmamları saleh insan olan Mehdi olduğu halda, Beytül Məqdisə sığınarlar. Orada imamları onlara səhər namazını qıldırmaq üçün önə keçdiyi bir sırada, bir də baxarlar ki, Məryəm oğlu İsa səhər vaxtında enmişdir. Mehdi, hz. İsanı önə keçirmək üçün arxaya çəkilər.* ***Hz. İsa onun çiyinlərinə əlini qoyar və ona deyər ki, "Keç önə namazı qıldır. Çünki qamət (namaza başlama işarəsi sənin üçün gətirilmişdir."*** *(Əbu Rəfidən rəvayət edilmişdir; İmam Şarani, Ölüm, Qiyamət, Axirət və Axırzaman əlamətləri, Bədir nəşriyyat, səh. 495-496)*

***...Nəhayət Məryəm oğlu İsa müsəlmanların əmiri (hz. Mehdi) ona: Gəl bizə namaz qıldır, deyər. Bunun üzərinə İsa: Xeyr, Allahın bu ümmətə bir ikramı olaraq sizin bir qisminiz digər bir qisim üzərinə əmirsiniz, deyər.*** *(Səhihi Müslim, cild 1, səh. 209)*

***Hz. İsa səmadan nüzul edəcək və onun əmrliyini qəbul edəcək. Hz. İsaya "Bizə namaz qıldır" deyiləcək, ancaq o, "Əmir sizin içinizdədir" cavabını verərək, "Bu Allahın ümməti Məhəmmədə bir ikramıdır." deyəcək.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 24)*

***Hz. Mehdi möminlərlə birlikdə Beytül Məqdisdə səhər namazı qılarkən, o sırada nüzul edən hz. İsanı təqdim edəcək və hz. İsa əllərini onun çiyninə qoyaraq, "Namazın qaməti sənin üçün gətirildi, buna görə sən qıldır" deyəcək və nəhayət hz. Mehdi, hz. İsa və möminlərə imam olaraq namazı qıldıracaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 25)*

## 59) HZ. İSA VƏ HZ. MEHDİ, XƏBƏR VERİLDİYİ ŞƏKİLDƏ BİRLİKDƏ NAMAZ QILMIŞLAR?

Hz. İsa və hz. Mehdinin bir yerə gəlmələri və birlikdə namaz qılmaları hələ reallaşmamış bir hadisədir. Hz. İsanın gəlişi və hz. Mehdi ilə birlikdə namaz qılmaları bütün dünya müsəlmanları tərəfindən böyük bir həyəcanla gözlənilir.

## 60) BU HADİSƏNİN HƏLƏ REALLAŞMAMIŞ OLMASI HZ. MEHDİNİN HƏLƏ ORTAYA ÇIXMADIĞININ BİR DƏLİLİDİR?

Hz. İsa və hz. Mehdinin hələ bir araya gəlməmiş olmaları, hz. Mehdinin əvvəlki dövrlərdə gəlmiş bir şəxs olmadığını və yaşadığımız, Axırzaman əlamətlərinin bir-biri ardınca reallaşdığı bu dövrdə gələcəyinin əhəmiyyətli bir dəlilidir. Bu əhəmiyyətli əlamət reallaşmadığı təqdirdə, hz. Mehdinin keçmiş dövrlərdə çıxmış olduğundan bəhs etmək isə heç bir şəkildə mümkün deyil.

## 61) DƏCCALIN FİKİR SİSTEMİ HZ. İSA TƏRƏFİNDƏN TƏSİRSİZ HALA GƏTİRİLƏCƏK?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsa və hz. Mehdinin Axırzamanda icra edəcəkləri böyük fikri mübarizədə, qarşılarındakı ən əhəmiyyətli mənfi gücün nə olacağı da xəbər verilmişdir. Bu mənfi güc "**dəccal**"dır. Etibarlı hədislərdə və təməl İslami qaynaqlarda qiyamətin böyük əlamətlərindən biri olaraq sayılan dəccal adı, "**dcl**" kökündən gələn "**yalançı, hiyləgər, zehinləri, qəlbləri, yaxşı ilə pisi, haqq ilə batili qarışdıran, bir şeyi bəzəyib həqiqi üzünü gizləyən, hər yeri gəzən müfsid (fəsadlaşdıran) və pis insan**" mənasını verir.

Dəccal maddi güc və imkanları ilə yanaşı, bəzi fövqəladə güclərə də sahib olacaq və insanların böyük əksəriyyətini bu gücləri ilə təsiri altına alacaq. Bu şəkildə fövqəladə işlər edərək bəzi saxta möcüzələrlə insanları aldatdığı və şeytanların dəstəyiylə hərəkət etdiyi üçün, dəccalın məğlub olması, ancaq Rəbbimizin müxtəlif möcüzələr bəxş etdiyi müqəddəs peyğəmbəri hz. İsa vəsiləsiylə olacaq. Hz. İsanın dəccalın fitnəsini yox etməsi, Allahın icazəsiylə, çox sürətli və asan olacaq. (Hz. İsa Allahın bir rəhməti olaraq, ölüləri diriltmək, xəstələri yaxşılaşdırmaq, palçıqdan bir quş düzəldib üfləyərək can vermək kimi möcüzələr göstərmişdir).

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində dəccaliyyətin fikri olaraq tam mənasıyla ləğv edilməsini hz. İsa vəsiləsiylə olacağı belə müjdələnmişdir:

*Rəbbim mənə (hz. İsa) dəccalın çıxacağını xəbər verdi. Yanımda kadib ağacından düzəldilmiş iki ox olacaq.* ***Dəccal onları görüncə duzun suda əriməsi kimi əriyəcək.*** *(Abdullah ibn Məsud, Təfsiri İbni Məsud, səh. 243)*

***Allahın düşməni olan Məsihi dəccal, İsa əleyhissalamı görüncə, duzun suda əridiyi kimi əriyər.*** *Hz. İsa onu tərk edib buraxsa belə həlak olana qədər əriyib gedəcək.* ***Lakin Allah onu şəxsən İsa əleyhissalamın əliylə yox edəcək.*** *(Müslim, Kitabül Fiten: 34)*

*...Dəccal ortalığa fitnə saçarkən Cənabı haqq, Məsih İsa ibn Məryəmi göndərər... **Hz. İsa dəccal ilə Lüddə (Beytül Makdisə yaxın bir diyar) qapısında qarşılaşar və onu yox edər.** (Səhihi Müslim; Böyük Fitnə Məsihi Dəccal, Saim Güngör, səh. 104)*

Hədislərdə xəbər verildiyi kimi, hz. İsa yenidən yer üzünə dönəcək, Beytül Məqdisdə (Məscidi Əqsa) dəccalla qarşılacaq və dəccal, hz. İsanı görüncə **"duzun suda əriməsi kimi"** yox olacaq. Allahın icazəsiylə hz. İsanın "**nəfəsi belə**" dəccalın fitnəsinin yox edilməsinə bəs edəcək.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, hz. İsanın yalnız nəfəsinin belə, iman etməyənlər üzərində böyük təsir meydana gətirəcəyi və batilə söykənən fikir sistemini kökündən yox edəcəyi belə bildirilmişdir:

***...Onun (hz. İsa (ə.s)-ın) nəfəsini hiss edən heç bir kafirin ölməməsi mümkün deyil.** Dəccalın yalançı olduğu ətrafa dalğa-dalğa yayılacaq. Dəccaliyyət pərişan olacaq fikir sistemi yox ediləcək. (Sünəni Ibni Macə, 10/32)*

*...**Dəccal ortalığa fitnə saçarkən Cənabı haqq, Məsih Məryəm oğlu İsanı göndərər... nəfəsini idrak edən hər kafir mütləq yox olar.** İsa (ə.s) Dəccal ilə Lüdd qapısında (Beytül Məqdisə yaxın bir diyar) qarşılaşar və onu yox edər. (Səhihi Müslim; Böyük Fitnə Məsihi Dəccal, Saim Güngör, səh. 104)*

Bu həqiqət Quranda da **"Xeyr, Biz haqqı batilin üstünə atarıq, o da onun beynini darmadağın edər. Bir də baxarsan ki, o, yox olub getmişdir. (Allaha qarşı) Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!" (Ənbiya surəsi, 18)** ayəsiylə xatırladılır. Haqq daim batilə qarşı üstün gələr.

## 62) HƏDİSLƏRDƏ DƏCCALIN FİKİRLƏ YOX EDİLMƏSİNDƏ, HZ. MEHDİNİN HZ. İSA İLƏ BİRLİKDƏ HƏRƏKƏT EDƏCƏYİ XƏBƏR VERİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsanın, dəccalın fitnəsini hz. Mehdi ilə birlikdə yox edəcəyi bildirilmişdir:

*Mehdi mənim Əhli Beytimdən və mənim nəslimdəndir. O, yer üzünü ədalətlə dolduracaq.* ***Şübhəsiz ki, o İsa əleyhissalam ilə birlikdə yola çıxaraq Fələstin ərazisindəki Babı Lut deyilən mövqedə dəccalı yox etməsi üçün həzrəti İsaya kömək edəcək.*** *(Ölüm, Qiyamət, Axirət və Axırzaman əlamətləri, İmam Şarani, Bədir nəşriyyat, səh. 438, (816))*

***İsa göydən enəcək, dəccalı yox edəcək və ya hz. Mehdinin dəccalı yox etməsinə kömək edəcək.*** *(Kittani, səh. 145) (Mehdi və Dəccal, Şaban Döğen, səh. 127)*

***Mehdi, İsa ilə birgə çıxacaq, Fələstin torpaqlarında Babı Lüddə dəccalı yox edəcək, Mehdinin dəccalı yox etməsinə kömək edəcək.*** *(Kitabül-bürhan, səh. 105) (Mehdi və Dəccal, Şaban Döğen, səh. 127)*

## 63) HZ. İSANIN HZ. MEHDİ İLƏ BİRLİKDƏ DƏCCALIN FİKİR SİSTEMİNİ YOX ETMƏLƏRİ REALLAŞMIŞDIR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində verilən məlumatlara görə, hz. İsa və hz. Mehdi, haqq dinə qarşı mübarizə verəcək olan dəccalı məğlub edəcək və onun qurmuş olduğu azğın sistemə son verəcəklər. Hz. Mehdi, bütün insanları Allahın Quranda bildirdiyi haqq dini yaşamağa dəvət edəcək, dəccalın və onun inkara söykənən sisteminin ləğv olması ilə birlikdə insanlar axın-axın din əxlaqını yaşamağa yönələcəklər. Yer üzündə Quran əxlaqı hakim olacaq və bu şəkildə bütün insanlıq sülh və rifaha qovuşacaq.

Ancaq dövrümüzdə bunların heç biri hələ yaşanmamışdır. Əvvəlki sətirlərdə də ifadə edildiyi kimi, bütün dünya insanları hz. İsanın ikinci dəfə yer üzünə gəlişinə hələ şahid olmamışdır. Hz. Mehdi və hz. İsa birlikdə dəccala qarşı mübarizə verərək dəccalın fikri məğlubiyyətinə vəsilə olmamışlar. Bu vəziyyət də yenə hz. Mehdinin əvvəlki əsrlərdə gəlmiş bir şəxs

ola bilməyəcəyini göstərir. Axırzaman əlamətlərinin bir-birinin ardınca reallaşması isə, hz. Mehdinin içərisində olduğumuz bu dövrdə ortaya çıxmasının çox yaxın olduğunu göstərən əlamətlərdən biridir.

## 64) HZ. İSANIN İKİNCİ DƏFƏ YER ÜZÜNƏ "ŞƏXSİ MƏNƏVİ" DEYİL "ŞƏXS" OLARAQ GƏLƏCƏYİ HƏDİSLƏRDƏ NECƏ AÇIQLANMIŞDIR?

Əvvəlki sətirlərdə izah edildiyi kimi Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. İsanın ikinci dəfə yer üzünə gəldiyində hz. Mehdi ilə birlikdə dəccalın fitnəsinə qarşı böyük mübarizə icra edəcəyi, hz. Mehdi ilə birlikdə namaz qılacağı bildirilmişdir. Peyğəmbərimiz (s.ə.v)-in vermiş olduğu bu məlumatlar hz. İsanın "şəxsi mənəvi" olmadığını; namaz ibadəti kimi, Allahın haqq dininin hökmlərini yerinə gətirə biləcək **"Cismi bədəni olan şəxs"** olaraq yer üzünə gələcəyini açıq şəkildə ortaya qoyur. Hz. İsa, yer üzünə əvvəlki gəlişində namaz ibadətini yerinə yetirmişdir. İkinci dəfə gəlişində də Allahın icazəsiylə eyni şəkildə bu ibadətinə davam edəcək. Allah Quranda "yaşadığı müddətcə" namaz qılmaqla məsul olduğunu hz. İsaya belə bildirir:

**Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və <u>nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi.</u> (Məryəm surəsi, 30-31)**

Bununla yanaşı Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Hz. İsanın ortaya çıxış zamanı, edəcəyi fəaliyyətlər, xüsusiyyətləri, əxlaqı, fiziki xüsusiyyətləri, yaşı kimi bir çox xüsusiyyəti haqqında da məlumat verilmişdir. Bütün bu məlumatlar, Peyğəmbərimiz (s.ə.v)-in hz. İsanın "şəxsi mənəvi" olaraq deyil, şəxs olaraq gələcəyini müjdələdiyini açıq şəkildə ortaya qoyur. Hədislərdə bəhs edilən bu mövzuya açıqlıq gətirən məlumatlardan bəzilərini belə sıralaya bilərik:

*Nəfsim qüdrət əlində olan Allaha and içərəm ki, **MƏRYƏM OĞLU İSANIN ƏDALƏT SAHİBİ OLARAQ ENMƏSİ YAXINDIR...** (Buxari, Kitabül-Büyu: 102, Mezalim: 31, Ənbiya 49; Müslim, İman: 242 (155); Əbu Davud, Melahim: 14 (4324); Tirmizi, Fiten: 54 (2234))*

*Rəsulullah buyurdu ki: "Həyatım əlində olan Allaha and içərəm ki, **MƏRYƏM OĞLU (İSA ƏLEYHİSSƏLAM)ın ƏDALƏTLİ BİR HAKİM OLARAQ SİZİN İÇİNİZƏ ENMƏSİ YAXINDIR."** (Səhihi Müslim, cild 1, səhifə 206-242)*

*Vallah mütləq və şübhəsiz **MƏRYƏM OĞLU İSA ENƏCƏK**, həm ədalətli hakim, **ƏDALƏTLİ HÖKMDAR** olaraq enəcək... (Əbu Hureyre (r.ə)/Buxari, Büyu 102, Mezalim 31, Ənbiya 49; Müslim, İman 242 (155); Əbu Davud, Melahim 14 (4324); Tirmizi, Fiten 54 (2234))*

Bu hədislərdə Peyğəmbərimiz (s.ə.v), hz. İsanın **"ədalət sahibi", "ədalətli hakim"** və **"ədalətli hökmdar"** xüsusiyyətlərini xəbər vermişdir. Bütün bunlar, bir insanın sahib ola biləcəyi xüsusiyyətlərdir. Bir "şəxsi mənəvi"nin hökmdar ola bilməsi, ədalət təmin edə bilməsi, hakim, yəni rəhbər xüsusiyyətini daşıya bilməsi isə əlbəttə ki, mümkün deyil. Peyğəmbərimiz (s.ə.v) bu mövzunu digər hədislərində də belə açıqlamışdır:

*İmam Nəvəvi: **HZ. İSA** Ümməti Məhəmmədə peyğəmbər olaraq deyil; **ŞƏRİƏTİ MUHAMMƏDİYYƏTİ TƏTBİQ ETMƏK ÜÇÜN GƏLƏCƏKDİR,** deyir. (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 68)*

*Ebuş-Şeyh Əbu Hüreyrə (r.ə)-dən nəql edir: **"İSA ƏLEYHİSSALAM ENƏCƏK,** dəccalı öldürəcək, **QIRX İL QALIB, ALLAHIN KİTABI VƏ MƏNİM SÜNNƏMLƏ ƏMƏL EDƏCƏK, SONRA ÖLƏCƏK..."** (Qiyamət əlamətləri, 8-ci nəşr, səh. 258)*

*Əbu Seyh, Kitab-ül Fitəndə Əbu Hureyrədən nəql etdi, Rəsulullah buyurdu: İsa ibn Məryəm enər, dəccalı öldürər və **QIRX (40) İL ALLAHIN KİTABI VƏ MƏNİM SÜNNƏMLƏ HÖKM EDƏR,** vəfat edər. (Kitab ul Burhan Fi Əlamət-el Mehdiyyel Axırzaman, səh. 92)*

Bu hədislərdə də Peyğəmbərimiz (s.ə.v) hz. İsanın ikinci dəfə yer üzünə gəldiyində **"Peyğəmbərimiz (s.ə.v)-in sünnəsiylə əməl edəcəyini"** xəbər vermişdir. Bir "şəxsi mənəvi"nin Peyğəmbərimiz (s.ə.v)-in sünnəsiylə hərəkət etməsi mümkün deyil. Açıqdır ki, bu səhih hədislərdə bildirildiyi kimi hz. İsa Allahın icazəsiylə bir şəxs olaraq ortaya çıxacaq. Hədislərdə bu mövzuda verilən bir başqa məlumat isə hz. İsanın ikinci dəfə yer üzünə gəldiyində **"həcc ibadətini yerinə yetirəcək olması"**dır:

*Vallah **MƏRYƏM OĞLU (HZ. İSA ƏLEYHİSSALAM),** Feccur-Ravha adlı mövqedə, **HƏCC ETMƏK** və ya ümrə etmək, yaxud da hər ikisini də etmək üçün **İCABƏT EDƏCƏK**DİR. (Müslim, Həcc: 216, 1252)*

*Bir rəvayətdə **İSA ƏLEYHİSSALAMIN ENƏCƏYİ, HƏCCƏ GEDİB** sonar da **MƏDİNƏNİ ZİYARƏT EDƏCƏYİ VƏ RƏSULULLAHIN QƏBRİNƏ SALAM VERƏCƏYİ** və Rəsulullahın da salamını alacağı izah edilir. (Qiyamət əlamətləri, 8-ci nəşr, səh. 246)*

*Bir rəvayətdə **(REVHA)YA ENƏCƏYİ** və oradan **HƏCCƏ GEDƏCƏYİ** izah edilir.*

*Revha, Mədinə ilə Vadisafra arasında, Məkkə yolundakı bir yerin adıdır. (Qiyamət əlamətləri, 8-ci nəşr, səh. 246)*

*Bəzi rəvayətlərdə belə deyilir:*

***O, YER ÜZÜNƏ ENDİKDƏN SONRA** evlənəcək, oğul-uşaq sahibi olacaq, sonra **MƏDİNƏDƏ ÖLƏCƏK**... Bəlkə də **ÖLÜMÜ HƏCC VƏ PEYĞƏMBƏRİN (S.Ə.V) QƏBİRİNİ ZİYARƏTİ ƏSNASINDA OLACAQ.** Əks halda Beyti Məqdisdə vəfat edəcək. (Qiyamət əlamətləri, 8-ci nəşr, səh. 246)*

Bu mövzu da yenə hz. İsanın bir şəxs olaraq gələcəyini açıqlayan bir başqa əhəmiyyətli məlumatdır. Peyğəmbərimiz (s.ə.v) hədislərində həmçinin

“**hz. İsanın fiziki xüsusiyyətləri”** haqqında da məlumat vermişdir. Bu hədislərdə hz. İsanın boyundan, saç rəngindən və görünüşündəki gözəllik və heybətdən bəhs edilir. Şübhəsiz ki, bu detallar da hz. İsanın “şəxsi mənəvi” olmadığını yenə açıq şəkildə ortaya qoyur. Bu hədislərdən bəzilərini belə sıralaya bilərik:

*“Onunla (İsa ilə) mənim aramda heç bir peyğəmbər yoxdur. O şübhəsiz enəcək. Onu gördüyünüz zaman tanıyın!* ***O, ORTA BOYLU, AĞA ÇALAR QIRMIZI RƏNGDƏDİR. SARIYA BOYALI İKİ PALTAR İÇİNDƏ OLACAQ. YAĞIŞ YAĞMASA DA SAÇINDAN SU DAMLAYACAQDIR.*** *Insanlarla İslam üçün mübarizə edəcək. Mesih-dəccallı öldürəcək, sonra yer üzündə tam qırx il qalacaq. Sonra öləcək və namazını müsəlmanlar qılacaqlar.” (Buxari, Müslim, Əbu Davud və Tırmizi / Böyük Hədis Külliyyatı, Rudani 5-ci cild, səh. 380)*

*İbni Abbas (r.ə.)-dən Nəbi (s.ə.v) Belə buyurduğu rəvayət olunmuşdur:*

*“Meracda mənə gecə səfər etdirildiyində mən Musanı əsmər üzlü, uzun boylu, buruq saçlı bir tipdə gördüm...* ***İSANI DA GÖRDÜM. NƏ UZUN NƏ QISA NƏ ORTA BOYDA BƏNİZİ QIRMIZI İLƏ AĞA DÖNÜK OLUB, BAŞI SALIVERMİŞ DÜZ SAÇLI İNSAN İDİ.*** *Allahın mənə göstərdiyi heyrətə layiq daha bir sıra qəribəliklər arasında Cəhənnəm gözətçisini Maliki və Dəccalı da gördüm. (Səhihi Buxari Muhtarasarı, Təcridi Sarih Tərcüməsi və Şərhi, səh. 37)*

*İbnu Ömər (r.ə) izah edir: “Xeyr, Allaha and olsun Rəsulullah (əleyhissalatu vəssalam),* ***HZ. İSANIN QIRMIZI ÇÖHRƏLİ OLDUĞUNU SÖYLƏMƏDİ.*** *Ancaq bunu söylədi: “Mən bir dəfə yatmışdım. Yuxumda Beytullahı təvaf edirdim.* ***O SIRADA DÜZ SAÇLI, QUMRAL BƏNİZLİ, BAŞINDAN SU AXAR VƏZİYYƏTDƏ İKİ İNSANA SÖYKƏNİB ORTALARINDA GEDƏN BİRİNİ GÖRDÜM.***

*“Bu kim?” dedim.*

***“MƏRYƏMİN OĞLU!”*** *dedilər. (Buxari, tabi 33, 11, Ənbiya, 42, Libas 68, Fiten 26, Muslim, İmam 275,(169); Muvatta, Sifatun-Nebi 2, (2, 920). 1673)*

*Yenə Abdullah İbni Ömər (r.ə)-dən rəvayət olunduğuna görə Nəbi (s.ə.v) demişdir ki:*

*Mən bu gecə özümü yuxumda Kəbədə gördüm. Qəflətən* ***ƏSMƏR BİR İNSAN GÖRDÜM. SANKİ O ƏSMƏR İNSANLARDAN ƏN GÖZƏLİ, BAŞININ SAÇI İKİ ÇİYİNİ ARASINA SALLANIRDI. (YENİ) DARANMIŞ VƏ TƏMİZLƏNMİŞDİ DƏ BAŞININ SAÇI SU DAMLADIRDI. İKİ ƏLİNİ, İKİ İNSANIN, İKİ ÇİYİNİNƏ QOYARAQ BEYTİ TƏVAF EDİRDİ. (ORADA OLANLARA) BU KİMDİR? DEYƏ SORUŞDUM. ONLAR: MERYEMİN OĞLU MƏSİH (İSA)DİR, DEDİLƏR.*** *(Səhihi Buxari, 9/177)*

# QIZIL DÖVR

## 65) QIZIL DÖVR NƏ DEMƏKDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində qiyamətə yaxın bir zamanda yaşanacaq olan Axırzaman haqqında çox ətraflı məlumatlar və işarələrdən bəhs edilir. Peyğəmbərimiz (s.ə.v)-in verdiyi məlumatlara görə, bu dövrdə bir-biri ardınca bir çox əhəmiyyətli hadisə reallaşacaq. Axırzamanın ilk dövründə dünyada böyük bir pozulma və qarışıqlıq hökm sürəcək, ikinci mərhələdə isə həqiqi din əxlaqının yaşanmasıyla birlikdə yer üzündə sülh və hüzur hakim olacaq.

Axırzamanın ilk mərhələsində, Allahı inkar edərək ateizmi və dinsizliyi təlqin edən bir sıra fəlsəfi sistemlər səbəbiylə insanlar arasında böyük bir degenerasiya yaşanacaq. İnsanlıq yaradılış məqsədindən uzaqlaşacaq, bunun nəticəsində böyük bir mənəvi boşluq və əxlaqi pozulma meydana gələcək. Böyük fəlakətlər, döyüşlər və əzablar yaşanacaq və bütün insanlar bu çətinliklərə son verə bilmək üçün "necə xilas olarıq?" sualının cavabını axtaracaqlar.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki, Axırzaman əlamətləri olaraq bildirilən bu proseslərin bir çoxu, indiki vaxtda bir-bir xəbər verildiyi şəkildə reallaşmışdır. Son zamanlarda yer üzündə müharibə və qarşıdurmaların, terror, şiddət, anarxiya və qarışıqlığın, qırğınların, işgəncələrin gedərək artmış olması isə, yenə Axırzamanın ilk dövrünün yaşanmaqda olduğunun bir göstəricisidir.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki məlumatlara görə Allah, bu qaranlıq dövrün ardından insanları Axırzamanın qarışıqlığından qurtaracaq və böyük qurtuluş nəsib edəcəkdir. Allah, gözəl əxlaqdan uzaqlaşan insanları, degenerasiyaya uğrayan cəmiyyətləri doğru yola çatdırmaq üçün "Mehdi" yəni "doğruya aparan" sifətini daşıyan hz. Mehdini vəsilə edəcəkdir.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində və İslam alimlərinin açıqlamalarında, hz. Mehdinin bu yöndə üç böyük məsuliyyət boynuna götürdüyü bildirilir. Hz. Mehdi əvvəlcə Allahı inkar edən və dinsizliyi dəstəkləyən fəlsəfi sistemlərin fikri olaraq çürüdülməsini təmin edəcək. Digər tərəfdən İslamı, Quranda və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsində bildirildiyi

şəkildə əslinə çevirəcəkdir. İslamiyyəti bütün pozulmalardan, xurafatlardan təmizləyərək həqiqi Quran əxlaqının yaşanmasını təmin edəcəkdir. Axırzamanın ilk dövründə insanlığın içərisində olduğu bütün qarışıqlıqlara, ictimai problemlərə, ictimai çətinliklərə çözüm gətirəcək, bütün yer üzünə sülh, hüzur, xoşbəxtlik və gözəl əxlaqın hakim olmasına vəsilə olacaqdır.

Hz. Mehdi ilə eyni dövrdə yer üzünə ikinci dəfə gələcək olan hz. İsa isə, xüsusilə xristian və yəhudi dünyasına xitab edəcək, onları içinə düşdükləri xurafatlardan sıyrılıb Quran əxlaqını yaşamağa çağıracaq. Xristianların hz. İsaya tabe olmasıyla birlikdə İslam və Xristian aləmi tək bir inancda birləşəcək və dünya "**Qızıl dövr**" adı verilən böyük bir barış, təhlükəsizlik, xoşbəxtlik və rifah dövrü yaşayacaqdır.

İnsanların əsrlərdir həsrətini çəkdikləri bu müqəddəs dövr, hədislərin işarələrinə görə yarım əsrdən çox sürəcək və Peyğəmbərimiz (s.ə.v)-in zamanında yaşanan "**Əsri Səadət**" bənzəri bir dövr olacaqdır.

## 66) PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN HƏDİSLƏRİNDƏ, İNSANLARIN QIZIL DÖVRÜN GÖZƏLLİYİNƏ ETİNA EDƏCƏKLƏRİ VƏ QIZIL DÖVRDƏ YAŞAMIŞ OLMAĞI DİLƏYƏCƏKLƏRİ NECƏ XƏBƏR VERİLMİŞDİR?

Qızıl dövrdə həyat o qədər gözəl olacaq ki, bütün insanlar bu dövrdə yaşamağı istəyəcəklər. "Zamanın necə keçdiyinin fərqinə varmayacaqlar, bu gözəlliklərdən daha çox faydalanmaq üçün Allahdan ömürlərinin uzadılmasını" istəyəcəklər. Qızıl dövrə duyulan bu həsrət Peyğəmbərimiz (s.ə.v)-in hədislərində belə bildirilmişdir:

***Onun zamanında, böyüklər "Kaş ki, mən kiçik olsaydım", kiçiklər də "Kaş ki, mən böyük olsaydım" deyəcəklər.*** *(El-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 48) (Kitab-ul Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 17)*

*Naim ibn Hammad, İbni Abbasdan nəql etdi ki:*

***Hz. Mehdi Bizim Əhli Beytdən bir gəncdir. Yaşlılarımız ona çata bilməyəcək, gənclərimiz isə onu ümid edəcəklər.*** *(Axırzaman Mehdisinin əlamətləri, Cəlaləddin Suyuti, səh. 23)*

***Zamanı o qədər ədalətli olacaq ki, qəbirdəki ölülər dirilərə qibtə edəcək...*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 22)*

*Onlar hər zalıma və cəbbar oğlu cəbbara qalib gələr.* ***Onun dövründə ölülərin dirilərə qibtə edəcəyi bir ədalət görülər.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 68)*

***Hətta yaşayanlar (özlərində olan nemətləri görmələri üçün) ölülərin də həyatda olmalarını arzulayacaqlar.*** *(Ölüm-qiyamət-axirət və Axırzaman əlamətləri, səh. 437)*

Peyğəmbərimiz (s.ə.v) hədislərində, insanların dünyada və axirətdəki qurtuluşlarına vəsilə olacaq çox qiymətli bir insan olan hz. Mehdiyə tabe olunmasını bildirmiş və onun dövründə yaşanacaq bütün bu xeyirlərə işarə etmişdir:

*İbni Əbi Şeybə və Naim ibn Hammad "Fitən" adlı əsərdə, İbni Macə və Əbu Naim isə İbni Məsuddan nəql etdilər. O dedi ki:*

*...O (Mehdi) ərzə sahib olar və özündən əvvəl təzyiq və zülmlə dolu olan ərzi ədalətlə doldurar.* ***Sizdən Ona kim çatsa, qarın üzərində sürünərək belə olsa gəlsin, Ona qatılsın. Çünki O Mehdidir.*** *(Axırzaman Mehdisinin əlamətləri, Cəlaləddin Suyuti, səh. 14)*

İnsanlar, Allahın Quranda inanan qullarına müjdələdiyi gözəlliklərin hamısını bu dövrdə yaşaya biləcəklər. Allah ayəsində iman edən möminləri dünyada da gözəl bir həyatla yaşadacağını belə bildirilir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, albəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

## 67) HƏDİSLƏRDƏ HZ. MEHDİ DÖVRÜNDƏ YER ÜZÜNÜN ƏDALƏTLƏ DOLACAĞI NECƏ XƏBƏR VERİLMİŞDİR?

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.** (Maidə surəsi, 8) ayəsiylə iman sahiblərinə ədalətli davranmalarını bildirmişdir. İnsanlar arasında heç bir ayrı-seçkilik güdmədən, yalnız haqdan və doğrulardan yana, qatqısız bir ədalət, Quran əxlaqının bir gərəyidir. Ancaq Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirildiyi üzrə Axırzamanda insanlar Quranda bildirilən bu əxlaqdan uzaqlaşacaq, ədalətsizlik yer üzünə mümkün olduğu qədər hakim olacaq. Necə ki, zəmanəmizdə dünyanın dörd bir tərəfində davam edən qarşıdurmalar, döyüşlər; öldürülən, şikəst qalan, evlərindən yurdlarından sürgün edilənlər, yüzlərlə kilometr yolu gedərək sığınacaq yer axtaran mühacirlərin, küçələrdə yaşayan kimsəsiz uşaqların, köməyə və baxıma möhtac, kimsəsizliyə tərk edilən yaşlıların vəziyyəti, ədalətin gərəyi kimi tətbiq olunmadığının açıq bir göstəricisidir.

Ancaq hz. Mehdinin ortaya çıxışıyla birlikdə yer üzündə hökm sürən bu vəziyyət sona çatacaq, bütün dünyada bənzəri görülməmiş bir ədalət mühiti təmin ediləcək. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdi dövründə yaşanacaq olan bu ədalətli mühit belə xəbər verilir:

***Qiyamətin qopması üçün zamanda yalnız bir gündən başqa vaxt qalmamış da olsa Allah mənim Əhli Beytimdən bir şəxsi göndərəcək yer üzü zülmlə dolduğu kimi, o yer üzünü ədalətlə dolduracaq.*** *(Sünəni Əbu Davud, 5/92)*

***Mehdi məndəndir, yer üzü zülm və işgəncə ilə dolduğu kimi onu düzgünlük və ədalətlə doldurar.*** *(Sünnəni Əbu Davud, 5/93)*

***Bu (əmir) də insanlar yer üzünü daha əvvəl zülm ilə doldurduqları kimi yer üzünü ədalətlə dolduracaq.*** *(Sünnəni İbni Macə, 10/348)*

***Zülm və fisqlə dolu olan dünya, o (hz. Mehdi) gəldikdən sonra ədalətlə dolub daşacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20)*

***Hz. Mehdinin zamanında ədalət o qədər bol olacaq ki, zorla alınan hər mal sahibinə geri verildiyi kimi, bir insanın başqasına aid olub da, dişində qalmış bir şey belə sahibinə qaytarılacaq.*** *(əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

***Onun ədaləti hər yeri örtəcək və insanlar arasında hz. Peyğəmbərin sünnəsi ilə rəftar edəcək.*** *(əl-Kavlul Müxtəsər Fi Əlamət-el Mehdiyy-il Muntazar, səh. 20)*

*Dünya həyatının bir günü qalsa Allahu Təala o günü uzadar, mənim Əhli Beytimdən bir insan göndərər. Onun adı mənim adım kimidir. Atasının adı atamın adı kimidir.* ***Zülm və pisliklə dolmuş dünyanı, ədalət və dürüstlüklə dolduracaq.*** *(Böyük Fitnə Məsih Dəccal, Saim Güngör, pamuk nəşriyyat, səh. 80) (Əbu Davud və Tırmizi / Böyük Hədis Külliyyatı, Rudani, 5-ci cild, səh. 365)*

## 68) PEYĞƏMBƏRİMİZ (S.Ə.V)-İN HƏDİSLƏRİNƏ GÖRƏ HZ. MEHDİ YER ÜZÜNDƏKİ BÜTÜN FİTNƏLƏRİN QARŞISINI ALACAQDIR?

Geridə qalan 20-ci əsr "Müharibələr əsri" olaraq xatırlanır. Yaşadığımız 21-ci əsrdə yenə döyüşlər və terror hadisələri ilə başlamışdır və hələ də

bunlar dünyanın dörd bir tərəfində davam edir. Dövrümüzdə heç bir ölkə terror hücumlarından sığortalanmamışdır. Avropadan Amerikaya, Asiyadan Afrikaya qədər dünyanın dörd bir tərəfində terrorist bombalamalar, təxribatlar, təyyarə qaçırmaları, girov götürmələr, daxili çaxnaşmalar, günahsız və mülki şəxsləri hədəf alan terrorist hücumlar, gündəlik həyatda qarşılaşılan fərdi şiddət hadisələri də böyük bir sürətlə davam edir.

Terrorizm, bütün dünyanı dağıdır, insanların həyatlarına çox mənfi təsirlər meydana gətirir. Peyğəmbərimiz (s.ə.v), hədislərində Axırzamanda yaşanacaq bu mühiti belə təsvir edir:

***...Nəhayət bəlalar, fitnələr və xoşlanmayacağınız bir çox pis işlər isabət edəcək. Ard-arda elə fitnələr gəlir ki, sonra gələn getdikcə daha böyük olduğu üçün əvvəl gələni incə və yüngül görər.*** *(İmam Şarani, Ölüm-qiyamət-axirət və Axırzaman əlamətləri, səh. 394-395, nömrə 733)*

Ancaq yenə Peyğəmbərimiz (s.ə.v)-in müjdələrinə görə, bu qorxu və şiddət dolu qaranlıq dövrün ardından Allah, hz. Mehdi vəsiləsiylə bütün insanlığı böyük qurtuluşa çatdıracaq. Yer üzündəki bütün fitnələr, döyüşlər, qırğınlar, terror, şiddət və anarxiya hərəkətləri sona çatacaq; yerini aydınlıq, sülh və hüzur dolu bir dövrə buraxacaq. Hədislərdə hz. Mehdinin "fitnələri önləyəcəyi" belə bildirilir:

***Fitnələri önləmənin ona çətin gəlməyəcəyi və öldürmənin də onu imtina etdirə bilməyəcəyi Əhli Beytimə mənsub biri (Mehdi) sahib olmadan günlər gecələr bitməyəcək...*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 12)*

***Tozlu, tüstü qaranlıq bir fitnə görüləcək, bunu digərləri təqib edəcək, ta ki Əhli Beytimdən özünə Mehdi deyilən bir şəxs çıxana qədər.*** *Əgər Ona çatsan, Ona tabe ol və hidayətə çatanlardan ol. (Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 26)*

## 69) QIZIL DÖVRDƏ BÜTÜN DÜNYADA YAŞANAN DÖYÜŞLƏR VƏ QARŞIDURMALAR, TERROR VƏ ANARXİYA MÜHİTİ SONA ÇATACAQDIR?

Tarix boyunca göndərilən bütün elçilər, yaşadıqları cəmiyyətlərə sülh və ədalət gətirmiş, peyğəmbərlərin gəlişi ümmətlərin üzərindəki zülmün və zorbalığın ləğv olmasına vəsilə olmuşdur. Quranda elçilərin bu xüsusiyyəti belə bildirilir:

**Hər ümmətin bir elçisi vardır. Onlara rəsulları gəldiyi zaman, aralarında ədalətlə hökm verilər və onlar zülmə uğradılmazlar. (Yunis surəsi, 47)**

Hz. Mehdi də yer üzünə gəldiyi dövrdə bu xüsusiyyəti daşıyacaq və Allahın icazəsiylə yer üzündəki bütün zülmün, işgəncənin, məcburi tətbiqlərin sona çatmasına vəsilə olacaq. Peyğəmbərimiz (s.ə.v) Qızıl dövrdə reallaşacaq bu vəziyyəti hədislərində belə müjdələmişdir:

*...**Yer üzü zülm və işgəncə ilə dolduğu kimi onu düzgünlük və ədalətlə doldurar.** (Sünəni Əbu Davud, 5/93)*

***Yer üzü, zülm və işgəncə yerinə ədalətlə dolacaq.** (Qiyamət əlamətləri, səh. 163)*

***Qab su ilə dolduğu kimi yer üzü barışla dolacaq. Heç bir kimsə arasında bir düşmənlik qalmayacaq. Və bütün düşmənliklər, boğuşmalar, həsədləşmələr şübhəsiz itib gedəcək.** (Səhihi Müslim, 1/136)*

***Müharibə (ərbabı) da ağırlıqlarını (silah və vəsaitlərini) tərk edəcək.** (Sünəni İbn Macə, 10/334)*

***Hərb (ərbabı) ağırlıqlarını (yəni silah və s.) buraxar.** (Ölüm-qiyamət-axirət və Axırzaman əlamətləri, səh. 496)*

***Düşmənlik və kini də qaldıracaq. Zəhərli olan hər heyvanın zəhəri də sökülüb alınacaq. Hətta kiçik oğlan uşağı, əlini ilanın ağzına soxacaq, ilan ona zərər verməyəcək. Qurd, qoyun-keçi sürüsü içində sürünün iti kimi olacaq.*** *(Sünəni İbni Macə, Kitabı-l fiten tərcüməsi və Şərhi, Qəhrəman nəşriyyat, cild 10, Tərcüməçi: Haydar Hatipoğlu, Bab 33, səh. 331-335)*

***Onun zamanında qurdla qoyun bir yerdə oynayacaq, ilanlar uşaqlara zərər verməyəcək.*** *İnsan bir ovuc toxum atacaq, 700 ovuc məhsul yığacaq. (Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

## 70) PEYĞƏMBƏRİMİZ (S.Ə.V), HZ. MEHDİ DÖVRÜNDƏKİ ETİBARLI MÜHİTİ NECƏ TƏSVİR EDİR?

Hədislərin işarələrinə görə, Qızıl dövrdə yaşanacaq həyat, barış və hüzur dolu olacaq. Dünyadan anarxiya, terror, qarışıqlıq, düşmənlik və şiddətin tamamilə ləğv olması nəticəsində insanlar cənnət bənzəri bir mühitə qovuşacaqlar. Hər cür ədalətli sistem yaradıldığı və bütün insanlar, Allah qorxusunu öyrənib və bunun şüuruna çataraq yaşadığı üçün oğurluq, saxtakarlıq, fırıldaqçılıq kimi sosial problemlər qalmayacaq. Cinayətlər, hücumlar, təcavüzlər, böhtan, təhqir ehtiva edən hərəkətlər və cəmiyyət hüzurunu pozacaq hər cür rəftar pozuqluqları və sui-istifadələr ləğv olacaq. Müharibələr, çaxnaşmalar, mübahisələr, narkotikə aludə olmuş insanların və ya qeyri-stabil insanların hücum etmə ehtimalı sona çatacaq, insanlar bu cür hərəkətlərdən qaynaqlanan bütün narahatlıq və qorxularından xilas olacaqlar. Yer üzünün hər yeri insanların böyük bir rahatlıq, hüzur və güvən içərisində yaşaya biləcəkləri əmin-amanlıq diyarlara çevriləcək. Gecə-gündüz hər yerdə, küçələrdə güvən içində gəzə biləcəklər. Hər kəs istədiyi saatda, istədiyi yerdə ailəsiylə gəzə biləcək, uşaqlarını heç bir narahatlığa qapılmadan rahatlıqla məktəblərinə göndərə biləcəklər.

İnsanlar dövlətə duyduqları güvən və hörməti, onun orqanları asanlıq təmin edərək göstərəcəklər. Qəzəblə hərəkət edən, tərs davranan, çətinlik çıxaran insanlar olmayacaq. Əksinə Quran əxlaqını yaşayan insanlar son

dərəcə köməksevər və tolerant əxlaqlarıyla, dövlətin yanında yer alacaq, dövlət orqanlarının işlərini asanlaşdıracaq şəkildə hərəkət edəcəklər.

Bütün dövlətlər millətlərinə güvənəcək, xalqın saxtakarlıq etmə ehtimalına söykənən, xalqı potensial təhlükə olaraq görən idarəetmə sistemləri ləğv olacaq. Xalqa güvən əsas alınacaq, insanların bəyanı yetərli olacaq və buna görə hərəkət ediləcək.

Xalq araşdırmaya, doğrunu öyrənib buna görə hərəkət etməyə istiqamətləndiriləcək, ani qəzəbin və kütləvi hərəkətlərin meydana gəlməsi təbii olaraq olmayacaq. İnsanlar hər nə problemləri olursa olsun bunu sevgi, hörmət və uyğunlaşma içərisində asanlıqla həll edə biləcəklərini bilmənin hüzurunu və etibarını yaşayacaqlar. Hədislərdə, o dövrdə cəmiyyətdə hakim olacaq olan bu etibarlı mühit çox təəccüblü nümunələrlə xəbər verilmişdir. Bu məlumatlara görə, Qızıl dövrdə "**qurdla qoyun bir yerdə otlayacaq**", "**uşaqlar ilan və əqrəblə oynayacaq, amma zərər görməyəcəklər**". Bu güvən mühitini təsvir edən hədislərdən bəziləri belədir:

***... Hər yer əmin bir hala gələr...*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 58)*

***...Onun zamanında qurdla qoyun bir yerdə otlayacaq, uşaqlar ilan və əqrəblə oynaşacaq...*** *(İmam Suyuti, Qiyamət əlamətləri, Ölüm və Diriliş, səh. 179, 1699)*

***Yer üzü təhlükəsizliklə dolacaq və hətta bir neçə qadın, yanlarında heç kişi olmadan, rahatlıqla, həccə gedəcək.*** *(Nuaym ibn Hammad, vr. 74b; Suyuti, cild II, səh. 77; əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

***Daha əvvəl zülmlə dolu olan dünyanı, ədalətlə doldurar. Ədaləti o cür olar ki, yuxuda olan bir kimsə belə oyandırılmaz və bir damla qan belə axıdılmaz. Dünya, sanki Əsri Səadət dövrünə geri dönər.*** *(Nuaym ibn Hammad, K. Fiten vr. 77b; Suyuti, cild II, səh. 77; Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29)*

*Rükn ilə Mövqe arasında ona beyət ediləcək. Hz. Mehdi o qədər mərhəmətli olacaq ki, zamanında nə bir kimsə yuxusundan oyandırılacaq, nə də bir kimsənin burnu qanayacaq.* (əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 42)

## 71) HZ. MEHDİNİN ZAMANINDA BÜTÜN DÜNYAYA SÜLH VƏ HÜZURUN HAKİM OLACAĞI NECƏ XƏBƏR VERİLİR?

Qızıl dövrdə yaşanacaq olan bütün gözəlliklərlə yanaşı cəmiyyət həyatı da son dərəcə hüzurlu olacaq. Allah, iman edən və dininə yönələn insanlara, o dövrə qədər görülməmiş gözəllikdə bir həyat təqdim edəcək. Allah Quranda, gözəllik edən, Quran əxlaqına tabe olan qullarını daha gözəli və daha artığı ilə nemətləndirəcəyini belə müjdələyir:

**Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir. Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. (Yunis surəsi, 25-26)**

Ayədə bildirilən "gözəllik edən" insanlara vəd edilən "sülh yurdu" Qızıl dövrdə tam mənasıyla yaşanacaq. Quran əxlaqının yaşanması, **"...Allahın verdiyi ruzidən yeyin, için və yer üzündə təxribatçılıq (fəsad) edərək qarışıqlıq çıxarmayın."** (Bəqərə surəsi, 60) ayəsini lazımınca, insanların qarışıqlığa, narahatlığa və çətinliyə yol aça biləcək hər cür rəftardan çəkinmələrini təmin edəcək. Cəmiyyətlər, hər zaman üçün Quran əxlaqına uyğun hüzur və sükunət dolu, etidallı, tolerant, problemləri ağıllı bir şəkildə həll etmə axtarışı içində olan, hadisələri böyütməyən əksinə hər zaman uzlaşdırıcı istiqamətdə olan bir tutum sərgiləyəcəklər.

## 72) HƏDİSLƏRDƏ HZ. MEHDİNİN İNSANLAR ARASINDAKI KİN, DÜŞMƏNLİK VƏ NİFRƏTİ LƏĞV EDƏCƏYİ BİLDİRİLMİŞDİR?

Hz. Mehdi vəsiləsiylə Quran əxlaqının bütün dünyaya hakim olması nəticəsində insanlar arasındakı kin, nifrət, düşmənlik kimi duyğular sona çatacaq, bütün yer üzünə barış və hüzur hakim olacaq. Peyğəmbərimiz (s.ə.v) Qızıl dövrın bu əhəmiyyətli xüsusiyyətini hədislərində belə xəbər verir:

***Qab su ilə dolduğu kimi yer üzü barışla dolacaq. Heç bir kimsə arasında bir düşmənlik qalmayacaq. Və bütün düşmənliklər, boğuşmalar, həsədləşmələr şübhəsiz itib gedəcək.*** *(Səhihi Müslim, 1/136)*

***Yer üzü zülm və düşmənliklə dolduqdan sonra, mütləq mənim Əhli Beytimdən biri çıxar. Və necə daha əvvəl zülm və düşmənliklə doluydusa, O dünyanı ədalətlə doldurar.*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 11)*

Hz. Mehdi, əvvəldən aralarında nifrət olan xalqlar arasında çox böyük bir qardaşlıq yaşanmasına, bütün problemlərin sevgi və gözəl əxlaq ilə həllə qovuşdurulmasına vəsilə olacaqdır.

## 73) QIZIL DÖVRDƏ İNSANLAR ARASINDAKI SEVGİ, QARDAŞLIQ VƏ MƏHƏBBƏT NECƏ OLACAQ?

***Allah bizimlə insanları necə şirk ədavətindən (düşmənliyindən) qurtararaq, onların ürəklərinə ülfət və sevgi yerləşdirmiş və din qardaşı etmişsə, Mehdi ilə fitnə ədavətindən qurtaracaq və qardaş edəcəkdir.*** *(Taberanidən, Heysemi, cild VII, səh. 317; Nuaym ibn Hammad, vr 52b; Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 20)*

***Necə bizimlə, onlar aralarındakı şirk və ədavətdən xilas olmuş və ürəklərinə ülfət və məhəbbət yerləşdirmişsə, (onun gəlişiylə) yenə elə olacaq.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 20)*

***Mənim övladımdan Məhəmməd ibn Abdullah (Mehdi) ilə Cənabı Haqq sünnələri canlandırar. Onun ədalət və bərəkəti ilə möminlərin ürəkləri fərahlayar. Əcəm və Ərəb millətləri arasında ülfət və məhəbbət yerləşər.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 66)*

## 74) PEYĞƏMBƏRİMİZ (S.Ə.V), HZ. MEHDİ DÖVRÜNDƏ BÜTÜN CƏMİYYƏTLƏRƏ GÖZƏL ƏXLAQIN HAKİM OLACAĞINI XƏBƏR VERMİŞDİR?

Bütün insanların çox böyük hüzur, güvən və rahatlıq içində olacaqları Qızıl dövrın ən əhəmiyyətli xüsusiyyətlərindən biri, insanların Qurana bağlı olduğu və Quran əxlaqının əksiksiz olaraq yaşandığı bir dövr olmasıdır. İnsanlar Allahdan qorxduqları və axirətdə bütün etdiklərindən sorğuya çəkiləcəklərinin şüurunda olduqları üçün eqoizm, kin, qəzəb, nifrət, həsəd, intiqam hissləri kimi pis əxlaq xüsusiyyətlərindən, sui-istifadədən, haqsız qazanc əldə etməkdən, yalan danışmaqdan, insanların canına qəsd etməkdən, rüşvət almaqdan diqqətlə çəkinəcəklər. Bunların yerinə insanlar arasında dürüstlük, köməksevərlik, fədakarlıq, başqalarının yaxşılığını, sağlamlığını, rahatını, təhlükəsizliyini düşünmək, sevgi, hörmət, mərhəmət, vəfa, sədaqət, qardaşlıq kimi gözəl əxlaq xüsusiyyətləri hakim olacaq.

Allahdan qorxub çəkinən, ixlaslı, təvəkkül sahibi, hər şeyi xeyir gözüylə qiymətləndirən, çox şükür edən, vicdanlı, şəfqətli, mərhəmətli, ədalətli, cəsur, etibarlı, güclü, şərəfli, təvazökar, anlayışlı, tolerant, insani, mehriban, haqqı söyləməkdən çəkinməyən, səbirli, qəzəbə qapılmayan, səhvlərində israrlı olmayan, əksəriyyətə deyil haqqa uyğun gələn, sözünə sadiq, vəfalı, iffətli, uzlaşdırıcı kəslərin varlığı üstün əxlaqlı cəmiyyətlər meydana gəlməsini təmin edəcək.

Allah qorxusunun və Quran əxlaqının yaşanması nəticəsində ümidsiz, şövqsüz insan qalmayacaq, hər işlərində şövqlə hərəkət edəcək, cəmiyyətə və özlərinə faydalı insanlar halına gələcəklərdir.

Allahın onlar üçün yaratdığı gözəllikləri və ətrafındakı nemətləri daha yaxşı görüb təqdir edə biləcək və bütün bunlardan daha çox zövq ala biləcəklər. İnsanlara, uşaqlara qarşı duyulan sevgi; yaşlılara, möhtaclara duyulan şəfqət və mərhəmət hissləri daha çox artacaq. İnsanlar yanlarında işləyənlərə qarşı sevgi və hörmət dolu əxlaq göstərəcəklər. İşləyənlərin ailələrini qoruyub, mühafizə edəcək hər problemlərinə ortaq olub, hər ehtiyacları olduğunda cəmiyyətin hər seqmenti bir-birinin köməyinə qaçacaq.

Cəmiyyətdə saxtalıq, sadəlik, səthilik tamamilə ortadan qalxacaq; insanların şəxsiyyətlərinə dərinlik, səmimiyyət, və keyfiyyət hakim olacaq. İnsan ruhuna və mömin şəxsiyyətinə yaraşmayan hər cür pis işlər Quran əxlaqının yaşanmasıyla özbaşına ortadan qalxacaq.

Yenə Quran əxlaqının gərəyi olaraq insanlar təmizliyə də böyük əhəmiyyət verəcək, həm ətraflarını, həm də özlərini mümkün qədər təmiz və gözəl hala gətirəcəklər. Cəmiyyətin hər seqmentində, bütün insanlar son dərəcə təmiz, gözəl və baxımlı olacaqlar.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Qızıl dövrdə, hz. Mehdi dövründə yaşanacaq olan bu əxlaq gözəlliyi belə ifadə edilmişdir:

*Təbərani, Evsadda Əmir ibn Əli tariki ilə Hz. Əli ibn Əbu Talibdən nəql etdi:*

*...Cənabı Haqq İslamı necə Bizimlə başlatmışsa Onunla sona çatdıracaq.* ***Necə, Bizimlə onlar aralarındakı şirk və ədavətdən (nifrət və düşmənlikdən) xilas olmuş və ürəklərinə ülfət (dostluq) və məhəbbət (sevgi) yerləşmişsə, (Onun gəlişi ilə) yenə elə olacaq.*** *(Axırzaman Mehdisinin əlamətləri, Cəlaləddin Suyuti, səh. 20)*

***"...Onun dövründə yaxşı insanların yaxşılığı artar, pislərə qarşı belə yaxşılıq edilər."*** *(Kitab-ul Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 17)*

## 75) HƏDİSLƏRDƏ HZ. MEHDİ DÖVRÜNDƏ İNSANLAR ARASINDA YAŞANACAQ OLAN İCTİMAİ ƏDALƏT NECƏ İZAH EDİLMİŞDİR?

Bəzi cəmiyyətlərdə dil, irq, etnik mənşə kimi xüsusiyyətlər çox böyük əhəmiyyət daşıyır və ədaləti tətbiq edən insanların qərarlarına təsir edə bilirlər. Halbuki fərqli irq və millətlərin olmasının bir məqsədi, qarşıdurma və döyüş deyil, mədəni bir zənginlikdir. Bu müxtəliflik Allahın yaradılışındakı bir gözəllikdir. Bununla yanaşı zənginlik, ya da kasıblıq kimi faktorlar da insanların bir-birlərinə qarşı olan rəftarlarına və ədalət anlayışlarına təsir edə bilir. Halbuki Quran əxlaqına görə, insanlar Allah Qatında yalnız imanlarının və Allah qorxularının dərinliyi ilə üstün ola bilərlər. Bu səbəbdən Quran əxlaqının bütün yer üzünə hakim olması, yer üzündə bu anlayış əksikliyinə bağlı olaraq yaşanan sosial ədalətsizlikləri ortadan qaldıracaq, ən gözəl və tək çözüm yoludur. Quranda təsvir edilən İslam əxlaqı, ədalətli, şəfqətli, mərhəmətli, zəngin kasıb ayrı-seçkiliyi etmədən ehtiyac içində olana kömək etməyi tələb edir. Qurana görə həqiqi ədalət, yalnız Allah rizası güdülərək, Allahdan qorxaraq təmin edilən bir ədalətdir. Belə bir ədalət hədəfləndiyində, nə şəxsi mənfəət, nə dostluq, nə düşmənlik, nə də insanın həyata olan dünyagörüşü, dili, irqi, bədəninin rəngi qərarlarına təsir edə bilməyəcək, yalnız haqdan yana qərar veriləcək. Allahın icazəsiylə Qızıl dövrdə belə bir əxlaq bütün cəmiyyətlərə hakim olacaq və həqiqi ədalət, həqiqi hüzur və güvən bütün yer üzünə hakim olacaq. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Qızıl dövrdə yaşanacaq olan bu vəziyyət belə xəbər verilir:

***İnsanlar olduqca xeyirli, həyatları çox rahat olacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 54)*

***Mənim ümmətim o dövrdə elə bir rifah tapacaq ki, o günə qədər onun mislini qətiliklə tapmamışdır...*** *(Sünəni İbni Macə, 10-347/ Ramuz əl Ehadis, səh. 508)*

Hədislərin işarələrinə görə Qızıl dövrdə, cəmiyyətdə ehtiyac içində olanın nəzərə alınmaması, yalnız çox kiçik bir zümrənin bolluq içində yaşaması kimi ədalətsizliklər sona çatacaq. Qonşusu ac ikən kimsə tox

yatmayacaq, tək tərəfli zənginlik utanc vəsiləsi halına gələcəkdir. Eqoistlik və eqoizm ortadan qalxacağı üçün hər kəs bir-birini yeməyə dəvət edəcək, maddi-mənəvi bütün imkanlarını bir-biriylə paylaşacaq. Xalqın bir-birinə qarşı olan mərhəməti mümkün olduğu qədər artacaq, hər kəs bir-birini zəngin etməyə çalışacaq. Güclü olan haqlı olmayacaq, haqlı olan güclü olacaq. Quran əxlaqının hakim olduğu bu dövrdə cəmiyyətin hər seqmentindəki insanlar arasında çox böyük bir bərabərlik yaşanacaq, hüzur və güvən dolu bir mühit olacaq. Bu mühitin bir nəticəsi olaraq insanlar heç bir saxtakarlığa, pisliyə və haram hərəkətlərə də yanaşmayacaqlar.

## 76) QIZIL DÖVRDƏ İNSANLAR FİKİR AZADLIĞINA SAHİB OLACAQLAR?

İslam əxlaqı, inanc mövzusunda insanlara tam azadlıq tanıyır. İslamın vəhy edildiyi dövrdən günümüzə qədər keçərli olan bu anlayış, İslam əxlaqının təməlini meydana gətirmişdir.

İslam əxlaqına görə insan istədiyi inancı seçməkdə azaddır və heç kim bir başqasını inanc mövzusunda məcbur edə bilməz. Müsəlman İslam olmasını tələb etdiyi insana yalnız təbliğ edərək, Allahın varlığını, Quranın Allahın haqq kitabı, hz. Məhəmməd (s.ə.v)-in isə Onun elçisi olduğunu, axirətin və hesab gününün varlığını, İslam əxlaqının gözəlliklərini izah etməklə məsuldur. Amma bu məsuliyyəti yalnız din əxlaqını izah etmə ilə məhduddur. Allah Quranda bu vəziyyəti belə bildirir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

İslam dini izah edildiyi zaman insan öz istəyiylə iman edər, heç bir təzyiq, ya da məcburiyyət altında qalmadan qərar verər. İnsan doğrunu, ya da səhvi seçməkdə azaddır. Əgər səhv seçimi etsə axirətdə bunun qarşılığını alacaqdır.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərindəki məlumatlara görə Qızıl dövrdə, Quran əxlaqının bir gərəyi olan bu fikir azadlığına söykənən anlayış bütün cəmiyyətlərə hakim olacaq. Bunun nəticəsində isə siyasi çəkişmələr tamamilə ortadan qalxacaq, dostluq və sevgi içərisində tam bir demokratiya mühiti meydana gələcək. Başqalarına zərər verməmək şərti ilə hər cür inanc azad şəkildə yaşanacaq, iğtişaşlar və qarşıdurmaya səbəb olmadan hər kəs fikrini istədiyi kimi bəyan edə biləcək.

## 77) QIZIL DÖVRDƏ FƏRQLİ DİNLƏR ARASINDAKI SÜLH VƏ TOLERANTLIQ NECƏ OLACAQ?

İslam dini, insanları dini inanclarını seçmədə azad buraxarkən, digər dinlərə hörmətli olmağı əmr edər. Bir insan Quranda batil olaraq təsvir edilən bir inanca sahib olsa da belə, Quran əxlaqını yaşayan insanlar arasında hüzur və barış içində yaşaya bilər. Öz inanclarına görə ibadətlərini azad şəkildə yerinə gətirə bilər. Heç kim bir başqasını öz dininin ibadətlərini yerinə yetirməyə mane ola bilməz. Ya da bir insanı istədiyi şəkildə ibadət etməyə məcbur edə bilməz. Bu İslam əxlaqına ziddir və Allahın razı olmadığı bir davranış formasıdır. İslam tarixini araşdırdığımızda Peyğəmbərimiz (s.ə.v)-in dövründə də hər kəsin azad şəkildə ibadət edə bildiyi, inanclarının gərəklərini yerinə gətirə bildiyi bir cəmiyyət modelinin hakim olduğu görülür. Quranda Əhli Kitabın ibadət yerləri olan monastır, kilsə və sinaqoqlardan da Allahın qoruduğu ibadət məkanları olaraq bəhs edilir:

**...Əgər Allah insanların bəzilərini, digərləri ilə dəf etməsəydi, içərisində Allahın adı çox zikr olunan hücrələr, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah Qüvvətlidir, Qüdrətlidir. (Həcc Surəsi, 40)**

Peyğəmbərimiz (s.ə.v)-in həyatında bu əxlaqın bir çox nümunəsinə rast gəlinir. Peyğəmbərimiz (s.ə.v), onunla görüşməyə gələn Xristianların öz məscidində ibadət etmələrini söyləmiş və bu iş üçün məscidi onların istifadəsinə buraxmışdır. *(Əli Bulaç, Müasir anlayışlar və nizamlar, İz*

*nəşriyyat, 16-cı nəşr, İstanbul, 1998, səh.* 241) Peyğəmbərimiz (s.ə.v)-dən sonrakı xəlifələr dövründə də bu tolerant anlayış qorunmuşdur. Şam fəth edildiyi zaman, məscidə çevrilən bir kilsə ikiyə bölünmüş, bir yarısında xristianlar, o biri yarısında müsəlmanlar ibadət etmişlər. *(Əli Bulaç, Müasir anlayışlar və nizamlar, İz nəşriyyat, 16-cı nəşr, İstanbul, 1998, səh. 241)*

Hədislərdə bütün xalqların sülh və hüzur içərisində yaşadıqları Əsri Səadət dövrü kimi, hz. Mehdi dövründə də eyni tolerant anlayışının hakim olacağı bildirilir. Bu məlumatlara görə müsəlmanlar ilə xristian aləmi arasında qarşılıqlı tolerantlığa söykənən qardaşlıq, şəfqət və mərhəmət anlayışı meydana gələcək. Xristianların və yəhudilərin bütün ibadət yerləri, sinaqoqlar, kilsələr və vəqfləri qoruma altına alınacaq, kilsə açmaq istəyənlərə, dini inancları istiqamətində tələbdə olanlara, ibadətlərini yerinə yetirmək istəyənlərə imkan veriləcək. Bütün xristianların və yəhudilərin özləri üçün müqəddəs sayılan torpaqlarında sülh, hüzur və təhlükəsizlik içində yaşamaları təmin ediləcək, hər cür problem sevgi, hörmət və tolerantlıq anlayışı ilə, asanlıqla həll edilə biləcək, bütün xalqlar bir-birləriylə uyğunluq və dostluq içərisində həyatlarını davam etdirə biləcəklər.

## 78) HƏDİSLƏRDƏ HZ. MEHDİ ZAMANINDAKI BƏNZƏRSİZ BOLLUQ, ZƏNGİNLİK VƏ BÜTÜN İQTİSADİ ÇƏTİNLİKLƏRİN SONA ÇATMASI NECƏ XƏBƏR VERİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Qızıl dövrdə yaşanacaq nemətlərin bənzərsiz olduğu çox ətraflı olaraq izah edilir. Bu izahatlara görə Qızıl dövr, məhsullarda və mallarda çox böyük bolluq və bərəkətin yaşandığı bir dövr olacaq. Bənzəri görülməmiş bir zənginlik yaşanacaq, həyat bahalılığı, dolanışıq çətinliyi, aclıq, səfalət və sıxıntı illəri tamamilə sona çatacaq. Ehtiyac içində olan kimsə qalmayacaq, hər hansı bir tələbdə olan istədiyindən qat-qat daha çoxu veriləcək, heç bir şey sayılıb ölçülməyəcək. Maddi mənəvi hər cür imkan insanların, rahatlığı, sevinci və dincliyi üçün istifadə ediləcək, ən kiçik bir çətinlik, yoxluq və aclıq yaşanmayacaqdır. Peyğəmbərimiz (s.ə.v) hz. Mehdi dövründə reallaşacaq olan bu bolluq və zənginliyi hədislərində belə xəbər verilir:

***Ümmətimdən Mehdi çıxacaq. Allahu Təala həzrətləri, insanları zəngin etmək üçün onu göndərəcək. O zaman ümmətim nemətlənəcək, heyvanlar bolluq içində və ərzin nəbatatı çox olacaq, Hz. Mehdi, insanlara bərabər şəkildə bol-bol mal paylayacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 23)*

*...**Mal da o gün çox yığılmış olacaq.*** *(Sünəni İbni Macə, 10-347/ Ramuz əl Ehadis, səh. 508)*

***İnsanlara malı və əşyanı paylayarkən, saymadan bol-bol verəcək.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 21)*

***O zaman ümmətim, yaxşısı pisi hamısı da mislini görmədikləri nemətlərlə nemətlənər...*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 16)*

*...**Mal da o qədər çoxalacaq ki, heç bir kimsə mal qəbul etməyəcək.*** *(Sünəni Ibni Macə, 10/340)*

***Axırzamanda bir xəlifə olacaq, malı sayıb hesablamadan böləcək.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 15)*

***Əmirlərinizdən bir əmir olacaq ki, malı saymayacaq. Biri ondan mal istədiyində, "Al apar" deyər O da paltarını sərər və o da doldurar.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 15)*

***Ümmətim arasında bir xəlifə olacaq, malı saymadan verəcək.*** *(Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 15)*

## 79) HƏDİSLƏRDƏ HZ. MEHDİ ZAMANINDA KƏND TƏSƏRRÜFATINDA YAŞANACAQ TƏRƏQQİLƏRƏ NECƏ İŞARƏ EDİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, torpaqdan da hər zamankindən daha çox məhsul əldə ediləcəyi və bu sahədə də bənzərsiz bir bolluq və bərəkətin görüləcəyi bildirilir:

***İnsanlar bir ölçək buğda əkdiklərində qarşılığında yeddi yüz ölçək əldə edəcək... Onun zamanında, insan bir neçə ovuc toxum atacaq, 700 ovuc məhsul yığacaq...*** *(Qiyamət əlamətləri, səh. 164/ əl-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 24)*

*...**Yer yemişini (qida məhsullarını) verəcək və insanlardan heç bir şey saxlamayacaq (verməməzlik etməyəcək)dır...*** *(Sünəni İbni Macə, 10-347/ Ramuz əl Ehadis, səh. 508)*

*...**O zaman ümmətim nemətlənəcək, heyvanlar bolluq içində və ərzin nəbatatı (bitkiləri) çox olacaq*** *(El-Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 26)*

Yenə Peyğəmbərimiz (s.ə.v)-in hədislərində xəbər verildiyinə görə, Qızıl dövrdə yer üzünün su qaynaqlarında da böyük bolluq olacaq, bu sulama imkanlarının artmasıyla bütün torpaqlar görülməmiş bir şəkildə bərəkətlənəcək:

*...**Onun zamanında bütün sular şirinləşəcək, çaylar uzanacaq, yer üzü bitkilərini artıracaq və (içindəki) xəzinələrini xaricə çıxaracaq.*** *(en-Necmus-sakıb if Bəyanı Ennel Mehdi ibn Əli ibn Əbi Talib, Tərcümə edən: Ömər Dönməz, səh. 43)*

*...**Onun dövründə, axan çaylar belə suyunu çoxaldacaq...*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 31)*

***...Səma yağışını endirəcək, yer bərəkətini çıxaracaq, daha əvvəl görülməmiş bir şəkildə ümmətim Onun zamanında rahata qovuşacaq.*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 9)*

***O yer üzünü ədalətlə və haqla doldurar. Ərz nəbatatını çıxarar, göy də yağışını yağdırar. Ümmətim daha əvvəl görülməmiş şəkildə nemətləndirilər.*** *(İbn Əbi Şeybe, cild VII, səh. 512-513; Əli ibn Hüsaməddin Əl Muttaki, Cəlaləddin Suyutinin təsnifindən hədislər - Axırzaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 35)*

***Onun dövründə, ümmətin gərək yaxşıları, gərək pisləri misli görülməmiş şəkildə bir çox nemətlərə sahib olacaqlar. Çox yağış yağmasına baxmayaraq bir damlası belə hədər getməyəcək, torpaq tək bir toxum istəmədən məhsuldar və bərəkətli olacaq.*** *(əl-Kavlul Müxtəsər fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20-21)*

***(Mehdinin zamanında) səma yağışından heç bir şeyi əsirgəməyəcək və comərdcə bol yağdıracaq. Yer üzü bitkilərindən heç birini əksik buraxmayacaq və şübhəsiz onları kamalıyla bitirib ortaya çıxaracaq...*** *(Saati, H 143, cild XXIV, səh. 50; Ölüm-qiyamət-axirət və Axırzaman əlamətləri, səh. 437)*

Peyğəmbərimiz (s.ə.v)-in bu hədislərində hz. Mehdi zamanında müasir kənd təsərrüfatına keçilməsi, yeni istehsal texnikalarının inkişaf etdirilməsi, toxum islahı işləri və yağış sularından yeni su anbarları, süni göllər düzəldilməsi nəticəsində meydana gələcək istehsal artımına işarə edilir. Dövrünüzün texnologiyası çox böyük sürətlə inkişaf edir, məhsulların həm keyfiyyətində həm də istehsal miqdarının çoxaldılması edilir. Daha uzun müddət dözümlü olan və daha az su ilə böyüməléri də təmin edilir. Yeni inkişaf etdirilən texnologiyalar sayəsində məhsullarda müxtəliflik əldə edilə bilinir və dörd mövsüm hər cür meyvə və tərəvəz yetişdirilir.

Qızıl dövrdə bütün bu tərəqqilər daha da artacaq, məhsullarda fövqəladə bir keyfiyyət artımı olacaqdır. Daha çox məhsul verən, dadı,

qoxusu daha gözəl məhsullar yetişdiriləcək. Quranda bu mövzuya işarə edən bir ayədə belə bildirilir:

**Mallarını Allah yolunda xərcləyənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsənin mükafatını artırar. Allah hər şeyi Əhatəedəndir, Biləndir. (Bəqərə surəsi, 261)**

Hədislərin işarələrinə görə Qızıl dövrdə suvarmaya böyük əhəmiyyət veriləcək, hər yerdə göllər, su anbarları, geniş su kanalları, süni çaylar yaradılacaq, susuz heç bir yer qalmayacaq. Dəniz, yağış və sel suları da təmizlənərək kənd təsərüfatında istifadə ediləcək, bu şəkildə quraq bölgələr çox böyük bolluq və bərəkətə qovuşacaqlar. Dövrümüzdə hələ çox dar bir sahədə həyata keçirilmiş olan texnologiyalarla bütün çöllər yaşıllaşdırılacaq və insanlıq çox böyük bir əkin sahəsinə qovuşacaq. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hz. Mehdi vəsiləsiylə bütün yer üzünün bərəkətlənəcəyi və torpaqdan əldə ediləcək bolluğun çox artacağına işarə edilir.

Yenə hədislərdəki məlumatlara görə, kənd təsərüfatında qət ediləcək bütün bu inkişaflar nəticəsində heyvanların keyfiyyətində də böyük tərəqqi qeyd ediləcək, hər cür hayvansal istehsal artacaqdır:

***...Ümmət nemətlənəcək, heyvanlar bol-bol yeyib içəcək, ərz bitkisini çıxaracaq...*** *(Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 15)*

## 80) HZ. MEHDİ DÖVRÜNDƏ YERALTI ZƏNGİNLİKLƏR DƏ ORTAYA ÇIXARILACAQ?

Hz. Mehdi dövründə yaşanacaq bir başqa inkişaf da, yer üzündəki bütün yeraltı zənginliklərinin ortaya çıxarılması və bunların insanlığın rifahı və rahatlığı üçün istifadə edilməsi olacaq. Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Qızıl dövrın bu xüsusiyyəti belə xəbər verilir:

***...Hz. Mehdi xəzinələri çıxaracaq...*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 33)*

***Onun zamanında yer üzü içindəki xəzinələri çölə atacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

*...**Ərz, içərisində gizlədiyi bütün zənginliklərini, qızıldan və gümüşdən sütunlar halında çölə atacaq.** (İmam Şarani, Ölüm Qiyamət Axirət və Axırzaman əlamətləri, səh. 464)*

## 81) HƏDİSLƏRDƏ ELM VƏ TEXNOLOGİYADAKI İNKİŞAFLARA NECƏ İŞARƏ EDİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində elm və texnologiyadakı inkişaflara istiqamətli işarələrdən də bəhs edilir. Qızıl dövrdə bütün cəmiyyətlər arasında elmə qarşı böyük təşviq və təhsil proqramı tətbiq olunacaq, texnoloji inkişaflar yüksək həddə çatacaq, insanlar texnologiyanın bütün nemətlərindən mümkün qədər faydalanacaqlar. Tibdə, kənd təsərrüfatında, ünsiyyətdə, sənaye texnologiyasında, nəqliyyatda çox böyük inkişaflar yaşanacaq. Bütün bu texnoloji tərəqqilər, insanların həyatlarına çox böyük rahatlıq və asanlıq təmin edəcəkdir. Bu inkişaflar sayəsində çox böyük asanlıqlar yaşanacaq, böyük bir sürət qazanılacaq.

Nəqliyyat texnologiyasındakı inkişaflar nəticəsində insanların rahatı, təhlükəsizliyi və rahatlığı ən üst səviyyədə təmin ediləcək, zaman itkisi və qəza riski ən aşağı səviyyəyə endiriləcək, bunun üçün lazım olan hər cür tədbir alınacaq. Ünsiyyət texnologiyasında da əhəmiyyətli tərəqqilər təmin ediləcək, dünyanın dörd bir tərəfiylə xəbərləşmə və məlumat alış-verişindəki sürət və asanlıqlar ən üst səviyyəyə çatacaq (doğrusunu Allah bilir).

Bütün bu texnologiyalar əldə edilərkən, insanların sağlamlığı və rahatlığına zərər verə biləcək hər cür problemin ortadan qaldırılmasına da böyük əhəmiyyət veriləcək bu məqsədlə texnologiyanın zərərli yan məhsullarına qarşı qəti tədbirlər alınacaq.

Qızıl dövrdə yaşanacaq bu dəyişmənin ən əhəmiyyətli xüsusiyyətlərindən biri isə, bu tip inkişaflardan bütün dünya xalqlarının ədalətli bir şəkildə faydalanmasını təmin etmək olacaq. Bütün imkanlar bütün dünya insanlarının istifadəsinə təqdim ediləcək, hər kəsə eyni gözəlliklər, bərabər imkanlar yaradılacaq.

## 82) HƏDİSLƏRDƏ QIZIL DÖVRDƏ TİBBDƏ VƏ İNSAN SAĞLIĞINDA YAŞANACAQ İNKİŞAFLAR NECƏ XƏBƏR VERİLMİŞDİR?

Axırzamanda texnoloji sahədə yaşanan hər inkişaf, tibb sahəsində fövqəladə tərəqqiyə gətirib çıxaracaq. Qızıl dövrdə yaşanan hər cür elmi və texnoloji inkişaf tibbi işləri sürətləndirəcək, Allahın icazəsiylə səhv etmə payını çox aşağı səviyyəyə salacaq, insanların bir çox xəstəliyə tutulma riskinin qarşısı alınacaq, xəstəliklərə diaqnoz qoyulması asanlaşacaq və müalicə imkanları artacaq.

İnsan həyatına və sağlamlığına böyük əhəmiyyət veriləcək, insanlar həkim, ya da dərman tapa bilmədikləri, ya da gec və ya səhv müalicə edildiyi üçün çarəsizlik yaşamayacaq, hər ehtiyacı olana həmin anda kömək ediləcək. Hər hansı bir insan ayrı-seçkiliyi edilmədən, kasıb-zəngin, yaşlı-gənc demədən, hər kəsin sağlamlıq problemlərinə çox böyük diqqət göstəriləcək. Bütün insanların sağlamlığı üçün mövcud olan bütün imkanlar istifadə ediləcək, hər cür ehtimal qiymətləndiriləcək.

Lazım olan hər cür maddi-mənəvi asanlıqlar da təmin ediləcək. Xəstəxanalar, dərmanlar, müalicələr ödənişsiz hala gətiriləcək, köməyə və baxıma möhtac insanların ehtiyacları onlara heç hiss etdirilmədən ən mükəmməl şəkildə aradan qaldırılacaq.

Bütün insanların sağlam həyat yaşaya bilmələri üçün elmin və texnoloji inkişafların işığında bəslənmə siyasətləri ən mükəmməl hala gətiriləcək. Yeməklərdəki hər cür zərəri aradan qaldıracaq iş və elmi araşdırma ediləcək. Yeməklərin xolesterolunu, ya da sağlamlığa zərərli digər yönlərini ortadan qaldıracaq elmi metodlar inkişaf etdiriləcək. Orqanizmə zərər verən hər cür yemək və içki ilə əlaqədar tədbir görüləcək, insanların keyfiyyətli və təmiz qidalarla bəslənmələri təmin ediləcək. Bunun nəticəsində də infarkt və yüksək

təzyiq kimi səbəblərə söykənən ölümlər azalacaq, insanların ömürləri görülməmiş bir şəkildə uzanacaq (doğrusunu Allah bilir).

Bəslənməklə birlikdə bütün cəmiyyətlər sağlam bir həyat üçün idmanın lazımlılığı mövzusunda da şüurlandırılacaq, gümrah və idmançı bir quruluş yaradılmasıyla bir çox xəstəliyin önlənməsi təmin ediləcək. Bunlarla yanaşı, insanların yaşadıqları hadisələrə qarşı təvəkküllü olmaları, bir-birlərinə qarşı sevgi və tolerant əxlaq göstərmələri nəticəsində psixoloji xəstəliklər də ortadan qalxacaqdır (doğrusunu Allah bilir).

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində Qızıl dövrdə tibb və sağlamlıq sahəsində reallaşacaq olan bütün bu inkişaflara işarə edilmiş və bu dövrdə insanların "ömürlərinin uzanacağı" belə bildirilmişdir:

***Onun zamanında... ömürlər uzanacaq və əmanət itməyəcək. Pislər həlak olacaq, Peyğəmbərimiz (s.ə.v)-a nifrət edəcək kimsə qalmayacaq.*** *(Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 43)*

***Ömürlər uzanacaq, əmanətlər yerinə təslim ediləcək.*** *(İmam Suyuti, Qiyamət əlamətləri, Ölüm və Diriliş, səh. 169, 179)*

## 83) QIZIL DÖVRDƏ BÜTÜN DÜNYAYA HAKİM OLACAQ İNCƏSƏNƏT VƏ ESTETİKA ANLAYIŞI NECƏ XƏBƏR VERİLMİŞDİR?

Qızıl dövrdə həyatın hər anına hakim olan bolluq, zənginlik, gözəllik və inkişafların, incəsənət sahəsinə də hakim olacağı hədislərdə işarə edilən bir başqa tərəqqidir. Qızıl dövrdə incəsənətə böyük əhəmiyyət veriləcək. Bütün insanlar bu mövzuda sıx olaraq təşviq ediləcək, estetika və incəsənətə olan meyl fövqəladə artacaq. Bütün İslam aləminə incəsənət ruhu hakim olacaq, incəsənətdə çox böyük inkişaf baş verəcəkdir. Musiqidə, rəsmdə və digər bütün sahələrdə bir-birindən gözəl əsərlər ortaya çıxacaq, Allaha olan imanın insanlara verdiyi geniş üfüq və dərin düşüncə, bütün incəsənət sahələrinə liderlik edəcək. Bu dövrdə insanlar həmişə gözəlliklə qarşılaşacaq, əxlaqları kimi, yaşadıqları yerlər, bağçaları, evlərinin dekorasiyası, paltarları,

dinlədikləri musiqi, əyləncə şəkilləri, teatrlar, rəsmlər, söhbətləri də gözəlləşəcək.

Estetik olmayan, formasız heç bir yer, heç bir bina qalmayacaq, koma bənzəri evlər ortadan qaldırılacaq, hər yer estetik, gözə xoş gələcək hala gələcək. Praktik və estetik iki mərtəbəli, geniş evlər, hovuzlar, bağlar, bağçalar artacaq, mövcud sahələr, bağçalar gözəlləşəcək. Küçələrə gözə xoş gələn meyvə ağacları əkiləcək, hər yerdə kiçik zooparklar yaradılacaq. Təbii parkların sayı çox artacaq, insanların yaşadıqları yerlərdə sıx yaşıllıq hakim olacaq. Xalqın özünün də baxıb bəsləməkdən zövq alacağı minlərlə bitki və çiçək bütün şəhər və qəsəbələri bəzəyəcək. Bütün bu məkanların işıqlandırılması, estetikası, rənglənməsi son dərəcə sənətkaranə olacaq və çox estetik hala gətiriləcək, dünyanın hər yerinə insan ruhunun çox xoşlayacağı böyük bir keyfiyyət hakim olacaqdır.

Bütün məkanlar, yollar, ibadətxanalar, əyləncə yerləri, istirahət etmə sahələri, iş yerləri, evlər, insanların pal-paltarları qısacası hər yer tərtəmiz olacaq. Bununla yanaşı məskunlaşma mərkəzlərində ətraf çirkliliyinin qarşısı alınacaq, hava çirkliliyinə səbəb olan hər mövzuya çözüm gətiriləcək.

Eyni zamanda insanlar arasında heyvan sevgisi də təşviq ediləcək, hər cür heyvanın rahatlıqla sevilə biləcəyi və araşdırıla biləcəyi zövqlü və estetik mühitlər yaradılacaq. Aslan, qaplan, bəbir, çita kimi heyvanlar əhliləşdiriləcək. Müxtəlif metodlar və bioloji texnikalarla vəhşi olmaları ortadan qaldırılacaq və insanların rahatca ünsiyyət qura biləcəyi, sevgi göstərə biləcəyi hala gələcəklər. Şəhərlərdə və qəsəbələrdə leylək, qutan kimi hər cür quş növü rahatlıqla sığına biləcək. Əqrəb, ilan kimi heyvanların zəhərlərinin elmi metodlarla yox edilməsi sayəsində isə, bunların da insanlara zərər verməsi maneə törədiləcək, ilan belə estetik hala gətiriləcək (doğrusunu Allah bilir).

Quran əxlaqının insanlara qazandırdığı sevgi anlayışı nəticəsində heyvan düşmənliyi ortadan qalxacaq, heyvanlara zərər verici bütün davranışlar aradan qaldırılacaq. Beləcə bütün heyvanların, quş nəsillərinin yox olma təhlükəsi ortadan qalxacaq və heyvan növlərində çoxalma təmin ediləcək.

Axırzamanda yaşanacaq olan bu mühitə Peyğəmbərimiz (s.ə.v)-in bir hədisində belə diqqət çəkilmişdir:

*...insan, qoyun və heyvanlarına gedin otlayın, deyəcək, onlar **gedəcəklər, əkinin ortasından keçdikləri halda bir başaq belə ağızlarına almayacaqlar, ilan və əqrəblər kimsəyə zərər verməyəcəklər, yırtıcı heyvanlar qapıların qarşısında dayanacaq da kimsəyə zərərləri toxunmayacaq...** (Qiyamət əlamətləri, pamuk nəşriyyat, səh. 245)*

*Habis Əl Hadraminin nəql etdiyinə görə: ... **İlanlar uşaqlarla, inəklər aslanlarla gəzə biləcək.** (Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 64)*

## 84) QIZIL DÖVRDƏ BÜTÜN İNSANLARIN HZ. MEHDİNİN RƏHBƏRLİYİNDƏN RAZI OLACAQLARI NECƏ İZAH EDİLMİŞDİR?

Peyğəmbərimiz (s.ə.v) hədislərində hz. Mehdinin öndərliyində yaşanacaq olan Qızıl dövrın nə qədər xeyirli bir dövr olduğunu xatırlatmış və bu dövrdə "**dənizdəki balıqlardan havadakı quşlara qədər yerdəki və göydəki bütün canlıların və bütün insanların hz. Mehdidən razı olduqlarını**" bildirmişdir:

*Mehdi ilə müjdələnin... **Ondan yer və göy əhli razıdır...** (Kitab-ül Burhan fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 13)*

*...**O zaman, yer və göy əhli, bütün vəhşi heyvanlar, quşlar, hətta dənizdəki balıqlar belə onun xilafətiylə sevinəcəklər...** (Əl Kavlul Müxtəsər Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 31)*

*Əbu Səid Hudri Rəsulluhdan rəvayət edir:*

***Mehdinin tamaşaçıları ona sığınarlar, bal arılarının Kraliça arıya sığındıqları kimi (onun yanında güvən və hüzur taparlar), o yer üzünü ədalət və dürüstlüklə dolduracaq.** (Kitab-ül Burhan Fi Əlamət-el Mehdiyy-il Axırzaman, səh. 11)*

Allah, Quran əxlaqına tabe olan müsəlmanlara cənnət həyatlarında təqdim ediləcək olan gözəllikləri ayələrində ətraflı olaraq təsvir etmişdir. Altından çaylar axan gözəl məkanlar, mənbələr, dayanmadan axan bulaqlar, evlər, köşklər, paltarlar, yeməklər, içkilər, ləl-cəvahiratlar, gözəl əxlaqlarına qarşılıq sonsuz həyatda onlara veriləcək. Cənnət müsəlmanların hər zaman qovuşmağı istədikləri sonsuz həyatdır:

**Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun! Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız. Xeyirxah əməllərinizin nəticəsi kimi varis olduğunuz Cənnət budur. Orada sizin üçün bol-bol meyvələr vardır, onlardan yeyəcəksiniz. (Zuxruf surəsi, 70-73)**

Məhz Qızıl dövr da bütün müsəlmanlara belə gözəl bir həyatın dünyada hazırlanıb təqdim edilməsidir. Bu dövr Peyğəmbərimiz (s.ə.v)-in müjdələdiyi kimi cənnətin dünyadakı bir müjdəsi, Allahın möminlərə bir lütfüdür. Bolluğu ilə, bərəkəti ilə, insanlara təmin edəcəyi hər cür rahatlığıyla və hüzur dolu mühitiylə hər müsəlmanın yaşamaq istəyəcəyi bu dövr, iman edən insanlar üçün dünya həyatında çox üstün bir mükafatdır. Bu gözəl dövrlə müjdələnilmək də şübhəsiz bütün müsəlmanlar üçün çox böyük bir şərəfdir.

# ƏLAVƏ HİSSƏ:
# TƏKAMÜL NƏZƏRİYYƏSİNİN SONU

Darvinizm; ara-fosil olmadığı halda, varmış təlqini edər... Etibarsız dəlillər təqdim edər... Var olan bütün fosillər yaradılışı isbat etdiyi halda bunun tam əksini müdafiə edər... Təsadüflər nəticəsində meydana gəlmə ehtimalı ancaq $10^{950}$-də 1 olan, (yəni "**meydana gəlməsi qeyri-mümkün olan**" zülallarla) yenə təsadüflər nəticəsində, incəsənət adamları, elm adamları, professorlar meydana gələcəyinə inandırmağa çalışar. Hətta meydana gələn professorların, özlərinin necə təsadüfən meydana gəldiyini universitetlər quraraq araşdırdığına da inandırmağa çalışar...

Darvinizm; canlı hüceyrə xromosomunda nəhəng bir kitabxanadan daha çox məlumat kodlaşdırılmış olmasını, kor təsadüflərin möcüzəsi olaraq görər... Görməyən, eşitməyən, hiss etməyən, şüursuz atomların, görən, eşidən, hiss edən, düşünən şüurlu insanlar halına gəlməsinin, təsadüflərin ilahi gücündən olduğunu iddia edər... Təsadüf, darvinizmin möcüzələr meydana gətirən ilahıdır.

**1) Darvinizm artıq zülalların təkamüllə yarana biləcəyini iddia edə bilmir.** Çünki tək bir zülalın belə təsadüfən doğru düzülmə ilə meydana gəlmə ehtimalı nəzəri olaraq $10^{950}$-də 1-dir. Bu isə reallaşması riyazi olaraq qeyri-mümkün bir ehtimaldır.

**2) Darvinizm artıq fosilləri təkamülə dəlil olaraq göstərə bilmir.** Çünki 19-cu əsrin ortalarından bu yana dünyanın dörd bir tərəfində aparılan arxeoloji işlərdə, təkamülçülərin milyonlarla olduğunu iddia etdikləri "ara-keçid forması" fosillərindən tək biri belə olsa tapıla bilmədi. "İtkin halqaların" elmdən kənar əfsanə olduğu aydın oldu.

**3) Təkamülçülər bu günə qədər tapılmış olan 100 milyon fosil qarşısında çarəsiz qalmışlar.** Çünki tapılan bütün fosillər yaradılışı dəstəkləyər, isbat edər mahiyyətdədir.

**4) Təkamülçülər artıq Archaeopteryxin quşların atası olduğunu iddia edə bilmir.** Çünki Archaeopteryx fosilləri üzərində edilən son araşdırmalar bu canlının "yarım quş" olduğu iddiasını çürütmüşdür. Archaeopteryxin, uçuş üçün lazımlı anatomiya və beyin quruluşunu qüsursuz olaraq saxladığı yəni bir quş olduğu aydın olmuş, beləcə "quşların təkamülü nağılı" təkamülçülər üçün müdafiə oluna bilməz olmuşdur.

**5) Darvinizm artıq "At ardıcıllığı" deyə ortaya qoyulan saxta düzülüşü istifadə edə bilmir.** Çünki bu saxta ardıcıllığın keçmişdə fərqli dövrlərdə və fərqli coğrafiyalarda yaşamış müstəqil canlı növlərindən ibarət olduğu aydın oldu.

**6) Darvinizm artıq sudan quruya çıxış hekayəsi üçün Coelecanth adlı fosili istifadə edə bilmir.** Çünki soyu tükənmiş ara-forma olduğu iddia edilən bu canlının hələ də yaşayan bir dərinlik balığı olduğu ortaya çıxmışdır və bu canlı bu günə qədər 200-dən çox sayda (canlı olaraq) tutulmuşdur.

**7) Darvinizm, Ramapithecus, Australopithecus ardıcıllığı *(A. Bosei, A Robustus, A. Aferensis, Africanus və s.)* kimi canlıların insanların ataları olduqları iddiasını artıq müdafiə edə bilmir.** Çünki bu fosillər üzərində aparılan araşdırmalar, bunların insan ilə heç bir əlaqəsi olmadığını və hamısının keçmişdə yaşamış meymun növlərindən ibarət olduğunu ortaya qoymuşdur.

**8) Darvinizm düzəldilmiş (canlandırma) şəkillərlə artıq insanları aldada bilməyəcək.** Çünki qədimdə yaşamış heyvanların fosillərinə söykənən bu canlandırmaların (bərpası) heç bir elmi dəyərə sahib olmadığı və tamamilə etibarsız olduqları elm insanların tərəfindən açıq şəkildə ortaya qoyulmuşdur.

**9) Darvinizm artıq "Piltdaun insanı"nı təkamülə dəlil olaraq göstərə bilmir.** Çünki, aparılan araşdırmalar "Piltdaun insanı" deyə bir fosilin heç bir zaman var olmadığını, insana aid bir kəllə sümüyə oranqutan çənəsi əlavə olunaraq insanların 40 il boyunca aldadıldığını ortaya çıxardı.

**10) Darvinizm "Nebraska insanı"nın və yalançı ailəsinin təkamülü isbat etdiyini artıq müdafiə edə bilmir.** Çünki "Nebraska insanı" hekayəsinin söykənildiyi azı diş fosilinin əslində soyu tükənmiş yaban donuzuna aid olduğu təsbit edildi.

**11) Darvinizm artıq təbii seleksiyanın təkamülə səbəb olduğu iddiasını müdafiə edə bilmir.** Çünki, bu mexanizmin canlıları təkamülləşdirməyəcəyi, onlara yeni xüsusiyyətlər qazandırmayacağı elmi olaraq isbat edilmişdir.

Darvinistlərin yuxarıda sayılanlardan başqa daha bir çox səhv məlumatlandırması da mövcuddur. Bunların hamısının etibarsızlığı zaman ərzində ortaya çıxmışdır. Məsələn; təkamülləşdirici xüsusiyyəti olduğu iddia edilən mutasiyaların tamamilə korlayıcı xüsusiyyətə sahib olduğu və canlılara inkişaf deyil xəstəlik, şikəstlik və ya ölüm gətirdiyi görülmüşdür... Darvinistlərin insan embrionunda qəlsəmə olaraq göstərdiyi quruluşun həqiqətdə insanın orta qulaq kanalının, paratiroidlərinin və tumus vəzlərinin başlanğıcı olduğu aydın olmuş, üstəlik embrion şəkillərində təkamülü dəstəkləmək üçün dəyişikliklər edildiyi də ortaya çıxmışdır. Bakteriyalardakı antibiotik müqavimətinə aid genetik məlumatın bakteriyanın "var olduğu andan etibarən" DNT-də olduğu ortaya çıxarılmışdır...

Hz. Mehdinin gəlişi mövzusu İslam tarixində hər dövrdə əhəmiyyətli yer tutmuşdur. Peyğəmbərimiz (s.ə.v)-in çox saydakı hədisində, adıyla, xüsusiyyətləriylə, köməkçiləriylə, dövrünün xüsusiyyətləriylə və edəcəyi işlərlə ətraflı olaraq təsvir edilən hz. Mehdinin gələcəyinə dair müxtəlif Quran ayələrində də işari mənada müjdələr vardır. Bütün əhli sünnə alimləri də hz. Mehdinin Axırzamanda gələcəyi mövzusunda ittifaq halındadırlar. Peyğəmbərimiz (s.ə.v)-in müjdələdiyi bu şəxsin gələcəyi və İslam əxlaqını yer üzünə hakim edəcəyi haqqında, mötəbər İslam alimləri arasında heç bir fikir ayrılığı yoxdur. Bu kitabda, hz. Mehdi haqqında Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bəhs edilən məlumatlara ətraflı olaraq yer verilmişdir.